**XƏZƏR UNİVERSİTETİ**

Fakültə: Təbiət Elmləri, Sənət və Texnologiya yüksək təhsil

Departament: Təhsil

İxtisas: Pedaqogika nəzəriyyəsi və tarixi

**MAGİSTR DİSSERTASİYA İŞİ**

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN MÜƏLLİMLƏRİN ETİK DAVRANIŞLARININ TƏLƏBƏLƏRİN BAXIŞ BUCAĞINDAN DƏYƏRLƏNDİRİLMƏSİ

İddiaçı: ______________________________ Esmira Müşviq qızı Hüseynli

Elmi rəhbər: __________________________ pedaqogika üzrə fəlsəfə doktoru

Leyla Xudadat qızı Əliyeva

**Bakı – 2025**

## MÜNDƏRİCAT

**GİRİŞ** ... 3

**I FƏSİL. ƏDƏBİYYAT XÜLASƏSİ** ... 9

1.1. Etik davranışın nəzəri əsasları və təhsildə müəllimlik peşə etikasının mahiyyəti ... 9

1.1.1. Etika və peşə etikası anlayışları ... 9

1.1.2. Müəllimlik peşə etikası və etik prinsipləri ... 17

1.1.3. Ali təhsil mühitində müəllim davranışlarının əhəmiyyəti, qeyri-etik davranışlar və onların səbəbləri ... 24

1.2. Ali təhsil müəssisələrində müəllimlərin etik davranışlarının hüquqi tənzimlənməsi: yerli və beynəlxalq təcrübə ... 29

1.2.1. Etik kodekslərin əhəmiyyəti ... 29

1.2.2. Azərbaycanda müəllim davranışlarının normativ-hüquqi çərçivəsi ... 31

1.2.3. Beynəlxalq təcrübədə müəllim davranışlarının hüquqi tənzimlənməsi (ABŞ, Böyük Britaniya, Avstraliya, Cənubi Koreya, Sinqapur və Finlandiya nümunəsində) ... 34

**II FƏSİL. METODOLOGİYA** ... 45

2.1. Tədqiqatın modeli ... 45

2.2. Tədqiqatın iştirakçıları ... 45

2.3. Data toplama aləti ... 46

2.4. Tədqiqat datalarının toplanılması, analizi və nəticələrin təhlili ... 48

2.5. Tədqiqat alətinin açıq sualına verilmiş cavabların tematik analizi və nəticələrin təhlili ... 58

**NƏTİCƏ** ... 67

Təkliflər ... 70

Məhdudiyyətlər və tövsiyələr ... 71

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI** ... 72

# GİRİŞ

Müasir dövrdə etika anlayışından müxtəlif bilik sahələri ilə yanaşı gündəlik həyatda da tez-tez bəhs olunduğunun şahidi oluruq. Halbuki təqribən qırx-əlli il əvvəl "etika" sözü elm sahələrində, filosoflar arasında, habelə gündəlik həyatda indiki qədər geniş yayılmamışdı. Bu söz sadəcə bir neçə mütəfəkkirin vacib hesab etdiyi bir sahə adı olaraq istifadə olunurdu. Əvvəllər əksər filosofların maraq dairəsindən kənarda olan etika bugün nəinki fəlsəfədə, hətta müxtəlif elm sahələrində də əsas tədqiqat istiqamətlərindən biri kimi ön plana çıxır. Fəlsəfədə etikanın qədim sahə olmasına baxmayaraq günümüzdə etika sanki yeni bir sahə kimi görünür. Çünki o həm müasir dövrdə önəm qazanan və fəlsəfənin iki yeni sahəsi olan insan fəlsəfəsi və dəyər fəlsəfəsi ilə çox yaxından əlaqəlidir, həm də digər bilik sahələri – insan və cəmiyyət elmləri, təbiət elmləri və tətbiqi elmlər üçün əvəzedilməz bir əhəmiyyətə malikdir (İyi S., 2019, 3). İngiliscə "ethics", fransızca "ethique", latınca "ethica", yunanca isə "ethike" sözləri ilə ifadə olunan etika qədim yunan dilində insanın əxlaqi xarakterini və ya davranış xüsusiyyətlərini ifadə edən "ethos" sözündən törəyib və fəlsəfənin əxlaqı öyrənən qoludur. Etika "Uyğun olan nədir?", "Edilməsi lazım olan nədir?", "Doğru olan hansıdır?" suallarına cavab axtarmaqla insan davranışının doğru-yanlış, yaxşı-pis ölçüləri ilə bağlı standartlarını müəyyən edir. Etika və əxlaq bir-birinə yaxın olan və bəzən bir-birini əvəz edən anlayışlardır. Əxlaq cəmiyyətin qəbul etdiyi yaxşı, pis, doğru və yanlış kimi dəyərlər haqqında yazılmamış qaydalardır. Əxlaqlı olmağın meyarı sözügedən cəmiyyətdə yaxşı, pis, gözəl, çirkin, doğru və yanlış anlayışlarının necə qəbul edildiyindən asılıdır. Əxlaqi dəyərlər cəmiyyətdən və mədəniyyətdən asılı olaraq dəyişə bilər. Etika isə insan münasibətlərini universal səviyyədə araşdırır və fərdlərə yaxud cəmiyyətlərə görə fərqlənməsi gözlənilmir (Gedikli S., 2023, 8: Aydın 2015, 16).

Çoxmədəniyyətli olaraq xarakterizə edilən müasir dünyada qloballaşmanın təsiri altında müxtəlif mədəniyyət və etnik qrupların nümayəndələri arasında artan və inkişaf edən əməkdaşlıqla yanaşı, bir çox sahələrdə qarşıdurmaların, anlaşılmazlıqların baş verdiyini görmək mümkündür. Dünyamız bir çox səbəblərdən qaynaqlanan münaqişələr və bənzəri görünməmiş sosial mobillik səbəbindən qeyri-sabitliklə xarakterizə oluna bilər. Dünyanın bir çox müxtəlif yerlərində hələ də uzun illərdir davam edən münaqişələr, beynəlxalq ictimaiyyətin bu münaqişələrə cəlb edilməsi və ya bu regionlardan qaynaqlanan miqrasiya hərəkatlarının təsirinə məruz qalması, çox şaxəli sosial problemlərə səbəb olur, xüsusilə də sağlamlıq, həmçinin iqtisadi problemlər bura aiddir və zaman keçməsinə baxmayaraq bu problemlərə heç bir həll tapılmaması məsələni daha da önəmli edir. Bu

halda, qlobal səviyyədə etik dəyərlərin nəzərə alınması münaqişələri, anlaşılmazlıqları əhəmiyyətli dərəcədə aradan qaldıra bilər və etik davranış müxtəlif cəmiyyətlər arasında ünsiyyətdə daha vacib yer alar ki, bu da qlobal vətəndaş anlayışını, həmçinin müxtəlif mədəniyyətlər arasında əməkdaşlığı kifayət qədər yaxşılaşdıra bilər. Tələbələri gələcəyə hazırlamaq, istiqamətləndirmək üçün müasir qloballaşan dünyada cəmiyyətin və dünyanın multikultural qavrayışına uyğunlaşmağın vacibliyi inkar edilə bilməz. Etika olmadan həyatı idarə etmək və məsuliyyətlə davranmaq çox çətindir, belə ki, etikanın vacibliyini həyatın heç bir mərhələsində göz ardı etmək olmaz. Etika nəyin məqbul, nəyin qeyri-məqbul olduğuna dair standartları müəyyən edir, buna görə də həm müəllimlərin, həm də tələbələrin maraqlarını qoruyur (Uzun, F., 2022, 91).

Hər bir peşə özünəməxsus etika anlayışını formalaşdırır. Bu çərçivədə peşə etikası müəyyən bir peşədə nəyin doğru, nəyin yanlış olduğunu müəyyən edən, həmin peşə ilə bağlı davranış qaydalarını formalaşdıran və peşəyə mənsub şəxslərin bu qaydalara əməl etməsini məcburi edən, əməl etməyənləri peşədən uzaqlaşdıran, xidmət ideallarını qoruyan prinsiplər toplusu kimi ifadə olunur (Atak ve Gül, 2014, 2; Akinrotimi J., 2021). Peşə etikası birbaşa insanla bağlı olan peşələrdə riayət edilməli davranış qaydaları kimi müəyyən edilə bilər və peşə etikasının ən vacib xüsusiyyəti eyni peşədə çalışan şəxslərin bu davranış qaydalarına uyğun hərəkət etmələrinin zəruri olmasıdır. Bu kontekstdə peşə etikası eyni peşə sahiblərinin bir-birilərinə və xidmət göstərdikləri insanlara qarşı davranışlarını tənzimləmədə mühüm rol oynayır. Digər tərəfdən peşə etikası təkcə peşə sahiblərinin qarşılıqlı münasibətlərini deyil, həm də onların istehsal etdikləri mal və xidmətlərin standart və keyfiyyətlərinə əhəmiyyətli dərəcədə təsir edir (Kayıkçı & Uygur, 2012, 70). Son zamanlara qədər adı etika, etik qaydalar, peşə etikasına aid terminlərlə ifadə olunmasa da, tarix boyu həm insanların, həm də peşələrin müəyyən etik normaları mövcud olmuşdur. Bu etik normalar bir tərəfdən insanların həyata keçirdikləri əməllərin cəmiyyət tərəfindən qəbul olunmasına müsbət təsir göstərmiş, digər tərəfdən isə peşələrin mövcudluğunu qoruyub saxlamasına və cəmiyyətin onlara olan etimadının davam etməsinə şərait yaratmışdır. Bu gün tibbdən hüquqa, siyasətdən mühəndisliyə qədər hər bir peşə sahəsinin özünəməxsus peşə etik dəyərləri (prinsipləri) mövcuddur. Bu peşələrdən biri də müəllimlikdir (Yeşilyurt, E., & Kılıç, M. E., 2014, 472). Təhsil sistemlərinin məqsədlərinin reallaşmasında xüsusi vəzifəyə sahib olan müəllimlər yalnız bilik ötürən deyil, eyni zamanda cəmiyyətin memarları kimi gələcək nəsillərin formalaşmasında, onların dəyərlər sisteminin qurulmasında və beləliklə də, ölkənin inkişafına təkan verilməsində mühüm rol oynayan şəxslərdir. Şübhəsiz ki, keyfiyyətli təhsilin təminatı üçün savadlı və peşəkar müəllimlərə ehtiyac var (Koç, 2014, 51). İlyasova (2018) görə yalnız tədris

etdiyi fənnə dair dərin elmi və metodoloji biliklərə sahib olmaqla deyil, eyni zamanda daim öyrənməyə meyilli, yeniliklərə açıq, geniş dünyagörüşə sahib, yaradıcı habelə tənqidi düşünmə qabiliyyətinə malik, problemlərin həllində çevik və vaxtın səmərəli idarə olunmasını bacaran bir şəxs peşəkar müəllim kimi xarakterizə oluna bilər. O vurğulayır ki, müəllimin peşəkarlığı üçün yalnız bu xüsusiyyətlər kifayət deyil, müəllim həm də yüksək peşə mədəniyyətinə və müsbət şəxsi keyfiyyətlərə malik olmalıdır. Müəllim daim öz davranışı ilə cəmiyyətə nümunə olmalı və üzərindəki məsuliyyətin fərqində olaraq daşıdığı adın nüfuzunu artırmağa çalışmalıdır.

Müəllimin nümayiş etdirdiyi davranışlar təkcə onun peşə kimliyinin formalaşmasına deyil, eyni zamanda təhsilalanların nailiyyətlərinə, sinif daxilindəki psixoloji mühitə və tədris prosesinin keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir (Gurbetoğlu, A., & Tomakin, E., 2011, 266)

**Tədqiqatın aktuallığı.** Təhsilin keyfiyyətinin artırılması və səriştəli müəllim hazırlığı hər zaman dövlət təhsil siyasəti üçün prioritet hesab olunan və müasir dövrdə də öz aktuallığını qoruyan məsələlərdəndir. “Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu”nun 32-ci maddəsində hər bir təhsilalanın dövlət təhsil standartlarına uyğun olmaqla mənəvi və psixoloji cəhətdən sağlam bir pedaqoji mühitdə keyfiyyətli təhsil almaq hüququna malik olması öz əksini tapır. Maddə 33-də isə təhsilverənlərin keyfiyyətli təhsil vermək, təhsilalanların təhlükəsizliyinin və sağlamlığının mühafizəsində iştirak etmək kimi vəzifələri daşıdığı qeyd olunur. Həmçinin burada etik davranış qaydalarına, pedaqoji etika və əxlaq normalarına riayət etmək, müəllim nüfuzunu yüksəltmək, təhsilalanların şərəf və ləyaqətinə hörmətlə yanaşmaq təhsilverənlərin əsas vəzifələri olaraq qarşımıza çıxır. Təhsil sistemində ən vacib yerə sahib şəxslər məhz müəllimlərdir. Tədqiqatlar göstərir ki, müəllimin sahib olduğu keyfiyyətlər şagirdin təhsildə uğur qazanmasına birbaşa təsir göstərmək gücünə malikdir. Bu isə onu deməyə əsas verir ki, müəllimlər öz vəzifələrini təhsilin əsas prinsiplərinə, hədəflərinə və əlbəttə ki, peşə etikasının tələblərinə müvafiq olaraq həyata keçirmək öhdəliyi daşıyırlar. Məhz buna görə də Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən 15 may 2024-cü ildə KQ-07 nömrəli qərar ilə “Təhsilverənlərin etik davranış Qaydaları” təsdiq edilmişdir. Bu qaydaların əsas məqsədi müəllimlərin davranışlarını etik prinsiplər əsasında formalaşdırmaqdır ki, onlar öz peşələrinə məsuliyyətlə yanaşaraq təhsil prosesində nümunəvi mövqe tutsunlar. Yəni bu qaydalar müəllimlərin təhsilalanlara, valideynlərə və həmkarlarına qarşı münasibətini tənzimləyərək ümumi təhsil mühitinin sağlam və keyfiyyətli olmasına xidmət edir. Bundan əlavə, Azərbaycan Respublikasında təhsilin inkişafına dair Dövlət Strategiyasında müəllim amili təhsilin keyfiyyətinə təsir edən əsas komponentlərdən biri kimi

qəbul edilir. Strategiyada etik və peşəkar bacarıqlarla təchiz olunmuş müəllimlərin yetişdirilməsi, onların davamlı inkişafının təmin olunması və cəmiyyətdə müəllim nüfuzunun yüksəldilməsi təhsil siyasətinin əsas prioritetləri sırasında göstərilmişdir. Nəticə etibarilə, həm strateji istiqamətverici sənədlərdə, həm də normativ-hüquqi çərçivədə müəllimlərin etik davranış normalarına və peşə məsuliyyətinə xüsusi önəm verilməsi, bu amilin təhsilin keyfiyyətinin artırılmasında mühüm rol oynadığını ortaya qoyur. Bu yanaşma mövzunun hazırkı dövrdə də aktual qalmasını təmin etməklə yanaşı onu elmi tədqiqat baxımından əhəmiyyətli və əsaslandırılmış bir araşdırma obyekti kimi qiymətləndirməyə imkan yaradır.

**Tədqiqatın obyekti və predmeti.** Bu tədqiqatın obyektini ali təhsil mühitində müəllimlərlə tələbələr arasında formalaşan qarşılıqlı münasibətlər sistemi və həmin münasibətlərdə ortaya çıxan etik davranış nümunələri təşkil edir. Tədqiqatın predmeti isə tələbələrin baxış bucağından müəllimlərin etik davranışlarının dəyərləndirilməsi və bu davranışların tədris mühitinə olan təsiridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatda qarşıya qoyulan məqsəd ölkəmizdə ali təhsil müəssisələrində fəaliyyət göstərən müəllimlərin etik davranışlarını tələbələrin baxış bucağından dəyərləndirməkdir. Başqa sözlə, tələbə-müəllim münasibətləri əsasında ali təhsildə etik mühitin real vəziyyətini qiymətləndirmək, eləcə də mövcud boşluqları və inkişaf sahələrini müəyyən etmək bu tədqiqatın əsas məqsədidir. Bununla yanaşı, tədqiqat çərçivəsində tələbələrin qeyri-etik davranış halları ilə qarşılaşıb-qarşılaşmadıqları, bu halların nədən ibarət olduğu və onların təhsilə təsiri araşdırılır. Məqsədəmüvafiq olaraq tədqiqat sualları aşağıdakı kimi formalaşdırılmışdır:

***Tədqiqat sualı 1:*** *Tələbələrin fikrincə, müəllimlərin ali təhsil mühitində etik davranış qaydalarına riayət etmə səviyyəsi necədir?*

***Tədqiqat sualı 2:*** *Tələbələrin müşahidələrinə əsasən ali təhsil müəssisələrində qeyri-etik davranış halları mövcuddurmu? Əgər varsa, bu davranışlar hansı formalarda özünü göstərir?*

Tədqiqat çərçivəsində aşağıdakı hipotezlər irəli sürülmüşdür:

***H0:*** *"Müəllimlərin etik davranış səviyyəsi tələbələrin psixoloji rifahına təsir göstərmir".*

***H1:*** *“Müəllimlərin etik davranış səviyyəsi tələbələrin psixoloji rifahına təsir göstərir”.*

Tədqiqatın vəzifələri sırasına daxildir:

- Ali təhsil müəssisələrində müəllimlərin etik davranışları ilə bağlı nəzəri yanaşmaları, anlayışları və beynəlxalq təcrübələri araşdırmaq;
- Müəllimlərin etik davranışlarını tənzimləyən yerli qanunvericilik və normativ-hüquqi sənədləri təhlil etmək;
- Tələbələrin ali təhsil müəssisələrində müəllimlərin etik davranışlarına münasibətini müəyyənləşdirmək;
- Tələbələrin ali təhsil mühitində müəllimlərin qeyri-etik davranış halları ilə bağlı təcrübələrini və müşahidələrini təhlil etmək;
- Tədqiqatın nəticələrinə əsaslanaraq ali təhsildə etik münasibətlərin gücləndirilməsi və etik davranışların təkmilləşdirilməsi istiqamətində təkliflər və tövsiyələr irəli sürmək.

**Tədqiqatın metodu.** Tədqiqatın məqsədinə müvafiq olaraq bu tədqiqatda keyfiyyət (qualitative) və kəmiyyət (quantitative) tədqiqat metodlarının kombinasiyasına əsaslanan qarışıq metodologiya (mixed methods) tətbiq edilmişdir. Qarışıq metodologiya həm kəmiyyət, həm də keyfiyyət tədqiqat üsullarının birgə istifadəsini nəzərdə tutur və araşdırılan mövzunun statistik ölçülməsini, eləcə də daha dərindən anlaşılmasını təmin edir. Əsas məlumat mənbəyini ali təhsil müəssisələrində təhsil alan tələbələr təşkil etmişdir. Tədqiqat çərçivəsində məlumat toplamaq məqsədilə tədqiqatçının özü tərəfindən tərtib olunmuş sorğu anketindən istifadə edilmişdir. Sorğu alətinin tərtibi zamanı sualların məzmunu və forması müəllim etikası ilə bağlı mövcud elmi ədəbiyyatlar, beynəlxalq etik prinsiplər, eləcə də Azərbaycan Respublikasında qüvvədə olan “Təhsilverənlərin Etik Davranış Qaydaları” normativ sənədi əsasında formalaşdırılmışdır. Bu yanaşma sorğunun həm elmi cəhətdən əsaslandırılmış, həm də yerli təhsil mühiti üçün aktual və uyğun olmasına şərait yaratmışdır. Məlumatların toplanması üçün 20 qapalı və 1 açıq sualdan ibarət hazırlanmış sorğu-anketi tələbələr arasında link vasitəsilə onlayn şəkildə paylaşılmışdır. Qapalı suallar Likert şkalası (1 – tamamilə razı deyiləm, 5 – tamamilə razıyam) əsasında tərtib edilmiş və müəllimlərin etik davranışlarına dair tələbələrin münasibətlərini ölçmək üçün istifadə edilmişdir. Sonuncu - açıq sual vasitəsilə isə tələbələrin qeyri-etik hallarla bağlı fərdi təcrübələri və müşahidələri toplanmışdır. Toplanan kəmiyyət məlumatları IBM SPSS Statistics proqramından

istifadə edilərək deskriptiv, inferensial statistika üsulları ilə təhlil edilmişdir, eyni zamanda iştirakçıların demoqrafik göstəricilərinə əsaslanaraq cavabların müxtəlif qruplar üzrə müqayisəsi də aparılmışdır (məsələn: cins, tədris ili, universitet). Keyfiyyət məlumatları isə tematik analiz yanaşması ilə kodlaşdırılmış və ümumi meyillər müəyyənləşdirilmişdir. Məzmun analizinin ilkin mərhələsində respondentlərin cavabları əsas kodlara ayrılmış, sonrakı mərhələdə bu kodlar ümumiləşdirilərək əsas tematik qruplar altında birləşdirilmişdir. Analiz nəticəsində müəyyən edilmiş əsas qeyri-etik davranış nümunələri ayrı-ayrılıqda təqdim olunmuş və tələbələrin ifadələrindən seçilmiş anonim sitatlar vasitəsilə empirik əsaslandırma verilmişdir. Tədqiqatın etibarlılığını artırmaq üçün tələbələrin cavab verməsi könüllülük əsasında həyata keçirilmiş və cavabların məxfi saxlanılması təmin edilmişdir.

**Tədqiqatın əhəmiyyəti və elmi yeniliyi.** Bu tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, ali təhsil müəssisələrində müəllimlərin etik davranışları birbaşa tələbələrin baxış bucağından sistemli şəkildə araşdırılmışdır. Mövcud ədəbiyyatda kifayət qədər əhatə olunmayan bu yanaşma tələbələrin şəxsi təcrübə və müşahidələrinə əsaslanaraq etik və qeyri-etik davranış hallarının tematik təhlili və sitat nümunələri ilə elmi şəkildə sənədləşdirilməsini təmin edir. Tədqiqatda ən çox tələbəsi iştirak etmiş iki müxtəlif ali təhsil müəssisəsi üzrə müqayisəli yanaşmanın tətbiq olunması ilə də müəllimlərin etik davranış səviyyəsinin tələbələr tərəfindən necə dəyərləndirildiyi təhlil edilmişdir.

Tədqiqat ali təhsildə etik davranışlara dair empirik baza yaradaraq bu sahədə aparılan tədqiqatlara nəzəri və metodoloji töhfə verir. Eyni zamanda tədqiqat əldə olunan nəticələr vasitəsilə ali təhsildə etik mühitin təkmilləşdirilməsi, müəllim–tələbə münasibətlərində etik prinsiplərin tətbiqi və təhsil siyasətində etik davranışların təşviqi sahəsində real, məqsədyönlü tədbirlərin görülməsi üçün əsaslı tövsiyələrin hazırlanmasına imkan yaratmaqla praktik əhəmiyyət daşıyır. Bütün bunlar ali təhsil müəssisələrində etik mühitin yaxşılaşdırılmasına və tədris keyfiyyətinin yüksəldilməsinə töhfə verə bilər. Tədqiqatın nəticəsində müəllimlərin etik davranışlarının tələbələrin baxışından necə dəyərləndirildiyini öyrənmələri onlara öz pedaqoji fəaliyyətləri barədə düşünmək fürsəti təqdim edir. Son olaraq, əldə olunan nəticələr gələcəkdə bu sahədə aparılacaq digər tədqiqatlar üçün də baza rolunu oynaya bilər.

# I FƏSİL. ƏDƏBİYYAT XÜLASƏSİ

## 1.1. Etik davranışın nəzəri əsasları və təhsildə müəllimlik peşə etikasının mahiyyəti

### 1.1.1. Etika və peşə etikası anlayışları

İlk etik təlimlər iki min ildən çox əvvəl Qədim Şərqdə, Qədim Hindistanda və Qədim Çində meydana çıxmışdır (Ковалев & Кулик, 2013). Etika tarixində davranışlar və bu davranışların şüurla qarşılıqlı əlaqəsi məsələsini ilk dəfə diqqət mərkəzinə gətirən Aristotel olmuşdur. Antik dövrün böyük filosofu bu mövzuya dair təhlillərini özünün "Etika" adlı əsərində ətraflı şəkildə aparmış və bu məsələyə xüsusi önəm vermişdir (Ağayeva K., 2007, 5; Tosunoğlu, 2017). "Etika"nın həm termin olaraq meydana çıxması, həm də müstəqil bir elm sahəsi kimi formalaşması Aristotelin adı ilə əlaqələndirilsə də, bu sahənin ilkin təməllərinin qoyulması və inkişafı prosesi ondan daha əvvəlki dövrlərə gedib çıxır (Şahhüseynova S. A., 2009, 7; Abbasova Q. Y., 2016, 207). Aristotelin "Nikomax etikası", "Evdem etikası" və "Böyük etika" kimi əsərləri adında etika sözü istifadə edilən ilk əsərlər olaraq bilinir. Onun "İkinci analitika", "Politika", "Ritorika" kimi digər əsərlərində də etikaya dair məsələlər öz əksini tapmışdır. Müasir mənada etika yalnız fəlsəfənin digər bölmələri ilə deyil, həmçinin pedaqogika, sosiologiya, tarix, psixologiya, etnoqrafiya, estetika, dinşünaslıq, arxeologiya və hətta biologiya ilə də sıx əlaqədə inkişaf etməkdədir (Hacıyeva N., 2012, 24).

Etika və əxlaq insanlararası münasibətlərdə tez-tez işlədilən və bir-biri ilə sıx bağlı olan iki anlayışdır. Etika sözü qədim yunan dilindəki ethos sözündən gəlir (Abbasov A.N., 2015, 5; Erdem H., 2014, 70). Ethosun kökü isə ethika-dır. Ethikanın mənası ethos sözünün cəm halı olan ethe ilə bağlı məsələlər deməkdir. Ethosun cəm forması olan ethe ən qədim və ilkin mənasında "canlı bir varlığın məkanı, həmişə getdiyi və sığındığı yer" deməkdir. Bu kökdən qaynaqlanan ethos sözü əsasən insanın xarakterini, xasiyyətini ifadə edən bir məna daşıyır. Etika isə bir elmi disiplinin adı olaraq buradan yaranmışdır. Qədim yunan dilindəki ethos sözünün latınca qarşılığı mos, onun cəm forması isə moresdir. Latın dilində bu söz həm adət, həm də xarakter mənasında işlədilmişdir. Qədim yunan dilindəki ethikos sözünün latınca qarşılığı moralis olmuşdur. Bu dəyişiklik sözün mənasında fərqlənməyə səbəb olmuş və bu fərq günümüzə qədər davam etmişdir. Ethikos və moralis arasındakı fərqi nəzərə almaq vacibdir, çünki bu terminlərin dəyişməsi nəticəsində etika

və əxlaq anlayışları çox vaxt eyni məzmunda işlədilmişdir. Halbuki etika və əxlaq arasında mühüm fərq mövcuddur. Etika və əxlaq arasındakı fərq belədir: Etika fəlsəfənin əsas dörd sahəsindən biridir, bu sahələr varlıq fəlsəfəsi (ontologiya), bilik fəlsəfəsi (epistemologiya), məntiq və etikadır. Həm etika sözünün kökünə, həm də fəlsəfənin əsasını qoyan filosofların bu sahədə apardıqları tədqiqatlara və irəli sürdükləri suallara baxdıqda etikanın fəlsəfənin bir qolu olduğu aydın görünür. Bu baxımdan etika bir bilik sahəsidir. Əxlaq isə bizi hər yandan əhatə edən ictimai xarakterli bir fenomendir. O xarici dünyada mövcud olan, müxtəlif norma, qayda, qadağa və əmrlərdən ibarət bir sistemdir və hər zaman müəyyən bir qrupun, yaxud cəmiyyətin əxlaqı kimi qarşımıza çıxır. Əxlaq zaman və məkanla dəyişən, qüvvədə olduğu cəmiyyətdə müəyyən məcburi gücə malik dəyərlər sistemi kimi formalaşır. Beləliklə, əxlaq həmişə müəyyən bir cəmiyyətə məxsusdur və ya ondan qaynaqlanır. Deməli, əxlaq bir fenomendir və insanın cəmiyyətlə bağlılığı ilə əlaqəlidir. Şübhəsiz ki, əxlaq da insan dünyasının vacib bir hissəsidir. Ancaq onun etika ilə fərqini daha yaxşı başa düşmək üçün əxlaqın fenomen kimi mövcudluğuna diqqət yetirmək lazımdır. Bu xüsusiyyəti ilə əxlaq cəmiyyətdə özbaşına mövcud olan və filosofun yalnız "Bu nədir?" sualını verə biləcəyi bir gerçəklikdir. "Bu nədir?" sualını vermək isə etika sahəsinə aid biliklə mümkündür. Deməli, əxlaq fenomen xarakterli bir varlıqdır, etika isə bilik xarakterlidir (İyi S., 2019, 14). Etika və əxlaq arasındakı fərqləri Cədvəl 1.1.1. (Avcıoğlu, 2011, 69, Ünsaldı, M., 2012-dən götürülmüşdür) vasitəsilə görmək mümkündür:

**Cədvəl 1.1.1. Əxlaq və etika anlayışları arasında əsas fərqlər**

| Əxlaq | Etika |
|---|---|
| Cəmiyyətdən cəmiyyətə və zamanla dəyişə bilər. | Zaman keçsə də, dəyişməyəcək ümumbəşəri doğru və yaxşı olanı axtarır, bunları ideal davranış qaydaları halına gətirir. |
| Təhsilsiz insanlar belə (sosial mühit səbəbilə) əxlaq dəyərlərinə sahibdirlər. | Fəlsəfi bir yanaşma ilə formalaşdırılır, öz-özünə öyrənilə bilməz, təhsil tələb edir. |
| Əxlaqi davranışların pozulması hallarında fərdlərdə günahkarlıq hissi yarana bilər; bu şəxsi vicdan əzabı, ictimai qınaq və ya cəmiyyət tərəfindən qınanma ilə nəticələnə bilər. | Etik normaların pozulması baş verdikdə fərdin peşə qrupundan kənarlaşdırılması ilə nəticələnə bilər. |

Əlavə olaraq, etik qaydalar yazılı şəkildə mövcuddur, halbuki əxlaqi qaydalar adətən yazılı formada deyil, qeyri-rəsmi və şifahi olaraq mövcud olur (Erdirençelebi, M., Filizöz, B., 2019, 1231). Etikanın obyekti insan və onun davranışıdır, predmeti isə əxlaqdır. Daha konkret desək, insanın mənəvi seçim sahəsi və bu seçimin həyata keçirilməsində istifadə olunan vasitələrin öyrənilməsidir. Bu vasitələrə mənəvi normalar, bu əməllərin yerinə yetirilməsindəki fərdi resurslar, şəxsin emosional-iradi keyfiyyətləri və mənəvi idealları daxildir. Etikanın məqsədi ictimai və şəxsi rifah arasında bir "tarazlıq" tapmaqdır. Bu məqsədə çatmaq üçün "sosial tənzimləyicilər" mövcuddur (ənənələr, hüquq, əxlaq, etiket) və bu tənzimləyicilər sosial normaları, proqram xarakterli prinsipləri və qarşılıqlı münasibətlərin qəbul edilən formalarını ehtiva edir.

Etika aşağıdakı sahələri öyrənir:

- əxlaqın mənşəyini, mahiyyətini və xüsusiyyətlərini;
- onun cəmiyyət həyatındakı yerini və rolunu;
- insan fəaliyyətinin əxlaqi tənzimlənmə mexanizmlərini aşkara çıxarır;
- əxlaqi tərəqqi meyarlarını nəzərdən keçirir;
- cəmiyyətin və fərdin mənəvi şüurunu tədqiq edir, hansı ki, bu şüur daim düşünülməyə (refleksiya) və yenidən düşünülməyə (ikinci dərəcəli refleksiya) ehtiyac duyur;
- əxlaq kateqoriyalarının məzmununu və mənasını təhlil edir: yaxşılıq və pislik, ədalət, borc, şərəf, vicdan, azadlıq və məsuliyyət, xoşbəxtlik, həyatın mənası və s.;
- real əxlaqın dəyərlərini və normalarını əks etdirir;
- insan fəaliyyətinin yönəlməli olduğu dəyərlər bazasını və əxlaqi idealları müəyyənləşdirir;
- mənəvi praktikalarla məşğul olur; burada daim konfliktli situasiyalar yaranır, o cümlədən dəyərlərin böhranı, hansı ki, bu zaman əxlaq öz aydınlığını itirir və insanlar artıq yaxşının və pisin nə olduğunu dərk edə bilmirlər (Ковалев & Кулик, 2013).

Əxlaq (morality) və etika (ethics) arasında müəyyən fərqlər mövcud olsa da, hər iki anlayışın dəqiq və vahid işlək tərifi ilə bağlı tədqiqatçılar arasında ümumi razılıq yoxdur. Bununla belə, tədqiqatçılar bu fərqlərin saxlanılmasının vacib olduğunu vurğulayırlar (Yıldız, N., 2012). Əxlaq bəzən etika əvəzinə istifadə olunur və insanların müəyyən davranışlara verdikləri ümumi reaksiyaları təsvir etmək üçün işlədilir. Beləliklə, əxlaq fərdin daxili, instinktiv davranışlarını və meyillərini, eyni zamanda mədəni və ətraf mühit faktorlarını əhatə edən bir ölçü funksiyasını daşıyır. Lakin bu yanaşmaya görə əxlaq yalnız fərdlərin gündəlik müşahidə olunan davranışları

vasitəsilə nümayiş etdirdiyi, onların mənimsədiyi qayda və dəyərləri əks etdirir. Bu cür davranışlar çox vaxt şüurlu refleksiyaya əsaslanmır və adətən avtomatik, dərin düşünülmədən icra olunur. Əksinə, etika şəxsi inancların dərk edilməsini əhatə edir və bu da fərdin öz mənəvi hərəkətləri üçün əsaslandırma formalaşdırmasına gətirib çıxarır. Çox zaman əxlaq etik qərar qəbuletmə prosesi ilə ziddiyyət təşkil edə bilər: əxlaq daha çox emosional proses kimi fərdi, arzu olunan davranış trayektoriyasından uzaqlaşdıra bilər, halbuki etik davranış həmin an emosional reaksiyaların nəzarət altına alınmasını və ya qadağan edilən hərəkətlərin qarşısının alınmasını tələb edir. Ümumiyyətlə, etika şəxsi əxlaq, dəyərləri üstələyir və fərdlərdən ilk növbədə situasiyaları şərh etməyi, sonra isə qərarvermə və məntiqi mühakimə proseslərinə qoşulmağı tələb edir. Beləliklə, etikanın tədqiqi təkcə əxlaqla məhdudlaşmır, eyni zamanda əxlaqi hərəkətlərin əsaslandırılması və mənəvi mühakimələrin sorğulanması ilə də məşğul olur (McCreary, B., 2019, 5-6).

Etika fərdlər tərəfindən formalaşdırılan şəxsi və ictimai münasibətlərin əsasını təşkil edən prinsiplər və qaydalar toplusu kimi dəyərləndirilir. O insanların davranışlarını yaxşı–pis, doğru–yanlış meyarları əsasında qiymətləndirir və bu davranışlara əxlaqi baxımdan yanaşır. Əxlaq anlayışı üzərində dərinləşən və bu anlayışa fəlsəfi əsas qazandıran etika, sosial təbəqələşmədən asılı olmayaraq, cəmiyyətin bütün üzvlərinə qarşı bərabər münasibəti təşviq edir. Bu yanaşma insanlara hörmət etməyi və insan hüquqları çərçivəsində yanaşmağı zəruri hesab edir. Etikanın əsas məqsədlərindən biri fərdləri yalnız şəxsi maraqlarına görə deyil, cəmiyyətdəki digər fərdlərin rifahını da nəzərə alaraq yaxşı və doğru qərarlar qəbul etməyə yönəltməkdir. Bu baxımdan etika həm fərdi, həm də kollektiv həyatın mənəvi təməlini təşkil edir. Fərdlər gündəlik həyatlarında müxtəlif situasiyalarda davranışlarını etik prinsiplərə uyğun şəkildə tənzimləməli, qərarlarını isə "yaxşı" və "doğru" anlayışlarına əsaslanaraq verməlidirlər. Etika yalnız davranışların xarici nəticələrini deyil, eyni zamanda həmin davranışların arxasındakı niyyətləri və dəyərləri də qiymətləndirir. Bu mənada etika fərdin qərarvermə prosesinə empatiya elementi də əlavə edir. İnsan hər hansı bir fəaliyyətə başlamazdan əvvəl müxtəlif seçimlərlə qarşılaşır. Bu zaman o öz düşüncə tərzinə, mənəvi dəyərlərinə və vicdani süzgəcinə əsaslanaraq seçim edir. Verilən qərar fərdin azad iradəsinin məhsulu olduğuna görə o bu qərarın nəticələrinə görə mənəvi məsuliyyət daşıyır. Nəticə etibarilə, etika insan həyatının ayrılmaz hissəsinə çevrilmiş və zamanla yalnız fərdi davranışların deyil, ictimai münasibətlərin də tənzimlənməsində mühüm rol oynamışdır. Davranışlarda şəxsi istəklərin təsirini azaltmaqla yanaşı, etik yanaşma fərdlərin daha şüurlu, məsuliyyətli və empatik şəkildə qərar verməsinə şərait yaradır. Bu xüsusiyyətlərinə görə etika həm

fərdi inkişafın, həm də sağlam cəmiyyət quruculuğunun əsasını təşkil edən mühüm nəzəri-praktik sistem kimi qəbul olunur (Taş C., 2024, 18).

Etika sözü bugün ən çox müzakirə olunan anlayışlardan biridir. Hansı davranışların doğru, hansının yanlış olduğu, ictimai dəyərlər və mühakimələr etika vasitəsilə izah olunmağa çalışılıb. Hər sahədə dəyişən ictimai dəyər mühakimələri və inkişaflar tibbi etika və iş etikası kimi müxtəlif sahələrə xas anlayışların ortaya çıxmasına səbəb olmuşdur. İnsanoğlu ağlının ilk illərindən özünü və ətrafını sorğulamağa başlayır, problemlə qarşılaşdıqda səbəb-nəticə əlaqəsi quraraq onu həll etməyə çalışır və bu zaman da müxtəlif fəlsəfi şərhlər edir. Davranışlarını, ətrafdakı hadisələri etik baxımdan qiymətləndirərək cavab tapmağa çalışır və bu kimi məsələlər etikanın ən sıx yaşandığı sahələr olaraq görülür. Bu da etikanın ağıl və mülahizədən daha çox emosiya problemi kimi görünməsinə səbəb olmuşdur (Demir G., 2023, 410). Etika sözü bir insanın düşüncə və hərəkətlərində nəyi yaxşı, nəyi pis hesab etdiyi ilə əlaqədar olaraq davranışının sərhədlərini ifadə edən məfhumdur. Bu mənada etik davranan insan yaxşı ilə pisi ayırd edə bilən biridir. Etik dəyərlər fərdlərə davranışları üçün etik sərhədlər yaratmağa kömək edir. Etik davranan insan olmaq fəzilətlər baxımından inkişaf etmək və müdafiə etdiyi dəyərlərlə yaşamaq deməkdir ( Aydın İ., 2021, 13). Etika daima öz üzərində işləyən, təkmilləşən, mənəvi kamilliyə doğru irəliləyən insan obrazını müdafiə edir (Ситяева & Н. Н. Остапенко, 2009).

Etika çoxşaxəli şəkildə müxtəlif formalarda tərif olunur: əxlaqın fəlsəfi tədqiqi kimi, insan davranışının qiymətləndirilməsi meyarı kimi, fərdlərin müəyyən şəkildə davranmaq öhdəliyi daşıdıqları şəxsi, mənəvi və ictimai məsuliyyətlər sistemi kimi və insanların mənəvi dəyərlərini nəzərə almaq və davranışlarını həmin dəyərlərə uyğun yönləndirmək qabiliyyəti kimi. Sadə dildə desək, etika doğru ilə yanlışı ayırd etməyə imkan verən standartlar sistemidir. Bu standartlar həm qanundan, həm də mənəvi hissiyyatdan fərqlənir. Hərçənd ki, qanun və etika insan davranışlarını müəyyənləşdirmək və kodlaşdırmaq baxımından oxşar funksiyalara malikdir, qanunlar icbari xarakter daşıyır, pozuntular cəzalandırılır və fərdləri minimum qəbul edilə bilən sosial davranış standartlarına və insan hüquqlarının əsas tələblərinə riayət etməyə sövq edən xarici stimulları (məsələn, cəzadan yayınma) təmin edir (McCreary, B., 2019, 5).

Etika haqqında əhatəli təriflərdən biri Cevizciyə (2002) məxsusdur. Onun fikrincə, etika bir neçə fərqli baxımdan izah olunur. Birincisi, etika müəyyən bir əxlaqi ideala sahib olan və bu ideala uyğun bir həyat tərzi qurmağa çalışan insanın düşüncə və davranışlarını əhatə edir. Yəni insan

doğru bildiyi dəyərlərə əsaslanaraq necə yaşamalı olduğunu müəyyən edir. İkincisi, etika həm də cəmiyyətin və dövrün mənəvi vəziyyətini sorğulayan, mövcud dəyərləri tənqid edən və onların yerinə daha yaxşısını təklif etməyə çalışan filosofların mövqeyidir. Onlar ya yeni dəyərlər irəli sürür, ya da mövcud dəyərləri daha yaxşı başa düşülməsi üçün izah edirlər. Üçüncüsü isə etika əxlaqi anlayışları və hökmləri elmi şəkildə təhlil edən, onların mənasını və əsasını araşdıran fəlsəfi bir sahədir. Bu mənada etika – fizika necə təbiət hadisələrini öyrənirsə – dəyərlər dünyasını araşdıran nəzəri bir elmdir. Qısası, etika – insanın həyatına mənəvi məna verən, nəyi doğru, nəyi yanlış hesab etdiyini göstərən dəyərləri və prinsipləri öyrənən bir düşüncə və fəlsəfə sahəsidir (Taş C., 2024, 15-16: Cevizci 2002).

Peşə fərdin cəmiyyətdəki ehtiyacı ödədiyi, fərdi məmnuniyyəti ilə yanaşı müvafiq sahədə müxtəlif fərdlərə töhfə verdiyi, təhsil prosesinin sonunda bu peşəni yerinə yetirmək səlahiyyətinə sahib olduğu və maddi qazanc əldə etdiyi bir iş kimi müəyyən edilir (Gedikli S., 2023). Şəxsi münasibətlərdə doğru-yanlış, yaxşı-pis ayrımını edərkən istifadə etdiyimiz standartlar etika adlanır (Saban və Atalay, 2005, 50), peşə davranışları ilə bağlı nəyin doğru-yanlış, haqlı-haqsız olduğuna dair müəyyən edilmiş qaydalar isə peşə etikası adlanır (Çabuk, A., & İşgüden, B., 2006, 63: Kardeş, 1997, 146). Peşə etikası bu gün ümumi etik nəzəriyyənin mühüm bir bölməsi kimi çıxış edir. Onun müstəqil bir elmi sahə kimi formalaşması əsasən Émile Durkheim (1857–1917) ilə əlaqələndirilir. Durkheim "Peşə etikası və vətəndaş əxlaqı" adlı əsərində ilk dəfə olaraq peşə etikasının problem sahəsini və predmetini müəyyən etmiş, bununla da ona nəzəri müstəqillik statusu qazandırmışdır. Durkheim peşə əxlaqının formalaşmasını bir tərəfdən kapitalist istehsalatda əmək bölgüsünün mürəkkəbləşməsi, digər tərəfdən isə hüquqi cəhətdən azad istehsal subyektlərinin yaranması və peşə fəaliyyətinin tənzimlənməsi zərurəti ilə əlaqələndirirdi. O göstərirdi ki, bu yeni ictimai struktur, müvafiq etik tənzimləmə mexanizmlərinin və mənəvi prinsiplərin inkişafını zəruri edir (Ситяева & Н. Н. Остапенко, 2009). Peşə etikası bütün peşə fəaliyyətlərinin yaxşı və düzgün istiqamətləndirilməsi üçün prinsiplər müəyyən edən (Далимаева, Е. О., 2022, 58), peşə üzvlərinin şəxsi arzularının və müəyyən bir sərhədin xaricinə çıxmalarının qarşısını almağa çalışan peşəkar idealları inkişaf etdirən və prinsiplərə əməl etməyən üzvləri peşədən kənarlaşdıran prinsiplər sistemidir. Fərdlərin öz inanclarından, ailəsindən aldığı tərbiyədən və ya şəxsi seçimlərindən yaranan bir şəxsi əxlaqı vardır. Lakin bu şəxsi əxlaq bəzən ictimai sahədəki etik dəyərlər və prinsiplərlə ziddiyyət təşkil edə bilər. Məsələn, bir həkim terror hadisələrinə qarışmış bir yaralıya öz əxlaqi inancına əsasən yardım etmək istəməyə bilər və ya bir vəkil belə bir şəxsin müdafiəsini şəxsi olaraq yanlış hesab edə bilər. Lakin peşə etikası nöqteyi-nəzərindən baxıldığında həkim kim

olduğuna baxmadan müalicə xidməti göstərməli, vəkil isə müdafiə hüququnu yerinə yetirməkdə etik bir öhdəlik daşımalıdır. Bu baxımdan, ictimai etika və peşə etikası, şəxsi əxlaqdan daha fərqli və əhatəli bir mövzu olduğu üçün müxtəlif etik prinsiplərin tənzimlənməsinə ehtiyac duyulur (Aydın İ., 2021, 25). Peşə etikasının normalarının formalaşmasında və qəbul edilməsində ictimai rəy mühüm rol oynayır. Peşə əxlaqı normaları dərhal ümumi şəkildə qəbul edilmir; onlar fikir mübarizəsi nəticəsində təsdiq olunaraq cəmiyyət tərəfindən mənimsənilir (Ковалев & Кулик, 2013). Fərdlərin digər sahələrdə olduğu kimi yerinə yetirdikləri peşələrdə də etik prinsiplərə uyğun davranmaları mühüm əhəmiyyət kəsb edir. Şəxslərin üzvü olduqları peşə qrupuna aid qərarlarında onlara istiqamət verən və yol göstərən qaydalar peşə etikasını təşkil edir (Xəlilov V., 2018, 18). Peşə etikasını müəyyən bir peşəyə aid olan və hər zaman hər şəraitdə riayət olunması vacib olan dəyərlər toplusu kimi xarakterizə etmək olar. Peşə etikasının ən mühüm cəhətlərindən biri ondan ibarətdir ki, dünyanın harasında olmasından asılı olmayaraq eyni peşə ilə məşğul olan fərdlərin bu davranış qaydalarına uyğun şəkildə hərəkət etmələri zəruri sayılır (Şengül, B., 2013, 16: Kolçak, 2012, 95; Şahin, 2003, 289-290: Coşkun, N., 2016, 13)

Fəlsəfi mənada etika əxlaqın müxtəlif aspektlərini araşdırdığı halda peşə etikası daha çox nə etməli olduğumuzu müəyyənləşdirən, tətbiqi xarakter daşıyan, peşə və institutların xarakteri, habelə sosial mandatı ilə bağlı fəaliyyətlərlə maraqlanan bir sahədir. Peşə etikası müştərilər, istehlakçılar və həmkarlarla münasibətdə peşəkarların davranışına rəhbərlik etmək üçün nəzərdə tutulmuş əsas dəyərləri və inancları aşılayır. Peşəkar mühitdə etik davranış, sosial institutlarla və ya bu sahəyə aid olan şəxslərlə qurulmuş əlaqələrdə möhkəm etik prinsiplərə söykənən və öhdəliklərin dərk olunmasından irəli gələn davranış modeli kimi izah edilə bilər. Hər hansı bir davranışın peşə daxilində etik və ya qeyri-etik hesab edilməsi həmin davranışın peşənin öhdəlikləri və prinsipləri ilə nə dərəcədə uyğun olduğundan asılıdır. Bu praktiki uyğunsuzluğu minimuma endirmək isə fərdin şəxsi məsuliyyətidir və bu, etik qərar qəbuletmə prosesi vasitəsilə həyata keçirilməlidir. Etik qərar qəbuletmə dedikdə etik prinsiplərə uyğun olan və eyni zamanda mümkün zərərin qarşısını alan ən yaxşı etik alternativin aktiv şəkildə dərk edilməsi, qiymətləndirilməsi və seçilməsi prosesi nəzərdə tutulur. Bu proses eyni vaxtda məlumatların sintezi, təhlili, parçalanması və inteqrasiyasını tələb edən zehni fəaliyyətlər toplusudur (McCreary, B., 2019, 8).

Cəmiyyətlərdə birgə yaşayışı asanlaşdırmaq, münasibətləri tənzimləmək üçün həyatın bütün sahələrini əhatə edən müxtəlif qaydalar mövcuddur. İctimai və şəxsi münasibətlərimiz adət-ənənələr, qanunlar və hər peşəyə uyğun tənzimlənmiş peşə qaydaları ilə müəyyən bir nizam

içərisindədir. Bu qaydalar cəmiyyətin və dövrün şərtlərinə uyğun olaraq zamanla yenilənir. Cəmiyyət müxtəlif peşə sahiblərindən onlara qarşı ədalətli davranmalarını və hörmət çərçivəsində hərəkət etmələrini gözləyir. Peşə sahibinin yalnız şəxsi maraqlarını deyil, eyni zamanda xidmət etdiyi insanların, həmkarlarının, cəmiyyətin digər üzvlərinin və dövlətin maraqlarını da nəzərə alması, məsuliyyətlərini peşənin müəyyən etdiyi qayda və standartlar çərçivəsində yerinə yetirməsi cəmiyyət qarşısında etimadın formalaşmasına səbəb olur. Bu yolla həm resursların, həm də vaxtın israfının qarşısı alına bilər. Peşə etikasına sahib olmayan peşə sahibləri cəmiyyətə faydadan çox zərər verirlər, çünki peşə etikasına lazımi əhəmiyyət verməyən şəxslər yalnız öz maraqlarını ön planda tuturlar, cəmiyyətdəki digər insanları heç düşünmürlər. İnsan hüquqlarına verilən əhəmiyyətin artması etik standartların tətbiq olunma imkanlarını da artırmışdır (Çabuk, A., & İşgüden, B., 2006, 60-64). İstənilən sahədə fəaliyyət göstərən rəhbərlərin və ya işçilərin peşə fəaliyyətlərini icra edərkən etik davranış qaydalarına riayət etməsi, ictimai etimadın və dəstəyin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir (Küçükoğlu, M. T., 2012, 184). İnsanların qarşılıqlı əlaqəsinin baş verdiyi hər bir sahədə ədalətli və dinc mühit yaratmaq üçün qaydalar lazımdır. Cəmiyyətdə yaşayan hər bir fərd qanunlara, qadağalara, yol hərəkəti qaydalarına, ədəb və sosial qaydalara riayət etməli olduğu kimi peşə təşkilatına mənsub olan hər bir fərdin də həmin peşəyə xas olan qaydaları yerinə yetirməsi vacibdir (Kocabıyık A., 2019, 18).

Etikadan bəhs etməklə onu tətbiq etmək eyni deyil. Eyni bir fikir məxrəcinə gəlmək etikanı təmin etməyə bilər. Xoşbəxtlik yaradan etik həll bütün iştirak edənlərin maraqlarına uyğun olmaya bilər (Uzun F., 2022, 96). Universal (ümumbəşəri) etika ilə peşə etikası arasında ciddi ziddiyyətlər mövcuddur və bu ziddiyyətlər çox vaxt konfliktlərə səbəb olur. Ən məşhur nümunələrdən biri — “öldürmə” əmrini verən universal əxlaqi qayda ilə əsgərin borcunu əhatə edən hərbi etika arasındakı ziddiyyətdir. Universal əxlaqın əsas prinsiplərindən biri “öldürmə” əmrinə əsaslanır. Halbuki hərbi etika, əsgəri vətəni silahla qorumağa, zərurət olduqda düşməni məhv etməyə borclu sayır. Bu nümunə göstərir ki, bəzi hallarda peşə borcu ilə ümumbəşəri əxlaq prinsipləri arasında seçim etmək çətin və mübahisəli ola bilər. Peşə etikası ilə universal əxlaq prinsipləri arasında yaranan ziddiyyətlər müasir etik diskursun əsas məsələlərindən birini təşkil edir. Universal etikaya görə insana yalnız məqsəd kimi yanaşmaq, onu heç bir halda vasitə kimi istifadə etməmək tələb olunur. Bu prinsip insan ləyaqətinə və onun müstəqil dəyərinə əsaslanır. Lakin bir çox peşə sahələrində – xüsusilə hüquq, tibb, təhsil və idarəetmə kimi insanla birbaşa qarşılıqlı əlaqə tələb edən sahələrdə – peşə fəaliyyətinin xarakteri insanı, müəyyən hallarda, əmək obyektinə, öyrənmə və ya tərbiyə subyektinə çevirə bilər. Bu isə insanın vasitə kimi istifadə olunduğu təəssüratını

yaradır və universal əxlaq prinsipləri ilə ziddiyyət təşkil edir. Peşə etikası bu kimi ziddiyyətləri aradan qaldırmaq və ya minimuma endirmək üçün spesifik normalar və davranış standartları formalaşdırır. Məsələn, hüquqşünasların etik kodeksləri onların məxfi məlumatları müştəri maraqları naminə açıqlamamaq borcunu əhatə edir. Halbuki bu, cəmiyyət tərəfindən həqiqətin gizlədilməsi kimi yozula bilər və dürüstlük prinsipinə zidd sayılır. Eyni zamanda bəzi peşə davranış tələbləri universal əxlaqın "qızıl qaydasına" — "başqasına özünə edilməsini istəmədiyin şeyi etmə" prinsipinə də zidd ola bilər. Beləliklə, peşə etikası kodeksləri bəzən universal etik tələblərlə, eləcə də mütəxəssisin çalışdığı təşkilatın sadiqlik və itaət prinsipləri ilə həmişə uyğun gəlməyən tələblər irəli sürə bilir (Синицына Т.И., 2022).

### 1.1.2. Müəllimlik peşə etikası və etik prinsipləri

Qərbi Avropada müəllimlik rəsmi peşə kimi 17-ci əsrdə tanınmağa başladı. Bu dövrə qədər təhsil mədəniyyətin nəsildən-nəslə ötürülməsi funksiyasını yerinə yetirirdi və peşələr ümumiyyətlə ata-oğul arasında, ustad-şagird münasibəti ilə formalaşırdı. Xüsusilə qədim dövrlərdə müəllimlik formal təhsil tələb edən bir peşə kimi görülmür, dinin, mədəniyyətin və sənətkarlığın gələcək nəsillərə ötürülməsi təhsil və təlimin mərkəzində dayanırdı. 19-cu əsrdə sənayeləşmənin təsiri ilə cəmiyyətlərin təhsilə baxışı dəyişdi, kütləvi təhsilə ehtiyac yarandı və müasir mənada müəllimlik peşə kimi tanınmağa başladı (Güven, B., & Saydam, S., 2024).

İnsan idraki, emosional və psixomotor xüsusiyyətləri baxımından məlumata, öyrənməyə və inkişaf etməyə ehtiyac duyan bir varlıqdır. Məlumat ehtiyacları qarşılanan insan sahib olduğu biliklərlə mənalandırılır, bu mənanı əməlləri ilə dəyərli edir və insanın bilik səviyyəsi artdıqca, "dəyəri" də artır. Bu baxımdan insanı məlumata aparan yollar müqəddəsləşdirilmiş, insana həyatın mənasını və mahiyyətini kəşf etməsi üçün biliklə yol göstərən şəxslərə yüksək hörmət bəslənmişdir. Beləliklə, insanı biliklə silahlandıran, ona bacarıqlar qazandıran, vizyon və missiya aşılayan müəllimlər və onların icra etdikləri peşə demək olar ki, hər dövrdə və hər cəmiyyətdə dəyərli hesab olunmuşdur. Öyrənmə və öyrətmənin bəşər tarixindən başlandığı qəbul olunarsa, demək olar ki, müəllimlik peşəsi dünyanın ən qədim peşələrindən biridir. Müəllimlik peşəsi yetişməkdə olan nəslə, ailəyə, ətraf mühitə, millətə, dövlətə və vətənə hər zaman faydalı, qurucu, yaradıcı, xeyirxah insan və xeyirxah vətəndaş yetişdirmək sənəti kimi müəyyən edilir. Tarix boyu bütün cəmiyyətlərdə müəllimlik peşəsi bilikləri nəsildən-nəslə ötürməklə körpü rolunu oynamış və ən hörmətli peşələrdən birinə çevrilmişdir (Karataş K., 2020, 40-41).

Öyrənmə mahiyyət etibarilə əxlaqi bir fəaliyyət olduğundan bu hal müəllimin təhsil liderliyi ilə bağlı əxlaqi aspektlərinə diqqəti ön plana çıxarır. Bundan əlavə, liderlik rolunun əxlaqi məqsədlər istiqamətində düzgün icra edilə bilməsi üçün onun cəmiyyət etikası prinsiplərinə əsaslanması vacibdir (Furman, G. C., 2003). Təhsil sistemlərinin əsas məqsədi aid olduqları ölkənin ümumi quruluşuna və fəlsəfəsinə uyğun fərdlər yetişdirmək və bu yolla ölkənin inkişafına töhfə verməkdir. Bu hədəfə çatmaq üçün müxtəlif tərəflərin və amillərin rol oynadığı məlum bir həqiqətdir. Bununla yanaşı, təhsil sistemlərində müəllimlərin töhfələri və onların kritik əhəmiyyət daşıyan mövqeləri xüsusi vurğulanmalıdır. Şübhəsiz ki, müəllimləri yalnız peşəkar bilik və bacarıqları ilə deyil, eyni zamanda şəxsi keyfiyyətləri ilə də əhəmiyyət qazanan bir prosesin içində görmək lazımdır. Onlar gələcək nəsilləri formalaşdıran, bununla da ölkənin sosial və mədəni strukturuna təsir edən və onu dəyişdirən cəmiyyətin memarları kimi qəbul edilməlidirlər (Quliyeva K. R., 2024, 129; Koç, 2014, 51; Çelikten, M., 2005, 209).

Məlum olduğu kimi, hər bir təhsil sisteminin ən vacib elementi müəllimdir. Yaxşı təhsil yaxşı müəllimlər sayəsində mümkün olduğu kimi, keyfiyyətli təhsil də yalnız ixtisaslı və peşəkar müəllimlər vasitəsilə təmin edilə bilər. Müəllimin tədris fəaliyyəti və üzərinə düşən rollar zaman keçdikcə daha da genişlənməkdədir. Müəllimlik yalnız bir ixtisaslaşmış peşə olmaqla kifayətlənməyib, eyni zamanda yaradıcılıq və incə yanaşma tələb edən bir sənət hesab edilir (Sürmelioğlu, M. & Üstün, A., 2023; İlter, İ., & Izgar, G., 2022; Hüseynzadə və b., 2021, 92; Nəzərov M., H. 2018). Təhsil sisteminin əsas məqsədlərinə çatmaq və təhsilalanlara düzgün davranışlar qazandırmaq üçün etik prinsiplər və dəyərlər mühüm rol oynayır. Bu baxımdan müəllimlərin davranışlarının keyfiyyəti təhsilin uğurlu nəticələr verməsində həlledici amillərdən biridir (F. T. Çobanzadə, 2025, 265; Sultanov R., 2024, 175). Əlimizdə ən yaxşı proqram, ən yaxşı bina və sinif otaqları, ən keyfiyyətli dərsliklər və tədris vasitələri olsa belə, əgər bütün bunları həyata keçirəcək müəllim kifayət qədər yetərli deyilsə, bu imkanların heç biri işə yaramayacaq (Şengül B., 2013, 20: Akçamete, 2005). Müəllimlərin təhsilalanlar haqqında mühüm qərarlar verdiyini və onların üzərində güclü təsirə malik olduqlarını nəzərə alsaq, bu gücü tarazlaşdıracaq və onların məsuliyyətlərini dəqiq müəyyən edəcək etik dəyərlərə ehtiyac vardır. Müəllimlər məsuliyyətlərinin fərqində olmalı və onları ən yüksək səviyyədə yerinə yetirmək üçün etik prinsip və qaydaları dərindən bilməlidirlər. Onlar bu etik çərçivədə hərəkət etməli və peşə etikası normalarına uyğun davranmalıdırlar. Müəllimlik peşəsinin nüfuzunu artırmaq və müəllimin cəmiyyətdəki statusunu yüksəltmək, yalnız əxlaqi və mənəvi dəyərlərin, eləcə də peşə etikası prinsiplərinin müəllimlər tərəfindən mənimsənilməsi və tətbiqi ilə mümkün ola bilər (Yaylalı E.,

2023, 8). Təhsildə peşə etikası çoxşaxəli bir anlayışdır və dürüstlük, məsuliyyət, hörmət və ədalət kimi prinsipləri əhatə edir. Bu prinsiplər həm müsbət bir təhsil mühiti yaratmaq, həm də müəllimlərin peşəkar davranışlarını tənzimləmək baxımından fundamental əhəmiyyət daşıyır. Müəllimlik peşəsinin mənəvi dəyərlərə əsaslandığı və müəllimlərin mürəkkəb etik situasiyalarda qərar vermək bacarığının vacib olduğu məlumdur. Bu baxımdan müəllim hazırlıq proqramlarında etik təhsilin gücləndirilməsinin zəruriliyi ön plana çıxır. Eyni zamanda rəqəmsal dövrdə mənəviyyat, dəyərlər və etik prinsiplərin tədrisə inteqrasiyası, həm müəllimlərin şəxsi inkişafı, həm də tələbələrin hərtərəfli formalaşması baxımından mühüm əhəmiyyət kəsb edir. İnformasiya texnologiyalarının sürətli inkişafı yeni etik çağırışlar doğurduğundan bu inteqrasiya getdikcə daha vacib hala gəlir (Safarpour, B., 2024, 81; M. Mauti və b., 2022, 28). Müəllimlik peşəsində etika dedikdə müəllimin öz peşəsini yerinə yetirərkən tələbələr, cəmiyyət və həmkarları qarşısında daşıdığı məsuliyyət,  müəyyən edilmiş qayda və prinsiplərə uyğun hərəkət etmək öhdəliyi başa düşülür (Arslan H., 2024, 16). Pedaqoji peşə mədəniyyəti məktəbdə və məktəbdənkənarda müəllimin davranışında, həmçinin pedaqoji fəaliyyət zamanı müəllimin təhsilalanlar, valideynlər və həmkarları ilə ünsiyyət prosesində onun rəftarında, nitqində özünü büruzə verir (İlyasov M., 2018, 62; Qüdrətli K. F., 2020, 101-102; Cəfərova Ə. Ş., 2020, 111).

Etika fərdlərin davranışlarının meyarı kimi ifadə olunmaqla yanaşı, eyni zamanda şəxsin vərdişlərinin, səhvlərinin və diqqətsizliyinin fərqinə varması prosesi kimi də dəyərləndirilir. Fərdlərin ehtiyaclarını və ya prioritet məqsədlərini qarşılayan amillərə verdikləri mənaların əsasını etik dəyərlər təşkil edir. İnsan münasibətlərində və davranışlarında mühüm rol oynayan etik dəyərlərin zədələnməsi digər dəyərlərin də təhlükə altına düşməsinə səbəb ola bilər. Fərdlərin davranışlarını etik dəyərlərə uyğunlaşdırmaq isə yalnız etik prinsiplər vasitəsilə mümkündür. Etik prinsiplər həyat boyunca qurulan münasibətlərlə bağlı doğru, dəqiq, ümumbəşəri və davamlı dəyərlər olmaqla yanaşı, fərdlərin nümayiş etdirdikləri davranışların əsasını təşkil edir. Eyni zamanda peşəkar fəaliyyət sahəsində də yol göstərmək məqsədilə formalaşdırılan və tətbiq olunan etik prinsiplər həmin peşə ilə məşğul olan bütün şəxsləri əhatə edir (Ehric və b., 2011).

Peşə etikası prinsiplərinin əsas funksiyaları peşəkar kadrları etik davranışa həvəsləndirmək, onları etik prinsiplər çərçivəsində maarifləndirmək, peşə davranışının hüdudlarını tənzimləməkdən ibarətdir. Həmçinin etik prinsiplər:

a. Cəmiyyət baxımından; peşənin nüfuzunu artırmaq üçün cəmiyyətdə etibar yaradır.

b. Xidmət sahəsi baxımından; xidmətin həyata keçirilməsində şəffaflıq və hesabatlılıq təmin edir.

c. Peşə üzvləri baxımından; daxili və xarici təzyiqlər üçün qalxan yaradaraq obyektivlik təmin edir.

d. Peşə baxımından; tətbiq oluna bilən və qəbul edilə bilən bir tətbiq və anlayış birliyi təmin edir (Aydın İ., 2021, 25).

Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) (2018) etik prinsiplərin funksiyalarını aşağıdakı kimi sadalayır:

- Onlar daxili motivasiya və xarici nəzarət rolunu oynayır,
- Peşə üzvlərinə peşə idealları mövzusunda rəhbərlik edir,
- Həmkar təzyiqinin təsiri fərdləri etik davranış nümayiş etdirməyə təşviq edir,
- Peşəyə mənsub olan şəxslərin maraqlarını qoruyur,
- Peşəkar standartları nümayiş etdirir,
- Əxlaqi və hüquqi tənzimləmələr üçün tövsiyələr verməyə imkan verir,
- Səriştəsiz və prinsipsiz peşə üzvlərinin peşədən uzaqlaşdırılmasını təmin edir,
- Qeyri-müəyyən situasiyalarda necə davranmaq barədə təlimat verir,
- Qrupda müəyyən bir nizam-intizam təmin edir,
- Fərdləri düzgün davranmağa sövq edir,
- Konkret olaraq təşkilatın / peşənin etik fəlsəfəsini və inanclarını nümayiş etdirir,
- Rəhbərlərin və ya işəgötürənlərin avtokratik gücünü idarə edir,
- Üzvlərin çətinlik çəkmədən qəbul etmələri gözlənilir,
- Yazılı və yazısız formada ola bilərlər (Arslan H., 2024-dən götürülmüşdür, s. 13 -14).

Dünyanın 60-dan çox ölkəsində təhsil işçiləri üçün etik prinsiplər müəyyən edilib. Bu ölkələrin bəzilərində müəllimlik peşə etikası prinsipləri təhsil nazirlikləri, bəzilərində əyalət hökumətləri və bir qrup ölkədə müəllimlər assosiasiyaları tərəfindən işlənib hazırlanmışdır (Aydın İ., 2021, 31). Geniş ədəbiyyata əsaslanan Aydının (2012) müəllimlik peşəsi ilə bağlı üzərində dayanılmasını vacib hesab etdiyi 11 əsas etik prinsip aşağıdakılardır:

1) Peşəkarlıq: Müəllimin öz işini düzgün yerinə yetirməyə imkan verən səriştələrə yiyələnmiş olması vacibdir. Müəllimlik peşəsinin kompetensiyalarına sahib olmayan şəxslərdə peşə etikası axtarılmasına ehtiyac yoxdur.
2) Xidmətdə məsuliyyət: Müəllimlik peşəsi baxımından müəllimdən ictimai bir xidmət olaraq təhsildə böyük vəzifələri yerinə yetirmək şüuru ilə hərəkət etməsi və daşıdığı məsuliyyətin fərqində olması gözlənilir.
3) Ədalət: Ədalətin təmin edilməsi, müəllimin təhsilalanlara ədalətli davranaraq onlara bərabər imkanlar təqdim etməsi və hər bir təhsilalana öz potensialını maksimum dərəcədə inkişaf etdirməyə imkan verməsi tələb olunur.
4) Bərabərlik: Bərabərlik prinsipi çətinliklərin, faydaların və xidmətlərin bölüşdürülməsində sərhədlərin müəyyən edilməsini nəzərdə tutduğundan cəmiyyətdə ədalətli payı təmin etmək üçün resursların və imkanların hamı arasında balanslı bölüşdürülməsi müəllimin öhdəliklərindən biri hesab olunur.
5) Sağlam və təhlükəsiz mühitin təmin edilməsi: Təhsilalanın əsas hüquqlarından biri kimi sağlam və təhlükəsiz sinif mühitində olmaq hüququ olduğundan müəllimlərin ən əsas etik vəzifələrindən biri də sinif mühitində nizam-intizamı qorumaqla təhsilalanların sağlamlığını və təhlükəsizliyini təhdid edə biləcək elementləri aradan qaldırmaqdır.
6) Korrupsiyaya yol verməmək: Korrupsiya, ümumiyyətlə, şəxsi mənfəət əldə etmək məqsədilə səlahiyyət və ya resurslardan sui-istifadəni nəzərdə tutduğundan bu halda əldə ediləcək maddi və ya qeyri-maddi mənfəətlərdən qaçınmaq, yəni hər hansı haqsız qazancdan çəkinmək hər bir müəllimin borcudur.
7) Dürüstlük - doğruluq və etibar: Etik davranış başqaları ilə münasibətdə dürüstlük və səmimiyyəti ehtiva edir. Səmimi və dürüst olmayan müəllimlər münasibətlərdə öz reputasiyasına xələl gətirərək etimad mühitini də sarsıtmış olurlar. Qeyri-etik davranışlar tələbələr, həmkarlar və valideynlər arasında hörmət və inamın itirilməsinə səbəb ola bilər ki, bu da müəllimin effektiv təhsil mühitini təmin etməsini çətinləşdirə bilər.
8) Obyektivlik: Tərəfsizlik və ya obyektivlik fərdin digər insanları yaxud obyektləri olduğu kimi görmək və bu obrazı öz istək və qorxularından asılı olmayaraq qiymətləndirmək qabiliyyətini ifadə etdiyi üçün obyektiv olmaq emosiyaların deyil, zehni proseslərin istifadəsini tələb edir. Bu insana hadisələri obyektiv nöqteyi-nəzərdən qiymətləndirməyə, qərəzlərdən uzaq olmağa və ədalətli perspektivə malik olmağa imkan verir. Beləliklə,

müəllimlər təhsilalanları olduğu kimi görə bilməli, onları öz şəxsi istək və qorxularının formalaşdırdığı təsvirlərdən ayırd edə bilməlidirlər.

9) Peşəkar bağlılıq və davamlı inkişaf: Təşkilati bağlılıq işçilərin təşkilatın üzvü olaraq qalmaq istəyini ifadə edir, bu kontekstdə təşkilati bağlılığı olan işçilər təşkilatdan təsirlənir və ortaq məqsədlərə çatmaq üçün birgə işləmək məsuliyyəti hiss edirlər. Bu bağlılıq işçinin təşkilat mədəniyyətinə bağlılığı, işdən məmnunluğu və işə sadiqliyi kimi amilləri əhatə edə bilər. Müəllimlərin müəllimlik peşəsinə sadiq qalaraq təhsil məqsədlərinin reallaşdırılması naminə birgə şəkildə səy göstərmələri vacibdir.

10) Hörmət: İnsanın dəyəri əsas etibarilə onun varlığına əsaslanır, hər şeydən əvvəl insan olmaq onu dəyərli edir. İnsanın dəyəri və ləyaqəti insan münasibətlərinin mühüm təməl daşıdır. İnsan onu digər canlılardan fərqləndirən bir çox xüsusiyyətlərlə təchiz edilmişdir, düşünmə, mühakimə etmə, ünsiyyət qurma və gələcək üçün plan qurma qabiliyyəti kimi xüsusiyyətləri ilə insan digər canlılardan fərqli və hörmətli bir varlıq halına gəlir. Müəllimlər şagirdlərinə ilk növbədə insan olduqları üçün hörmət göstərməli və dəyər verməlidirlər.

11) Resurslardan səmərəli istifadə: İnstitusional və ictimai resurslardan səmərəli istifadə müəllimlərin etik davranışının mühüm sahəsini təşkil edir. Zamanın ən az və qiymətli resurs olduğunu nəzərə alsaq, tədris vaxtından səmərəli istifadə təhsilalanlara ən böyük faydanı verir. Bu kontekstdə dərsə gec başlamaq, tez çıxmaq, dərs zamanı vaxtdan səmərəli istifadə etməmək, tədris mühitində şəxsi işləri görmək, dərsə hazırlıqsız daxil olmaq, tələbələrin işlərinə kifayət qədər vaxt ayırmamaq, tələbələrin suallarına məhəl qoymamaq və ya onları təkrarlamamaq, heç bir maarifləndirici əhəmiyyəti olmayan söhbətlərlə vaxt itirmək tədris vaxtından səmərəli istifadə olunmadığını göstərən göstəricilər sırasında sayıla bilər. Ona görə də tədris prosesinin keyfiyyətinin yüksəldilməsi üçün müəllimlər bu məsələyə xüsusi diqqət yetirməlidirlər (Arslan H., 2024, 17-18: Aydın 2012, 60-72).

Çelikten və b., (2005) müəllimlərdən gözlənilən davranışları ifadə etmişlər, onların fikrinə görə müəllimlər tələbələrin müxtəlif öyrənmə üslublarına malik ola biləcəyini bilməli, hər bir tələbəyə bərabər münasibət bəsləməli və onları öyrənməyə həvəsləndirməlidir. Bundan əlavə öyrətmək üçün ilk növbədə öz öyrənməsini davam etdirməli, peşəsindəki aktual yanaşmaları, texnoloji və sosial inkişafları yaxından izləməlidir. Beləliklə, müəllimdə olması gözlənilən davranışlara aid edilir:

- Müəllim tələbələrlə ünsiyyətində obyektiv münasibətə sahib olmalı, tələbələr arasında ayrı-seçkilik etməməlidir.
- Təhsil planlaması yaradarkən tələbələrin maraq və ehtiyaclarına uyğun tədbirlər görməlidir.
- Təhsil elminin işığında yaxşı sinif idarəetmə bacarıqlarına malik olmalıdır.
- Tələbələrin öyrənmə sürəti və üslublarının fərqli ola biləcəyini anlamalı və akademik çatışmazlıqları müşahidə olunan tələbələrə qarşı mənfi münasibət formalaşdırmamalıdır.
- Peşəkar inkişafını dəstəkləyəcək təhsil fəaliyyətlərində iştirak etməli və müəllimlik bacarıqlarını təkmilləşdirməyə açıq olmalıdır.
- Sosial şüura sahib olmalı və sosial inkişaf prosesini yaxından izləməlidir.
- Texnoloji vasitələrdən və inkişaflardan xəbərdar olmalı və bu vasitələrdən səmərəli tədris təmin etmək üçün istifadə etməlidir.
- Yeni məlumatlar öyrənməli, araşdırma həvəsini qoruyub saxlamalı, tədqiqatçı yönü ilə tələbələrinə nümunə olmalıdır.
- Tələbələrindən yüksək gözləntiləri olmalı, onları uğur qazanmağa təşviq etməli və motivasiyalarını artırmalıdır (Gedikli S., 2023, 10: Çelikten və b., 2005)

Ekinci (2009)-a görə müəllimlik peşə etikası ilə bağlı bəzi davranışlar aşağıdakı kimi sıralana bilər:

1. Müəllim başqalarının fikirlərinə dəyər verir,
2. Davranışlarında hörmətlidir,
3. Fərqliliklərə qarşı qərəzsizdir,
4. Hər bir şagirdin uğur qazana biləcəyinə inanır,
5. Uşaq hüquqlarının qorunmalı olduğuna inanır,
6. İnsan hüquqlarına hörmət edir,
7. Demokratik münasibət və davranışlara malikdir,
8. Yerli və ümumbəşəri dəyərlərin inkişafını dəstəkləyir,
9. Cəmiyyətə və peşəyə aid etik dəyərləri mənimsəyir və onlara uyğun davranır,
10. Məlumat və kommunikasiya texnologiyaları ilə bağlı qanuni və əxlaqi məsuliyyətləri bilir,
11. Davranışlarında tutarlı və dürüstdür,
12. Əlilliyi olanların hüquqlarına hörmət edir,
13. İnsanlara qarşı incidici davranmır,
14. Rəsmi prosedurlara və məxfiliyə əməl edir,

15. Peşə sirlərini başqaları ilə paylaşmır,
16. Qeybətdən uzaq durur,
17. Təcrübə və biliklərini həmkarları ilə bölüşür,
18. Məsuliyyətlərini yerinə yetirir,
19. Cəmiyyətə qarşı məsuliyyət hissi daşıyır,
20. Ədalətli münasibət və davranışlara malikdir,
21. Söz və əməllərində tutarlı, dürüstdür (Kırıcı M., 2014, 17-18: Ekinci, 2009).

Etik dəyərlər insanların cəmiyyətin nizamını və əmin-amanlığını təmin etmək məqsədilə qəbul etdikləri və zamanla müəyyən dəyişikliklərə məruz qalan dəyərlərdir. Dürüstlük, doğru olmaq, sözə sadiq qalmaq, sədaqət, ədalət, başqalarına kömək etmək, başqalarına hörmət göstərmək və məsuliyyətlərini yerinə yetirmək əsas etik dəyərlər arasında yer alır (Çabuk, A., & İşgüden, B., 2006, 62). Müəllimlər keyfiyyətli təhsilin təmin olunmasında mühüm rol oynayırlar. Onların əvvəlcədən müəyyən edilmiş təhsilin məqsəd və hədəflərini praktikaya tətbiq etmək məsuliyyəti həm fərdi, həm də cəmiyyət səviyyəsində əhəmiyyətlidir. Müəllimlər təkcə sinif otağında deyil, həm də məktəbdən kənarda həm maarifləndirici, həm də nümunəvi şəxslər kimi çıxış edirlər. Başqa sözlə, müəllimin davranışları, inancları, yumor hissi, özünənəzarəti və ümumi davranış tərzi təhsil prosesi boyunca təhsilalanlar üçün bir dərs xarakteri daşıyır. Məktəb mühitində və ümumiyyətlə, cəmiyyət səviyyəsində müəllimlər yüksək etimada malikdirlər, onlar həm təhsil müəssisələrində, həm də sosial mühitdə nümunəvi fərdlər hesab olunurlar. Bu mühüm mövqedən çıxış edərək demək olar ki, müəllimlər təhsilalanların müvafiq bacarıqlar, biliklər, dəyərlər və münasibətlərlə təmin olunmasında əsas fiqurlardır. Buna görə də təhsilin effektivliyi və keyfiyyətli təhsil nailiyyətləri müəllimlik peşəsinin möhkəm etik standartlarına əsaslanır (Icka, E., & Kochoska, J.; 2024; Paschal, M. J., 2023).

### 1.1.3. Ali təhsil mühitində müəllim davranışlarının əhəmiyyəti, qeyri-etik davranışlar və onların səbəbləri

Təhsil və cəmiyyət iç-içədir, təhsil fərdləri yetişdirməklə cəmiyyəti meydana gətirir. Təhsil ictimai inkişafın mənbəyi və lokomotividir, bu səbəbdən də onun əhəmiyyəti getdikcə artır. Bununla belə təhsil kompleks struktura malikdir. Elm və texnologiyanın sürətli inkişafı cəmiyyətin və fərdlərin ehtiyaclarını dəyişməklə yanaşı, həm də onların üzərinə yeni vəzifələr qoyur. İnformasiyanın partlayışı və əhalinin sürətlə artması da bütün sahələrdə dəyişiklik ilə bərabər

inkişafa səbəb olur, təhsilin isə bu vəziyyətdə əhəmiyyəti daha da artmaqdadır. Təhsil bir sistemdir, sistemi inkişaf etdirmək və təhsil alacaq tələbələrin gözlənilən xüsusiyyətləri göstərməsini təmin etmək üçün sistemi təşkil edən bütün elementlər təkmilləşdirilməlidir. Buna görə də daha yüksək ixtisaslı müəllimlərə, daha yaxşı proqramlara, daha inkişaf etmiş mühitlərə, daha ixtisaslı idarəetməyə və daha motivasiyalı tələbələrə ehtiyac var. Sistemdəki hər bir element bütövə, yəni bütün sistemə təsir göstərir. Sistemin bir hissəsində baş verən uğursuzluq bütün prosesi və nəticəni korlayaraq səmərəliliyi azaldır (Sayan H., 2015, 586).

Gündəlik həyatda ali təhsil müəssisələri dedikdə ağla ilk olaraq bilik istehsal edən, cəmiyyətin bütün təbəqələrinə biliyi yayan qurumlar gəlir. Çağımız informasiya əsridir və informasiya istehsal edən, istifadə edən cəmiyyətlər inkişafla ayaqlaşır. Universitetlərin ən əsas funksiyası bilik istehsal etməkdir və burada məlumatın çağın tələblərinə uyğun, qərəzsiz və etibarlı olması vacibdir. Ali təhsil ocaqları bilik istehsal etmək funksiyalarında bu məqamları nəzərə alaraq etik qaydalara riayət etməlidir. Unutmaq olmaz ki, informasiya istehsalı peşəkar işdir və təcrübə tələb edir. Bu baxımdan universitetlər keyfiyyətli akademik kadrlara və lazımi texnoloji avadanlıqlara sahib olmaq üçün üzərinə düşən vəzifələri yerinə yetirməlidir (Demir G., 2023, 404; Hacı M., 2025; Akkaya, M. A., & Yıldırım, Z., 2017). Etika və təhsil ayrılmaz anlayışlardır, çünki hər ikisi insanın mövcudluğunu təsvir edir, təkmilləşdirir və onun inkişafına töhfə verir (McCreary B., 2019, 1: Campbell, 2008). Təhsil müəssisəsinin insan kapitalının hazırlanması ilə bağlı vəzifəsi son yüz il ərzində daha da önəm ərz etməkdədir. Cəmiyyətimizin demək olar ki, hər bir üzvünün yolu təhsil ocağından keçir. Bu gün sosial, siyasi, iqtisadi və s. bu sahələrdə yaşadığımız insandan qaynaqlanan problemlərin əsasını təhsil müəssisəsində keçirdiyimiz müddət ərzində qazanılması vacib olan olan etika anlayışının əldə olunmaması təşkil edir. Beləcə, etika anlayışına sahib olmayan cəmiyyət üzvlərinin qeyri-etik davranışları iş ilə yanaşı ictimai həyatda müxtəlif axsamalara və problemlərə səbəb ola bilir. Qeyri-etik davranış cəmiyyətin qaydaları yaxud inancları ilə təsdiqlənməyən mənfi və düzgün olmayan davranışlar kimi qəbul edilir. Qeyri-etik davranışlar həm də qurumlarda münaqişələrə və davranış pozuntularına səbəb olur. Bu baxımdan qeyri-etik davranışlar və tətbiqlər səbəb olduğu problemlərə görə daxili etibar, sədaqət, performans və iş səmərəliliyinə mənfi təsir göstərir. Təhsil sistemində yaşanan ən diqqət çəkən problemlərdən biri də ali təhsildə qeydə alınan qeyri-etik davranışlardır (Rothman,2017, 1). Təhsil müəssisələrində başda rəhbərlər olmaqla müəllimlərin və digər işçilərin qeyri-etik davranışları və əməlləri hər kəsə, o cümlədən təhsilalanlara ciddi təsir edir. Demək olar ki, müəssisədə müəllimlərin qeyri-etik davranışları onların tələbələrinə, digər müəllim yoldaşlarına, rəhbərlərinə

və ətraflarına qarşı peşəkar hörmətini azaldır. Müəllimlərin nümayiş etdirdiyi qeyri-etik davranışlar özləri ilə yanaşı, həm müəssisədəki digər insanlara, həm də təhsilalanların uğurlarına mənfi təsir göstərir (Keskin, N., & Keskin, İ., 2023, 19-20). Müəllimlərin qeyri-etik davranışları məktəbin rəhbərliyi və kollektivi tərəfindən illərlə qurulan nüfuzuna ciddi zərbə vura bilər (Page, D., 2016, 12).

İnsanların etik olmayan davranışlar göstərməsinin bir çox səbəbi var. Ruhi problemlərdən tutmuş, acgözlüyə qədər müxtəlif səbəblər etik olmayan davranışlara səbəb olur, amma fürsətlər və asanlıqla haqq qazandırma etik olmayan davranışları təşviq edir və artırır. İnsanların etik olmayan davranışlar göstərməsinin bir çox səbəbi var. Şəffaf mexanizmlərin müəyyən edilməsi və hesabatlılıq-məsuliyyət münasibətlərinin qurulması etik davranışların genişləndirilməsində mühüm amildir. Qeyri-etik davranışların əsas səbəbləri arasında yetərsiz etik təlim, dəyərlər sisteminin çürüməsi, nəzarətə alına bilməyən ehtiraslar, etik olmayan davranışların normal qəbul edildiyi bir mədəniyyət strukturu, cəza tədbirlərinin yetərsizliyi, həddindən artıq rəqabət və başqaları ilə yarışmaq, hesabatlılıq barədə çatışmazlıqlar, etik olmayan vəziyyətlər barədə diqqətli bir monitorinq sisteminin olmaması, sürətli yüksəlmə ehtirası, rəhbərlərin və ya xidmət istifadəçilərinin hədsiz, qeyri-mütənasib təzyiq və tələbləri, maddi, habelə mənəvi mənfəət üçün hərislik və psixiatrik pozğunluqlar yer alır (Aydın İ., 2021, 19-20).

Təhsildə standartların yüksəldilməsinin ayrılmaz və əsas şərti müəllimlərdir. Darling-Hammond-un apardığı tədqiqatda həm keyfiyyət, həm də kəmiyyət baxımından aparılan analizlərin nəticələri göstərmişdir ki, şagirdlərin uğur qazanmasında müəllimin peşəkarlıq səviyyəsi ən vacib amildir (Sayan H., 2015, 589: Darling və Hammond, 1999, 19). Müəllimlərin şəxsi xüsusiyyətləri və sinifdəki davranışları uşaqların əqli, emosional və sosial inkişafında çox təsirli rol oynayır. Müəllim öz peşəsini nəinki sinif və məktəb mühitində şagirdlərə ən yaxşı şəkildə təmsil etməli, həm də məktəbdənkənar sosial çevrəsindəki fərdlərə örnək olmalıdır. Eləcə də müəllimdən geyimindən ikitərəfli münasibətlərinə, müxtəlif hadisələrə münasibətindən tutmuş danışığına kimi müəllim adına layiq olması, müəllimlik məsuliyyətini daşıya bilməsi gözlənilir (Karataş K., 2020). Müəllim hər zaman öz şəxsi nümunəsi ilə hər kəsə örnək olmalı, müəllim adını daşımağın məsuliyyəti ilə peşəsinin nüfuzunu artırmağa çalışmalıdır. Belə deyə bilərik ki, müəllimin şəxsiyyəti ilə onun fəaliyyəti arasında ziddiyyətlərin aşkarlanması xoşagəlməz bir haldır (Əliyeva S., 2024, 116; Huseynova K., 2024, 168; Яровова, Т. В., & Сергеева, Е. И., 2019; İlyasov M., 2018, 60; Məmmədzadə R. H., 1992, 28-29).

Qeyri-etik davranışları etmək və ya etməmək əsasən fərdin mənəvi inkişaf səviyyəsi və etik davranışları tətbiqetmə qabiliyyəti ilə sıx bağlıdır. Bununla yanaşı, insanların cinayət törətməsinin və cinayətə meyl etməsinin qarşısını almaq üçün bir sıra qanuni tənzimləmələr və sanksiyalar mövcuddur. Lakin bəzi hallarda qanuni görünən davranışlar hər zaman etik hesab edilə bilməz. Məsələn, müəllimin yalnız yüksək nəticə göstərən şagirdlərlə maraqlanıb digərlərini nəzərə almaması qeyri-etik davranış kimi qiymətləndirilə bilər, lakin bu qanuni cəhətdən cəza tələb edən bir hal deyil. Bununla yanaşı məktəb əşyalarından şəxsi məqsədlər üçün istifadə etmək və ya istifadə etdirmək, bir işi qaydalara uyğun olmayan şəkildə həyata keçirmək üçün rüşvət almaq təkcə etikadan kənar davranış deyil, eyni zamanda hüquqi cəhətdən də cəza tələb edən bir hərəkət kimi dəyərləndirilə bilər (Yaylalı E., 2023, 15).

İntizamsızlıq hər hansı bir fəaliyyətin müəyyən edilmiş qayda və tənzimləmələrə uyğun olmaması kimi qiymətləndirilir. Müəllimlərin peşə fəaliyyətində intizamsız davranışları isə onların tədris, öyrənmə və təhsil müəssisəsinin idarəetmə prosesinə mənfi təsir göstərən hərəkətlərini əhatə edir. Müəllimlər arasında ən çox rast gəlinən intizamsızlıq hallarına dərs və məktəbə davamiyyətin pozulması, dərsə gecikmələr, tədris planlarının hazırlanmasına laqeyd yanaşılması, təhsilalanın tapşırıqlarının qiymətləndirilməməsi, sinif jurnalları, gündəliklər və təhsilalan nailiyyətləri kimi məktəb sənədlərinin düzgün aparılmaması daxildir. Bundan əlavə imtahan saxtakarlıqlarında iştirak, valideynlərdən və təhsilalanlardan qanunsuz ödənişlərin tələb edilməsi, icazəsiz ödənişli təhsil məzuniyyətinə çıxma, spirtli içki və narkotik vasitələrin istifadəsi, etik və peşə dəyərlərinə uyğun olmayan davranışlar da intizamsızlıq nümunələri hesab olunur. Bu kimi hallar təhsil sisteminin bütün səviyyələrində ciddi risklər yaradır, çünki müəllimlər cəmiyyətin inkişafında və gələcək nəslin formalaşmasında əsas vəzifəni icra edən peşəkar şəxslərdir (Akinrotimi J., 2021, 134; Ay F., 2017, 268). “Teaching with Love and Logic” əsərində Fay və Funk (1995) müəyyən etmişlər ki, müəllimləri ilə müsbət münasibətləri olmadığını hiss edən şagirdlər daha çox davranış pozuntularına yol verirlər, dərslərdə daha az fəal iştirak edirlər və məktəbi tərk etmə ehtimalları daha yüksəkdir (Camp, 2011, s 2: Fay & Funk 1995). Aybek və Karataşın (2016, s. 106) apardığı araşdırmaya əsasən müəllim namizədlərin həm tələbəlik illərində, həm də iş həyatlarında ən çox məruz qaldıqları qeyri-etik davranış ayrı-seçkilik olmuşdur. Araşdırma nəticələri cəmiyyətdə hələ də qadın-kişi bərabərliyinin tam təmin olunmadığını və xüsusilə cinsiyyətə əsaslanan ayrı-seçkiliyin ön planda olduğunu göstərir.

Müəllimin dinamik, pozitiv, özünəinamlı olması və emosional vəziyyətini idarə edə bilməsi onun peşəkarlığı kimi qiymətləndirilir. Müəllimin mənfi emosional vəziyyəti, narahatlıq hiss etməsi onun səmərəli qərar verməsini çətinləşdirir. Buna görə də müəllimlər dərsə başlamazdan əvvəl şəxsi problemlərindən uzaqlaşmalı və emosional cəhətdən sinfə hazır daxil olmalıdırlar (Başar, 1999, 118). Tələbələrin sinifdə özlərini təhlükəsiz və dəyərli hiss etmələri onların təlimə, müəllimə və dərs mühitinə daha tez, effektiv uyğunlaşmalarını asanlaşdırar ki, belə bir şəraitdə sinif idarəolunmasında qarşıya çıxan problemlər azalar və qarşılıqlı güclü əlaqə formalaşar. Əgər müəllim özündəki çatışmazlıqların fərqinə varıb öz üzərində çalışarsa, həmçinin bu yanaşmanı tələbələrə də aşılayarsa, təlimdə maksimum səmərəlilik əldə oluna bilər (Cizreli və b., 2023).

Müəllimlərə verilən bütün dəyər, hörmət və əhəmiyyətə baxmayaraq, müəllimlər arasında peşəkar etik qaydaların pozulması hələ də dünya üzrə ciddi narahatlıq doğuran bir məsələ olaraq qalır (Mabagala, S., 2016, 2). Müəllimlərin qeyri-etik davranışlarının müxtəlif səbəbləri vardır. Aşağıda onların əsas faktorları təqdim olunmuşdur:

1) Müəllimlərin ehtiyaclarının ödənilməməsi: Müəllimlərin əsas tələblərinin qarşılanmaması onların peşə etikası pozuntularına yol açmasına səbəb ola bilər. Rəsmi qurumların müəllimlərin maaş artımı, vəzifədə yüksəliş, köçürmə xərcləri, əmək haqqı borcları və digər sosial təminatlar ilə bağlı tələblərinə vaxtında cavab verməməsi onların motivasiyasına və peşə öhdəliklərinə mənfi təsir göstərir (Betweli O., 2013, 89).
2) Motivasiya çatışmazlığı: Məktəb təşkilatlarında motivasiya çatışmazlığı müəllimlərin peşə etikası pozuntularına səbəb ola bilər. Aşağı həyat və iş şəraiti, ağır iş yükü, böyük siniflər, məhdud karyera inkişaf imkanları, məktəblərdə müasir infrastrukturun olmaması və uyğun yaşayış yerlərinin mövcud olmaması kimi amillər müəllimlərin işdən soyumasına gətirib çıxarır. Bu da onların həddindən artıq spirtli içki qəbul etməsinə, dərslərə gecikməsinə və ya dərs buraxmasına səbəb ola bilər. Həmçinin, aşağı maaşlar ailədaxili problemlərə gətirib çıxarır. Bəzi müəllimlər həyat yoldaşlarının daha yüksək həyat tərzi tələblərinə cavab verə bilmədiklərinə görə iş etikası qaydalarına riayət etməmə hallarına yol verirlər (Pascal M. J. 2023, 90)
3) Müəllimlərin şəxsi intizamının olmaması: Bəzi müəllimlər təbiətcə intizamsızdır və bu da onların qeyri-etik davranışlar nümayiş etdirməsinə gətirib çıxarır. Məsələn, dərs buraxma, cinsi istismar və maliyyə vəsaitlərinin düzgün idarə olunmaması kimi hallar

buna misal ola bilər. Bu cür davranışlar müəllimin ailədə və ya cəmiyyətdə aldığı tərbiyədən də asılı ola bilər (Demirbilek, M. 2023, 78).

4) Zəif rəhbərlik, təhsil qurumlarının nəzarətinin olmaması və məlumatsızlıq: Müəssisə rəhbərliyinin və təhsil qurumlarının zəif idarəetməsi müəllimlərin intizamsız davranışlarına səbəb ola bilər. Müəllimlər seminarlara, təlimlərə və akademik konfranslara qatıldıqdan sonra öz biliklərini həmkarları ilə bölüşmək üçün kifayət qədər imkan əldə etmirlər. Bundan əlavə, təhsil idarələri məktəblərə nəzarət etdikdə daha çox cəza və qorxutma üzərində fokuslanır, nəinki dəstək verməyə çalışırlar. Müəllimlərə fərqli göstərişlər verən müxtəlif rəsmi şəxslər arasında uyğunsuzluq yaranır, bu da idarəetmədə qarışıqlığa səbəb olur (Paschal, M. J., 2023). Araşdırmalar göstərir ki, müəllimlərin böyük bir qismi peşə davranış standartları barədə lazımi biliklərə malik deyillər (Boon, H. J., 2011, 115; Pelit, E., & Güçer, E. 2006, 116).
5) Texnoloji səbəblər: Müasir texnologiyalar – televiziya, mobil telefonlar və internet bəzi müəllimlərin qeyri-etik davranışlar nümayiş etdirmələrinə səbəb ola bilər. Xüsusilə gənc müəllimlər bəzi qeyri-etik nümunələri təqlid edərək onları öz peşə fəaliyyətinə tətbiq edə bilirlər (Mfaume & Bilinga, 2017, 47). Bəzi müəllimlər dərs saatlarında mobil cihazlardan intensiv istifadə etməklə dərsə qarşı məsuliyyətsiz yanaşır və qeyri-etik davranışlara meyil edirlər (Pascal M. J., 2023, 91).

Bu faktorlar müəllimlərin etik prinsiplərə riayət etməsinə mane olur və təhsilin keyfiyyətini aşağı salır. Buna görə də müəllimlərin sosial rifahının yaxşılaşdırılması, etik qaydalara riayət olunmasının təşviqi və təhsil sistemində effektiv nəzarət mexanizmlərinin yaradılması vacibdir.

## 1.2. Ali təhsil müəssisələrində müəllimlərin etik davranışlarının hüquqi tənzimlənməsi: yerli və beynəlxalq təcrübə

### 1.2.1. Etik kodekslərin əhəmiyyəti

Tarixi prosesə nəzər saldıqda əxlaqi qaydalara hər zaman ehtiyac duyulduğu müşahidə olunur. Qədim zamanlarda – məsələn, Hammurapi və Hippokrat kimi şəxsiyyətlər öz dövrlərində topladıqları təcrübələrə əsaslanaraq müəyyən qaydalar formalaşdırmışlar. İbn Xəldun isə insanlara ən doğru davranışları tövsiyə edən nəsihətnamə üsulunu ortaya qoyub. Ümumi fikir ondan ibarət

olub ki, düzgün davranmaq həm daha asan, həm də daha çox üstün tutulan bir yoldur. Bu yanaşma zamanla yazılı qaydalara çevrilib və sistemləşdirilib. Bu gün biz bu cür qaydaları "etik davranış kodeksləri" adlandırırıq və onların əsas məqsədi cəmiyyətin qəbul etdiyi davranışları və gözləntiləri aydın şəkildə göstərməkdir (Signh, 2017, s. 138). Cəmiyyətlərdə birgə yaşayışı asanlaşdırmaq, münasibətləri tənzimləmək üçün həyatın bütün sahələrini əhatə edən müxtəlif qaydalar mövcuddur. İctimai və şəxsi münasibətlərimiz adət-ənənələr, qanunlar və hər peşəyə uyğun tənzimlənmiş peşə qaydaları ilə müəyyən bir nizam içərisindədir. Bu qaydalar cəmiyyətin və dövrün şərtlərinə uyğun olaraq zamanla yenilənir (Çabuk, A., & İşgüden, B., 2006, 60-61).

Yüksək emosional intellektə malik insanlar həm də yüksək səviyyədə anlama, doğru qərarlar qəbul etmə və düzgün hərəkət etmə qabiliyyətinə malikdirlər. Onlar üçün ciddi etik qaydalara ehtiyac yoxdur. Bu xüsusiyyətə malik olmayan digər fərdlərin bu qabiliyyətlərini inkişaf etdirmək üçün qurulacaq etik kodlar onlara kömək edə bilər (Uzun, F., 2022, 95). Etik kodlar doğru davranışlar üçün normalar və dəyərlər müəyyənləşdirir, standartlar qoyur, əxlaqi davranışları göstərir və dilemmalar yarandıqda əxlaqi qərarların qəbuluna kömək edir (Paters və Gills, 2003, s. 764). Etik kodekslərin yaradılması iki səbəbə görə zəruridir: birincisi, peşəkarlıq tələb edən peşənin peşə sayılmaq üçün etik kodeksləri olmalıdır. Məsələn, Britaniya Sosial İşçilər Assosiasiyası öz etik kodlarına "Sosial iş peşəkarlıq tələb edən peşədir" deməklə başlamışdır, yəni etik kodların yaradılmasını bu peşənin peşəkarlıq tələb etməsi ilə əsaslandırmışlar. Demək olar ki, bu yanaşma peşənin statusunu strukturlaşdırmaq və ya yaxşılaşdırmaqdır. İkincisi, etik kodekslər sosial bəyanatdır. Bu bəyanat vasitəsilə peşə sahibinin öz peşəsi ilə bağlı müasir bacarıqlara malik olmasına, müştərilərə və ya xidmət alanlara qarşı cins, etnik mənsubiyyət və s. nə olursa, olsun heç bir ayrı-seçkiliyə yol verməyəcəyinə, peşə mənsubunun öz bilik və bacarıqlarından qeyri-insani məqsədlər üçün istifadə etməyəcəyinə dair cəmiyyətə təminat verilir (Coşkun, B., & Çelikten, M., 2020, 693: Smith, 1998). Bəzi hallarda peşəkar öhdəliklər və prinsiplər etik qərar qəbuletmə prosesində ziddiyyət yaxud konflikt yarada, bir problemin bir neçə fərqli həll yolunu ortaya çıxara bilər ki, bu alternativlərin hər biri güclü mənəvi əsaslandırmaya, eyni zamanda gözlənilməz fəsadlar yaratma potensialına malik ola bilər və bu kimi hallar etik dilemmalar kimi tanınır. Etik qərar qəbuletmə prosesində baş verə biləcək bu cür ziddiyyətləri aradan qaldırmaq və qeyri-etik davranışların qarşısını almaq məqsədilə peşəkar institutlar qabaqlayıcı daxili mexanizmlər formalaşdırmağa davam edirlər. Bu mexanizmlər eyni zamanda peşə daxilində ortaq mədəniyyət formalaşdırır və müvafiq ixtisasa, sertifikata, hazırlığa malik olmayan şəxslərin həmin sahədə fəaliyyət göstərməsinin qarşısını alan bilik və bacarıq iyerarxiyası yaradır. Bundan əlavə, hər hansı

peşənin müstəqilliyinin, yetkinliyinin və legitimliyinin əsas göstəricilərindən biri həmin peşənin etik kodeksinin mövcudluğudur (Barrett, Casey, Visser, & Headley, 2012). Etik kodekslər iş mühitində çalışan insanların əxlaqi tərəddüdlərlə üzləşdikləri zaman doğru qərar vermələrinə yol göstərən kompas rolunu oynayır (Demir, G., 2021, 2317). Digər tərəfdən etik kodekslər yalnız iş mühiti ilə məhdudlaşmır, gündəlik həyatla da sıx bağlıdır. Lakin bu kodekslər hər yerdə və hər bir peşə qrupu üçün eyni şəkildə tətbiq olunmur. Çünki etik qaydaların məzmunu peşədən-peşəyə, hətta müxtəlif sənaye sahələrinə görə dəyişə bilər. Bu fərqliliklər səbəbilə mükəmməl, ümumbəşəri və sarsılmaz təməllərə əsaslanan etik kodekslərin hazırlanması mümkün deyil (Demir G., 2021, 2317: Bauman, 1998, 20). Təşkilatlarda etik kodekslərin hazırlanması mərhələsində bütün təşkilat üzvlərinin iştirakı ilə bu kodekslərin müzakirə olunması və tez-tez rast gəlinən etik dilemmanın nəzərə alınması vacibdir. Etik kodekslər həyata keçirilən davranışın düzgün və ya səhv olduğunu ifadə edə biləcək şəkildə fərdlərə istiqamətverici xarakter daşımalıdır (Boydak Ö. və b., 2017, 45).

İnkişaf etmiş peşə dəyərləri və peşə bacarıqları etik kodeksin formalaşdırılması üçün istifadə olunur. Təhsildə etika sistemin fasiləsiz və səmərəli fəaliyyətinə töhfə verir. O tətbiq oluna bilən standartları müəyyənləşdirir və həm tələbənin, həm də müəllimin məqsədlərinə xidmət edir, eyni zamanda onları qoruyur. Müəllimlər tələbələrin şəxsiyyətlərinin formalaşmasına yardım etmək, onların fərdi inkişafına və davranışlarına müsbət təsir göstərmək üçün bir mentor (rəhbər) kimi fəaliyyət göstərmək məsuliyyətini daşıyırlar. Tələbələr isə məsuliyyətin vacibliyini dərk edərək etik təcrübələri həyata keçirməklə zamanla inkişaf etməlidirlər (Uzun, F., 2022, 96).

### 1.2.2. Azərbaycanda müəllim davranışlarının normativ-hüquqi çərçivəsi

Baxmayaraq ki, Azərbaycan Respublikasının Konstitusiyası müəllimlərin fəaliyyətini birbaşa tənzimləmir, Konstitusiya təhsil hüququ və insan hüquqlarının təmin olunması baxımından əsas baza rolunu oynayır. "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nun 32-ci maddəsində təhsilalanların, 33-cü maddəsində isə təhsilverənlərin hüquq və vəzifələri aydın şəkildə öz əksini tapır. Təhsilverənlərin əsas vəzifələri sırasında etik davranış qaydalarına, daxili intizam tələblərinə, pedaqoji etika və əxlaq normalarına riayət edilməsi, müəllim nüfuzunun yüksək tutulması və ziyalılıq nümunəsinin göstərilməsi kimi məsələlər yer alır. Qanunda təhsilalanların da etik normalara riayət etməsinin vacibliyi vurğulanır. Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən müəssisədaxili intizam qaydalarına əməl etmək hər bir işçinin vəzifəsidir.

Məcəllənin 186-cı maddəsində qeyd olunur ki, işçi intizam pozuntusuna yol verdiyi təqdirdə xəbərdarlıqdan tutmuş əmək müqaviləsinin ləğvinədək müxtəlif tədbirlər görülə bilər.

Sürətlə dəyişən dünyada keyfiyyətli təhsilin təmin olunması və davamlılığının qorunması, şagirdləri, müəllimləri və təşkilatları istiqamətləndirən yetərli mənəvi dəyərlər və etik prinsiplərin mövcudluğundan asılıdır (Mauti, J. M., Pacho, T. O & Nyatuka, B.O., 2022). Məhz buna görə də Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən 15 may 2024-cü il tarixində əvvəlki "Müəllimlərin etik davranış Qaydaları"nı əvəz edən "Təhsilverənlərin etik davranış Qaydaları" haqqında sənəd təsdiq edilmişdir. Bu Qaydaların məqsədi təhsil müəssisələrində sağlam, hörmətə əsaslanan bir mühit yaratmaq və cəmiyyətin müəllimlərə olan etimadını qoruyub saxlamaqla yanaşı, təhsil müəssisələrində səmərəliliyi və şəffaflığı artırmaq, həmçinin maraqların toqquşmasının qarşısını almaqdır. Bu Qaydalar təhsilverənlərin davranışları ilə bağlı ümumi standartlar müəyyənləşdirir və onların həm iş yerində, həm də ictimai həyatda nümunəvi olmalarını təmin etmək məqsədi daşıyır. Qaydalara əsasən təhsilverənlərin etik davranış prinsipləri dedikdə aşağıdakılar nəzərdə tutulur:

1) Qanunçuluq - Təhsilverən öz vəzifələrini yerinə yetirərkən ölkənin Konstitusiyasına, habelə digər qanunlarına, dövlətin tərəfdar çıxdığı beynəlxalq hüquqi normalara əməl etməlidir.
2) Vicdanlı davranış - Təhsilverənin fəaliyyəti dövlət və cəmiyyətin mənafeyinə müvafiq olaraq keyfiyyətlə və səmərəli şəkildə icra edilməlidir. Hər bir təhsilverən öz davranışı ilə başqalarına vicdanlılıq nümunəsi olmalıdır.
3) Loyallıq - Təhsilverən öz səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı, xüsusilə digər təhsil müəssisələri və dövlət qurumları, onlara rəhbərlik edənlərin fəaliyyəti haqqında (əgər qanunsuz hal qeydə alınmırsa) tənqid və ictimai qiymətləndirmədən çəkinməlidir. O eyni zamanda, mediada və sosial şəbəkələrdə çıxış etdikdə işlədiyi müəssisənin daxili qaydalarına uyğun davranmalıdır.
4) Mədəni davranış - Təhsilverən təhsilalanlar, valideynlər və həmkarları ilə ünsiyyətdə hər zaman nəzakətli, təmkinli davranış nümayiş etdirməli, öz peşə fəaliyyəti ilə bağlı irad ilə tənqidlərə açıq və hörmətlə yanaşmalıdır. Həmçinin onun geyimi və xarici görünüşü işlədiyi müəssisənin qaydalarına uyğun olmalıdır.

5) Qərəzsizlik - Təhsilverən öz vəzifəsini icra edərkən hamıya bərabər və ədalətli yanaşmalı, ayrı-seçkilik etməməlidir. Onun şəxsi və ya başqasının maraqları vəzifə borcuna təsir etməməlidir.
6) İctimai etimad - Təhsilverən öz davranışı ilə həm şəxsi nüfuzunu, həm də təhsil müəssisəsinin adını yüksəltməli, hər hansı qeyri-etik hal baş verərsə, bunu aradan qaldırmaq və ictimai etimadı bərpa etmək üçün məsuliyyət daşımalıdır. Bundan əlavə, media ilə münasibətlərdə qanun çərçivəsində və dürüst informasiya verilməsinə kömək etməlidir.
7) İnsanların hüquq, azadlıq və qanuni maraqlarına, şərəf və ləyaqətinə və işgüzar nüfuzuna hörmət - Təhsilverən öz hərəkətləri və verdiyi qərarları ilə insanların hüquq və azadlıqlarını, qanuni maraqlarını tapdalaya bilməz. Təhsilverən şəxsi və xidməti məlumatların məxfiliyini qorumalı, bu məlumatları yalnız qanunla müəyyən edilmiş hallarda açıqlamalı və heç vaxt şəxsi maraqlar üçün istifadə etməməlidir.

Bütün bunlardan əlavə olaraq təhsilverənlərin xidməti davranışı ilə bağlı bir sıra göstərişlər də bu qaydaların içərisində öz əksini tapır. Qaydalara əsasən təhsilverən:

- öz vəzifəsini qanunvericiliyə uyğun şəkildə, vicdanla, səmərəli və peşəkar formada keyfiyyətə əsaslanaraq yerinə yetirməli;
- işinə davamiyyətli olmalı və üzrsüz səbəblə yayınmamalı;
- rəhbərliyin qanuni tapşırıqlarına əməl etməli (lakin əgər bu tapşırıq qanunsuzdursa, onu icra etməmək hüququna malikdir);
- işlədiyi müəssisənin daxili qaydalarına uyğun rəftar etməli;
- şəxsi və ya kənar təsirlərə qapılmadan qərar verməli;
- təhsil müəssisəsində siqaret çəkməməli, dövlət əmlakından yalnız xidməti məqsədlər üçün istifadə etməli;
- nitqində Azərbaycan ədəbi dilinin normalarına riayət etməli;
- təhsilalanlar üçün sağlam, təhlükəsiz və dəstəkləyici mühit yaratmalı;
- öz bilik və bacarıqlarını daim yeniləməli;
- korrupsiyadan uzaq durmalı, korrupsiyaya qarşı barışmaz mövqeyini təhsilalanlara da aşılamalı və qanunla nəzərdə tutulmuş məbləğdən çox dəyəri olan hədiyyələri qəbul etməməlidir.

Qaydaların icrasına nəzarət təhsil müəssisəsinin rəhbərliyinə həvalə olunur və rəhbərlik həm nəzarət, həm maarifləndirmə, həm də qeyri-etik halların aradan qaldırılması istiqamətində tədbirlər görməyə borcludur. Bu sənəd təhsilverənlərin öz işində daha yüksək etik standartlara uyğun fəaliyyət göstərməsi üçün bələdçi rolunu oynayır və təhsil sistemində keyfiyyətin təmin olunması baxımında əvəzsiz rol daşıyır (https://e-qanun.az/framework/56915). Qeyd etmək lazımdır ki, hazırda ölkədə "Müəllimlərin işə qəbulu", habelə "Müəllimlərin sertifikatlaşdırılması prosesi" çərçivəsində etik davranış mövzularına da yer verilir.

### 1.2.3. Beynəlxalq təcrübədə müəllim davranışlarının hüquqi tənzimlənməsi (ABŞ, Böyük Britaniya, Avstraliya, Cənubi Koreya, Sinqapur və Finlandiya nümunəsində)

Dünyanın bir çox ölkələrində nazirliklər, əyalət hökumətləri, assosiasiyalar və birliklər kimi müxtəlif qurum və təşkilatlar təhsil və təlim işçiləri üçün etik kodekslər müəyyən etmişlər. Bu kodların müəyyənləşdirilməsi ilə həyata keçirilməsi istənilən məqsəd təhsil işçilərinin peşələrini yerinə yetirərkən məlumatsızlıqdan və ya şəxsi bəzi meyillərdən qaynaqlanan etik olmayan davranışlarının qarşısını almaq, bu məqsədlə etik prinsipləri müəyyən bir çərçivəyə salmaq və onların tətbiq olunmasını təmin etməkdir (Kurt H., 2022, s. 16). Dünyanın inkişaf etmiş ölkələrində müəllimlər üçün müəyyən edilən peşə etikası prinsipləri adətən həmin ölkənin təhsil nazirliyi, təhsil birlikləri və vətəndaş cəmiyyəti təşkilatlarının əməkdaşlığı ilə hazırlanaraq tətbiq edilir. Bu məsələdə müəllim birlikləri və həmkarlar ittifaqları kimi vətəndaş cəmiyyəti təşkilatlarının mühüm rol oynadığı, hətta bu qurumların müəllimlərin etik qaydalara riayət etmə səviyyəsini nəzarətdə saxlamaq, şikayətlər olduqda araşdırma aparmaq və yekun qərarın verilməsi üçün işin sənədlərini nazirliyə göndərmək səlahiyyətinə malik olduğu müşahidə edilir (Yaylalı E., 2023, 14).

Dünyadakı tətbiqlərə nəzər saldıqda görünür ki, müəllimlərin etik prinsiplər çərçivəsində formalaşdırılması prosesi onların peşəyə başlamazdan əvvəlki təhsil mərhələsində başlayır. Adətən müəllimlərə bu məsuliyyətləri aşılamaq və daim xatırlatmaq məqsədilə müəllim andları hazırlanır. Bu andlar müəllimlərin hələ peşəyə daxil olmamışdan öncə üzərlərinə götürdükləri vəzifələrlə yanaşı daşımalı olduqları etik məsuliyyətləri və əməl etmələri gözlənilən etik prinsipləri də onlara xatırladır (Şengül B., 2013, 16-17: Aydın, 2002, 137).

Təhsilverənlər üçün aydın prinsiplər şəklində müəyyən edilən ilk peşə etikası prinsipləri 1929-cu ildə ABŞ-da Milli Təhsil Assosiasiyası (NEA) tərəfindən müəyyənləşdirilmiş və sonralar

altı dəfə düzəlişlər edilməsi ilə 1975-ci ildə "Şagirdlərə bağlılıq" və "Peşəyə sadiqlik" prinsipləri altında yekun halını tapmışdır (Özbek, O., 2003,47: Travers & Rebore, 2000, 147-148). Bu prinsiplərin maddələrindən biri təsdiq, digərləri isə inkar quruluşda tərtib edilmişdir (Bax: Cədvəl 1.2.2., Kean University, 2021).

**Cədvəl 1.2.2. Şagirdə və peşəyə bağlılıq kontekstində etik prinsiplər (NEA)**

| *Şagirdə Bağlılıq Kontekstində Etik Prinsiplər* | *Peşəyə Bağlılıq Kontekstində Etik Prinsiplər* |
|---|---|
| Şagirdin öyrənmə prosesindəki müstəqil hərəkətlərinə mane olunmayacaq. | İşə müraciət edərkən, öz səriştələrinə dair yanlış məlumat verilməyəcək. |
| Şagirdin fikirlərinə hörmət göstəriləcək; haqlı səbəblər xaricində baxış bucağı dəyişdirilməyə çalışılmayacaq. | Peşəyə yaraşmayan davranış və hərəkətlər göstərilməyəcək. |
| Şagirdin inkişafı və irəliləməsi məqsəd götürülərək dərs mövzuları dəyişdirilməyəcək. | Təlimçilər xaricində tədris aparılmasına icazə verilməyəcək. |
| Şagirdi mənfi düşüncələrə sövq edəcək hallara mane olunacaq, sağlamlığı və təhlükəsizliyini riskə atan vəziyyətlərə qarşı tədbirlər görüləcək. | Həmkarlarla bağlı məlumatlar, qanuni və ya peşəkar bir məcburiyyət olmadığı təqdirdə açıqlanmayacaq. |
| Şagirdi utandıracaq və ya alçaldacaq davranışlardan çəkiniləcək. | Qəsdən hər hansı bir həmkar haqqında qanunsuz və ya mənfi ifadələr işlədilməyəcək. |
| Şagirdlərə qarşı qərəzsiz olunacaq və onlar irqi, dil, siyasi və dini inancları, cinsi, sosial və mədəni aspektləri baxımından mühakimə olunmayacaqlar. | Peşənin zəifləməsinə səbəb olacaq və ya onun yerinə yetirilməsini hər hansı formada əngəlləyəcək hədiyyə və ya yardım qəbul olunmayacaq. |
| Şagirdlər şəxsi maraqlar üçün istifadə olunmayacaq. | |
| Şagirdlərə aid şəxsi məlumatlar açıqlanmayacaq. | |

Amerika Təhsil İşçiləri Assosiasiyası (AAE) təhsilverənləri şagirdlərin bütün potensialını üzə çıxaran tədris mühitlərini formalaşdıran peşəkar fərdlər kimi müəyyən edərək şagirdlərin və

müəllimlərin hüquqlarına dair ümumilikdə 18 maddədən ibarət dörd əsas prinsip (şagirdlərə qarşı etik davranış, təcrübə və fəaliyyətlərə yönəlmiş etik davranış, peşəkar həmkarlarla etik münasibət, valideynlərə və cəmiyyətə qarşı etik davranış) müəyyən etmişdir (AAE, 2022). Bununla belə, 2015-ci ildə ABŞ Dövlət Təhsil Rəhbərləri Assosiasiyası (NASDTEC) tərəfindən "Müəllimlər üçün Model Etika Kodeksi" (Model Code of Ethics for Educators - MCEE) hazırlanmışdır. Bu yeni kodeks NEA-nın 1975-ci ildə qəbul etdiyi prinsipləri genişləndirərək müəllimlərin peşəkar davranışlarını daha əhatəli şəkildə tənzimləməyi məqsəd qoymuşdur. MCEE beş əsas prinsipə əsaslanır:

1. Peşəyə qarşı məsuliyyət
2. Peşəkar kompetensiyaya qarşı məsuliyyət
3. Şagirdlərə qarşı məsuliyyət
4. Məktəb icmasına qarşı məsuliyyət
5. Texnologiyadan məsuliyyətli və etik istifadə

Bu yeni kodeks müəllimlərin qarşılaşdıqları etik dilemmaları daha yaxşı anlamaq və onlara uyğun davranmaq üçün bir çərçivə təmin edir. Bununla yanaşı, bəzi ştatlar və yerli təhsil qurumları öz etik kodekslərini qəbul etmiş və ya NEA və NASDTEC tərəfindən təqdim olunan prinsipləri əsas götürərək öz qaydalarını formalaşdırmışlar (NASDTEC, 2021).

İngiltərədə milli səviyyədə müəyyən edilmiş etik kodekslər yalnız məktəb daxilindəki həyatla deyil, həm də məktəb xaricindəki həyatla bağlı olaraq tənzimlənmişdir:

1. Müəllim şagirdlərin şəxsiyyətini və etibarını qoruyur, onlarla hörmət çərçivəsində münasibət qurur.
2. Şagirdlərin rifahını və təhlükəsizliyini təmin etmək üçün müvafiq tədbirlər görür.
3. Başqalarının hüquqlarına hörmət edir.
4. Ölkənin maraqlarını qoruyur, demokratiyaya, hüququn üstünlüyünə inanır və fərdi azadlıqlara və müxtəlif inanclara hörmət edir.
5. Həmkarlarının şərəfinə xələl gətirə biləcək hər hansı münasibət və davranışdan çəkinir.
6. Həmkarlarını başqaları ilə müzakirə edərkən onların səriştəsi və bacarıqları barədə şərh bildirmir (Department for Education, 2021).

Böyük Britaniya Milli Müəllimlər Birliyi (National Education Union – NEU) tərəfindən hazırlanmış müəllimlik peşə etikası prinsipləri müəllimlərin həmkarları ilə peşəkar münasibətlərində etik davranış qaydalarını müəyyən edir. Bu prinsiplər aşağıdakılardır:

- Müəllimlər həmkarları ilə yaşana biləcək peşəkar problemlər və çətinliklər haqqında hər hansı bir müzakirəyə dair məxfilik prinsipinə riayət etməlidirlər.
- Əgər bir müəllim həmkarının davranışı və ya işinin keyfiyyəti ilə bağlı narahatlıq və ya narazılıq hiss edirsə, bu məsələni qeyri-rəsmi və məxfi şəkildə həmin həmkarı ilə müzakirə etməlidir. Əgər məsələ qeyri-rəsmi şəkildə həll olunmazsa, müəllim, həmkarını məlumatlandırmadan hər hansı bir addım atmamalıdır. Lakin əgər müəllimin həmkarının məktəbə və ya şagirdlərə zərər verə biləcək şəkildə davrandığına dair əsaslı səbəbi varsa, bu zaman o məktəb rəhbərliyinə hesabat təqdim etmək məsuliyyəti daşıyır.
- Müəllimlər üçüncü şəxslərin yanında həmkarlarını tənqid etməməli və onların şərəf və ləyaqətinə xələl gətirə biləcək ifadələrdən çəkinməlidirlər.
- Müəllimlər arasında effektiv ünsiyyət qarşılıqlı hörmət çərçivəsində baş verməlidir. Müəllimlər həmkarları ilə ünsiyyət qurarkən peşəkar fikirlərini sərbəst şəkildə ifadə edə bilməlidirlər.
- Digər həmkarların işlərinin təşkilindən məsul olan müəllimlər, bütün əməkdaşların onlara verilmiş məsuliyyətlər və vəzifələr, məktəbin gündəlik fəaliyyəti ilə bağlı tətbiq və prosedurlar haqqında məlumatlı olduqlarından və bunları yaxşı başa düşdüklərindən əmin olmalıdırlar.
- Qısa və ya uzunmüddətli perspektivdə məktəbin təşkilati strukturunda hər hansı dəyişiklik planlaşdırılırsa, bu dəyişikliklər yalnız əlaqəli müəllimlərlə məsləhətləşdikdən sonra həyata keçirilməlidir. Dəyişikliklərin tətbiqindən əvvəl müəllimlərə açıq və kifayət qədər məlumat təqdim olunmalıdır.
- Müəllimlərlə bağlı şikayət və ya ittihamlarla çıxış edən valideynlər məktəb direktoruna yönləndirilməlidir. Direktor adıçəkilən müəllimlə məsələni müzakirə etmədən şikayət və ya ittihamla bağlı heç bir hərəkətə keçməməlidir. Bununla belə, direktorun olmadığı hallarda əməkdaşların məsələyə dair müzakirə aparmaq hüququna hörmətlə yanaşmaq məntiqli və məqsədəuyğundur.
- Bütün əməkdaşlar müəllim otaqları da daxil olmaqla işçi heyətinə aid imkanlardan tam şəkildə istifadə etmək hüququna malik olmalıdırlar.

- Müəllimlər bir çox mənbədən və ya tək bir mənbədən əldə edilən məxfi məlumatlara çıxış imkanı olan şəxslərdir. Uşaqlarla bağlı hesabatlar valideynlərdən, sosial xidmət işçilərindən, polis orqanlarından, yerli idarəetmə qurumlarından, digər müəllimlərdən, həkimlərdən, tibb işçilərindən və digər mənbələrdən əldə oluna bilər. Müəllimlər bu cür məlumatlarla bağlı peşəkar mühakimə yürütməli, uşağın mənafeyini və qanuni tələbləri nəzərə alaraq davranmalıdırlar. Məxfi məlumatın açıqlanması ilə bağlı qərar qəbul edilməzdən əvvəl yerli təhsil idarəsinin səlahiyyətli nümayəndəsi və ya məktəb direktoru ilə məsləhətləşmək zəruridir.
- Müəllim şagirdin təhsili və davranışı ilə bağlı müzakirələr apararkən həmkarlarının davranışı, peşəkarlığı və səriştəsi haqqında rəy bildirməkdən çəkinməlidir.
- İstər birbaşa, istərsə də vasitəçi yolu ilə vəzifədə yüksəlmək məqsədilə təbliğat aparmaq etik deyil.
- Şagird və müəllim arasında qarşılıqlı hörmətə və hər birinin tədris mühitində sahib olduğu rolun fərqində olmasına əsaslanan dostyana bir münasibətin formalaşması arzuolunan bir haldır. Lakin müəllimin aşağıdakı davranışları bu peşəkar münasibətin istismarı sayılır:
  - Təhsilalan ilə uyğun olmayan bir münasibətdə olmaq;
  - Təhsilalana qarşı lüzumsuz şəkildə xoş niyyət və ya narazılıq göstərmək;
  - Bir təhsilalana qarşı qanunsuz sayılan davranışlar nümayiş etdirmək;
  - Təhsil müəssisəsinin işi ilə heç bir əlaqəsi olmayan şəxsi münasibət, baxış və ya davranışlar mövzusunda nüfuzdan sui-istifadə etməyə çalışmaq.
- Heç bir müəllim peşəkar bacarıq, bilik tələb edən və yalnız ixtisaslı müəllimin yerinə yetirə biləcəyi vəzifə və öhdəlikləri bu sahədə zəruri ixtisasa malik olmayan şəxslərə həvalə etməməlidir. Lakin bu müddəa aşağıdakılara heç bir şəkildə maneə yaratmamalıdır:
  - Müəllimlərin uyğun şəkildə təlim alması;
  - 1993 Tənzimləmələrinin 2-ci Təhsil Planına tabe olan təlimçilərin işə götürülməsi və istifadəsi;
  - İxtisaslı müəllimlərin işinin qanuna uyğun şəkildə dəstəklənməsi və köməkçi heyətin dəstək rolu ilə təmin olunması.
- Heç bir müəllim bilərəkdən çalışdığı təhsil müəssisəsinin nüfuzuna xələl gətirəcək şəkildə davranmamalıdır.

– Müəllim irqə əsaslanan ayrı-seçkilik xarakteri daşıyan davranışlar nümayiş etdirməməli, etnik azlıqlar və ya onların üzvləri haqqında neqativ və ya irqçi xarakterli şərhlər verməməlidir (National Education Union, 2018).

Avstraliya Paytaxt Bölgəsi Təhsil və Tədris Müdirliyi (2006) tərəfindən hazırlanmış müəllimlik peşə etikası prinsipləri beş əsas kateqoriyanı əhatə edir:

1) Cəmiyyətə xidmət
2) Hökumətə və ictimai ehtiyaclara cavab verə bilmək
3) Hesabatlılıq
4) Ədalətlilik və düzgünlük
5) Səriştəlilik və səmərəlilik

Cəmiyyətə xidmət: Müəllimlik peşəsinin əsas xüsusiyyətlərindən biri cəmiyyətə xidmət ruhudur. Bu ruhla uzlaşan şəkildə həm peşə üzvü, həm də dövlət qulluqçusu olan müəllimlər şagirdlərinin təhsili, rifahı, sağlamlığı və təhlükəsizliyinə olan məsuliyyətlərini şəxsi və ya regional maraqlardan, eləcə də digər həmkarlarının maraqlarından üstün tutmalıdırlar. Hər bir müəllim başqalarının ləyaqətinə, hüquqlarına və fikirlərinə hörmətlə yanaşmalı, yüksək standartlara uyğun peşə fəaliyyətini həyata keçirməli, şagirdləri onlara zərər verə biləcək hallardan qorumalı, valideynlər, yaxud qəyyumlarla konstruktiv peşəkar münasibətlər qurmalı və onları davam etdirməli, nəzarətçi və rəhbərlik rollarında nümunəvi liderlik göstərməli, iş yerində ayrı-seçkilik və ya istismar hallarının qarşısını almağa çalışmalıdır.

Hökumətə və cəmiyyətin ehtiyaclarına cavabvermə bacarığı: Müəllimlər hökumətin siyasi baxışlarından asılı olmayaraq onun siyasət və xidmətlərinin idarə olunması və tətbiqində eyni səviyyədə peşəkarlıq nümayiş etdirməlidirlər. Hər bir müəllim ictimai maraqları və şagirdlərin öyrənmə prosesini inkişaf etdirmək öhdəliyinə malikdir.

Hesabatlılıq: Müəllimlər dövlətin təhsil siyasətinə riayət etmək və bu siyasət çərçivəsində fəaliyyət göstərmək məsuliyyəti daşıyırlar. Eyni zamanda, onlar həyata keçirdikləri təhsil proqramlarının keyfiyyəti və məzmununa görə də cavabdehdirlər. Hazırlanan proqramlar səmərəli, obyektiv və tərəfsiz şəkildə tətbiq olunmalı, müəllimlər qəbul etdikləri qərarların səbəblərinə dair dəqiq və şəffaf qeydlər aparmalıdırlar. Hər bir müəllim yüksək keyfiyyətli tədris prosesini təmin etməyə və bu sahədə məsuliyyəti üzərinə götürməyə borcludur.

Ədalətlilik və dürüstlük: Müəllimlər cəmiyyətin onlara göstərdiyi etimadla və etibarla birləşmiş şəxsiyyətlər kimi fəaliyyət göstərirlər. Onlar məktəbin maddi və informasiya resurslarını idarə edir, təhsil müəssisəsində mövcud olan məlumatlara çıxış imkanına malikdirlər və həm məktəb işçilərinə, həm də şagirdlərə təsir edən mühüm qərarlar qəbul edirlər. Hər bir müəllim gündəlik fəaliyyətlərində və qərar qəbuletmə prosesində dürüstlük və şəffaflıq prinsiplərinə riayət etməyə borcludur.

Səriştəlilik və səmərəlilik: Bu prinsip müəllimin resurslardan düzgün istifadə edərək tədris prosesində effektiv nəticələr əldə etməsini təmin etməyi hədəfləyir. Hər bir müəllim tədris resurslarının kifayət qədər və səmərəli şəkildə idarə olunmasını təmin etməyə borcludur (ACT Education Directorate, 2006).

Cənubi Koreya Müəllim Təşkilatları Federasiyası (2019) tərəfindən müəllimlik peşəsi üçün müəyyən edilmiş etik prinsiplərə əsasən müəllimlər:

- Şagirdlərin düzgün xarakter və yaradıcı düşüncə formalaşdırmaları üçün onlara rəhbərlik etməyə çalışmalıdırlar.
- Davamlı və müntəzəm peşəkar inkişaf təlimləri və araşdırmalar vasitəsilə bütün vətəndaşlar tərəfindən tanınan yüksək keyfiyyətli təhsil təmin etməlidirlər.
- Təhsilalanın cinsiyyət, din, əlillik vəziyyəti, yaş, etnik qrup və din səbəbilə ayrı-seçkilik hiss etmədiyi bir təhsilə çıxış hüquqlarını qorumaqla məsuldurlar.
- Müəllimliyi davamlı peşəkar inkişaf təlimi və araşdırma tələb edən peşəkar bir peşə kimi qəbul etməli və bu peşəyə uyğun araşdırma qabiliyyəti və etik anlayışlarını daim inkişaf etdirməlidirlər.
- Koreya təhsil siyasətinin formalaşdırılmasında aktiv iştirak etməli və təhsil islahatlarında təşəbbüskar mövqe nümayiş etdirməlidirlər.
- Təhsilin müstəqilliyini dəstəkləməli, müəllimlərin hüquqlarını müdafiə etməli, onların peşəkar üstünlüklərinin tanındığı və hörmətlə qarşılandığı təhsil mühitini təmin etməlidirlər.
- Müəllimlərin sosial, iqtisadi və hüquqi statusunun yüksəldilməsi üçün birləşməli və təhsildə nüfuz sahibi olan peşəkar bir səlahiyyət strukturunun formalaşdırılmasını hədəfləməlidirlər.

- Valideynlər, yerli icmalar, təhsil üzrə qeyri-hökumət təşkilatları, akademik qurumlar və dövlət orqanları ilə qarşılıqlı anlaşma və əməkdaşlığa əsaslanan ümumi təhsil və iş birliyi platformasının yaradılmasına səy göstərməlidirlər.
- Qlobal səviyyədə ölkənin mövqeyinin möhkəmləndirilməsinə, təhsil sahəsində milli inkişafın təmin edilməsinə və beynəlxalq qarşılıqlı əlaqə vasitəsilə dünya sülhünün təşviqinə töhfə verməlidirlər (Ordu A., 2019-dan götürülmüşdür, s. 71-72).

Sinqapurun Nanyang Texnologiya Universitetinin Milli Təhsil İnstitutu tərəfindən hazırlanan müəllimlik peşə etikası prinsipləri aşağıdakı iki kateqoriyanı əhatə edir:

1. Tələbəyə bağlılıq,
2. Peşəyə bağlılıq.

Tələbəyə bağlılıq:

- Müəllimlər hər bir tələbənin cəmiyyətin dəyərli və təsirli üzvü olaraq öz potensialının fərqinə varmasına kömək etmək üçün çalışmalıdırlar.

  Tələbələrə qarşı məsuliyyətlərini yerinə yetirmək öhdəliyi olan müəllimlər:
- Tələbələri məlumat axtarışında müstəqil fəaliyyət göstərmələrindən əsassız şəkildə məhrum etməməlidirlər.
- Tələbənin inkişafı ilə bağlı mövzunu qəsdən əngəlləməməli və ya çaşdırmamalıdırlar.
- Tələbənin müxtəlif baxışlara çatmasına əsassız şəkildə mane olmamalıdırlar.
- Tələbəni öyrənmələrinə, sağlamlıqlarına və təhlükəsizliyinə zərər verə biləcək vəziyyətlərdən qorumaq üçün kifayət qədər səylər göstərməlidirlər.
- Tələbəni qəsdən utandırmaq və ya alçaltmaqdan çəkinməlidirlər.
- Heç bir tələbəni irq, rəng, məzhəb, cinsiyyət, milli mənşə, ailə vəziyyəti, siyasi və ya dini inanclar, ailə, sosial və mədəni əlaqələr və ya cinsi oriyentasiya baxımından;
  - ədalətsiz şəkildə proqramdan kənar qoymamalıdırlar,
  - hüquqlarını inkar etməməlidirlər,
  - üstünlük təmin etməməlidirlər.
- Tələbələrlə olan peşəkar münasibətlərini şəxsi mənfəət üçün istifadə etməməlidirlər.
- Məlumatın açıqlanması məcburi peşəkar məqsəd üçün deyilsə və ya qanunla tələb edilmirsə, peşəkar xidmət zamanı əldə olunan tələbələrlə bağlı məlumatları açıqlamamalıdırlar.

Peşəyə bağlılıq: Təhsildə müəllimlik peşəsinin xidmətlərinin keyfiyyətinin xalq və vətəndaşlara birbaşa təsir etdiyi inancı ilə müəllimlər peşə standartlarını yüksəltmək və peşəkar mühakimə tətbiqini dəstəkləyən mühit yaratmaq üçün bütün səylərini göstərməlidirlər.

Peşənin öhdəliklərini yerinə yetirmək üçün müəllimlər:

- Peşəkar mövqe üçün müraciət edərkən qəsdən yanlış bəyanat verməməli, qabiliyyət və keyfiyyətləri ilə bağlı material faktları açıqlamaqda səhvə yol verməməlidirlər.
- Peşəkar keyfiyyətlərini yanlış tanıtmamalıdırlar.
- Xarakter, təhsil və digər əlaqəli xüsusiyyətləri ilə bağlı qabiliyyətsiz olduğu məlum olan şəxsin peşəyə daxil olmasına kömək etməməlidirlər.
- Peşəkar mövqe üçün namizəd olan şəxsin qabiliyyəti ilə bağlı bilərəkdən yanlış bəyanat verməməlidirlər.
- Təhsil sahəsində olmayan şəxsin icazəsiz müəllimlik etməsinə yardım etməməlidirlər.
- Məlumatın açıqlanması məcburi peşəkar məqsəd üçün deyilsə və ya qanunla tələb edilmirsə, peşəkar xidmət zamanı əldə olunan həmkarlarla bağlı məlumatı açıqlamamalıdırlar.
- Həmkarları ilə bağlı bilərəkdən pis niyyətli və ya yanlış bəyanat verməməlidirlər (Ordu A., 2019-dan götürülmüşdür, s. 78-79).

Finlandiya Təhsil İşçiləri İttifaqı (OAJ) tərəfindən müəyyən edilmiş müəllimlərin etik prinsipləri aşağıdakı əsas dəyərlərə əsaslanır:

1) İnsan ləyaqətinə hörmət: Müəllimlər cinsiyyət, yaş, din, sosial status və digər fərqliliklərə baxmayaraq hər bir fərdin ləyaqətinə hörmət etməlidirlər.
2) Dürüstlük: Müəllimin əsas funksiyalarından biri olan şagirdlərin həyatda və ətraf mühitdə yol tapmalarına istiqamət vermək tədris prosesində əsas dəyərlərdən biridir. Özünə və başqalarına qarşı səmimiyyət və bütün ünsiyyət formalarında qarşılıqlı hörmət müəllim fəaliyyətinin ayrılmaz hissəsidir.
3) Ədalət: Həm fərdi şagirdlərlə, həm də qruplarla münasibətlərdə, eyni zamanda iş mühitində mühüm rol oynayır. Ədalətlilik xüsusilə bərabərliyi və ayrı-seçkiliyin qarşısının alınmasını təşviq etməyi, həmçinin qərəzli yanaşmalardan uzaq durmağı tələb edir.
4) Məsuliyyət və azadlıq: Müəllimlər öz peşəkar fəaliyyətlərində məsuliyyətli olmalı və tədris azadlığını etik çərçivədə həyata keçirməlidirlər.

Müəllimlərin etik prinsiplərinin əsas məqsədi tədris prosesində mövcud olan etik məsuliyyətə diqqət çəkməkdir:

Müəllim və peşəsinə münasibət - Müəllimlər öz peşələrinin standartlarına və etik prinsiplərinə sadiq qalırlar. Onlar vəzifələrini məsuliyyətlə yerinə yetirirlər. Müəllimlər öz fəaliyyətlərini və peşəkar bacarıqlarını inkişaf etdirir, həmçinin fəaliyyətlərini özləri qiymətləndirirlər. Müəllimlər dərsləri öz şəxsiyyətlərini əks etdirəcək şəkildə aparırlar, bu səbəbdən də fərdiliklərini qorumaq və inkişaf etdirmək həm onların hüququ, həm də vəzifəsidir. Müəllimlərin iş mühitində ədalətli münasibət görmək hüquqları vardır.

Müəllim və təhsilalanlar - Müəllimlər şagirdləri unikal insan fərdləri kimi qəbul edir və onlara bu çərçivədə yanaşırlar. Onlar şagirdlərin hüquqlarına hörmətlə yanaşır, onlara qarşı insani və ədalətli münasibət göstərirlər. Müəllimlər şagirdlərin fərdi vəziyyətlərini, düşüncə və fikirlərini anlamağa çalışırlar. Şagirdin şəxsiyyəti və şəxsi həyatı ilə bağlı məsələlərə həssas və ehtiyatlı yanaşılır. Xüsusi qayğıya və müdafiəyə ehtiyacı olan şagirdlərə xüsusi diqqət göstərilir və müəllimlər heç bir halda zorakılıq və ya başqalarına qarşı sui-istifadə hallarına dözümlə yanaşmırlar. Müəllimlərin vəzifələrinə, həmçinin şagirdlərə əməkdaşlıq etməyi və cəmiyyətin yaxşı bir üzvü olmağı öyrətmək də daxildir. Etimadın qurulması və sağlam münasibətlərin formalaşdırılması müəllimlərin peşəkar fəaliyyətinin ayrılmaz hissəsidir.

Müəllim və işgüzar kollektiv - Müəllimlər öz peşələrini dəyərləndirir və həmkarlarına hörmətlə yanaşırlar. Onlar resurslarını birləşdirməyə, həmçinin fərdi müstəqillikləri ilə iş kollektivinin tələbləri arasında balans yaratmağa çalışırlar. Həmkarların fərdiliyini qəbul etmək, onları anlamaq, qarşılıqlı yardım və dəstək göstərmək peşəkar kollektivin əsas prinsiplərindən sayılır.

Müəllim və cəmiyyət - Müəllimlik cəmiyyətdə ən önəmli və təsirli peşələrdən biridir. Müəllimin öz işində uğurlu olması təkcə şəxsi səylərindən deyil, həm də dövlətin təhsilə ayırdığı resurslardan asılıdır. Müəllimlər təhsilin insanlar üçün yaratdığı inkişaf və bərabərlik imkanlarını önə çəkir, şagirdlərin hüquq və maraqlarını qorumaq üçün lazım gəldikdə tənqidi yanaşmaqdan da çəkinmirlər. Eyni zamanda, müəllimlər öz fəaliyyətləri ilə şagirdlərə demokratik cəmiyyətin məsuliyyətli üzvünə çevrilməyi öyrədirlər.

Müəllimlər və maraqlı tərəflərlə əməkdaşlıq - Müəllimlər təkbaşına deyil, şagirdlərin valideynləri, qəyyumları və onların təhsil, inkişaf və rifahına cavabdeh olan digər qurumlarla birlikdə çalışırlar. Bu əməkdaşlığa sosial və tibbi xidmət mütəxəssisləri, dövlət qurumları və digər dəstək təşkilatları daxildir. Belə bir çoxtərəfli əməkdaşlıq şagirdlərin daha effektiv şəkildə öyrənməsi və inkişafı üçün mühüm dəstək rolunu oynayır.

Müəllimlər və plüralizm - Müəllimlər cəmiyyətin üzvü olaraq bütün şagirdlərin eyni hüquq və vəzifələrə malik olmalarını təmin etməlidirlər. Onlar şagirdlərin və valideynlərinin mədəniyyətinə və dünyagörüşünə bərabər hörmətlə yanaşılmasına nəzarət etməli və heç kimin bu fərqliliklərə görə ayrı-seçkiliyə məruz qalmamasına təminat verməlidirlər (Tirri & Kuusisto, 2023, 83-85).

Nəticə etibarilə, dünya təcrübəsi göstərir ki, müəllim davranışları təkcə peşə bacarıqları ilə deyil, etik və hüquqi çərçivələrlə də tənzimlənməlidir. Müxtəlif ölkələrdə tətbiq olunan etik kodekslər müəllimlərin məsuliyyətini, şəffaflığını və cəmiyyət qarşısında hesabatlılığını gücləndirməklə yanaşı təhsilin keyfiyyətinə də birbaşa təsir göstərir. Bununla belə məlumdur ki, etik prinsiplərin tətbiqi, habelə monitorinqi ölkədən-ölkəyə dəyişir və bu sahədə vahid standartların olmaması bəzən çətinlik yarada bilir.

# II FƏSİL. METODOLOGİYA

## 2.1. Tədqiqatın modeli

Bu tədqiqatın əsas məqsədi ali təhsil müəssisələrində müəllimlərin etik davranışlarının tələbələrin baxış bucağından necə dəyərləndirildiyini və müəllim davranışlarının tələbələrə necə təsir etdiyini ortaya çıxarmaqdır. Tədqiqat məqsədinə çatmaq üçün kəmiyyət tədqiqat metodlarından olan Likert tipli şkalalı anket-sorğu vasitəsindən istifadə olunmuşdur. Araşdırma təsviri (descriptive) və sahə (field research) xarakterlidir. Təsviri tədqiqat öyrənilən əhali və ya fenomenin xüsusiyyətlərini təsvir edən bir tədqiqat üsulu kimi müəyyən edilir. Bu metodologiya, əsasən demoqrafik bir seqmentin təbiətini (xüsusiyyətlərini) təsvir etməyə yönəlib və müəyyən bir hadisənin "niyə" baş verdiyini araşdırmır. Təsviri tədqiqatların üç əsas məqsədi bunlardır: təsvir etmək, izah etmək və tədqiqat nəticələrini təsdiqləmək. Sorğular da təsviri tədqiqatlarda istifadə olunan məşhur məlumat toplama metodlarındandır (Manjunatha, N., 2019, 863). Sahə araşdırmaları, sosial elmlərdə cəmiyyəti təhlil etməyin ən mühüm təməl daşını təşkil edir. Sahə tədqiqatı real həyatda, yəni laboratoriya və ya nəzəri mənbələrdən kənarda birbaşa əhali üzərində aparılan tədqiqatdır (Yılmaz, S., 2017; Məmmədov A., Quliyev. O., və b., 2023). Beləliklə, sorğu vasitəsilə 425 tələbənin fikirləri toplanaraq tədqiqatın empirik bazası formalaşdırılmışdır.

Bu tədqiqatda tələbələrin müəllimlərin etik davranışlarına dair qiymətləndirmələri asılı dəyişən, tələbələrin cinsi, yaşı, təhsil səviyyəsi, tədris ili və təhsil aldıqları universitet isə müstəqil dəyişənlər kimi götürülmüşdür.

## 2.2. Tədqiqatın iştirakçıları

Tədqiqatın əsas kütləsini Azərbaycanda fəaliyyət göstərən dövlət və özəl ali təhsil müəssisələrində bakalavriat, magistratura və doktorantura səviyyələrində təhsil alan tələbələr təşkil etmişdir. Nümunə kütləsini müxtəlif universitetlərdə təhsil alan 425 tələbə təşkil etmişdir. Bu ali təhsil müəssisələri sırasına daxildir: Xəzər universiteti, BDU, BMU, BBU, BSU, DİA, GDU, LDU, SDU, ADA, AU, ADU, ADPU, ADAU, ATU, AzTU, ADNSU, AzMİU, ADRA, ATMU, UNEC, OYU, Qarabağ universiteti, Qərbi Kaspi universiteti, ADBTİA, Azərbaycan Texnologiya Universiteti və AMEA. Nümunə kütləsi tərkib baxımından müxtəlif yaş qrupları (17–26 və yuxarı), təhsil səviyyələri (bakalavriat, magistratura, doktorantura), ixtisas qrupları və tədris ili (I, II, III, IV

və yuxarı) üzrə təmsil olunmuşdur. Bu yanaşma tədqiqat nəticələrinin daha geniş və müxtəlif tələbə təcrübələrini əhatə etməsinə imkan yaratmış, etik davranışlara dair tələbə baxışlarının daha obyektiv şəkildə öyrənilməsinə töhfə vermişdir. İştirakçılar arasında qadınların nisbəti 71.5%, kişilərin isə 28.5% olmuşdur. Yaş bölgüsünə görə 69.4% 17–20 yaş, 27.1% 21–25 yaş, 3.5% isə 26 və yuxarı yaş aralığında olmuşdur. Tədris ili göstəricilərinə əsasən, tələbələrin bölgüsü I tədris ili – 18%, II – 55%, III – 10%, IV və ya yuxarı tədris ili – 20% civarında təşkil etmişdir (Cədvəl 2.2.3.). Qeyd etmək lazımdır ki, respondentlər sorğuda könüllü və anonim şəkildə iştirak etmiş, sorğunun linki müxtəlif onlayn platformalarda paylaşılması yolu ilə tələbələr arasında yayılmışdır.

**Cədvəl 2.2.3. İştirakçıların demoqrafik göstəriciləri**

| Demoqrafik göstərici | Kateqoriya | Say |
|---|---|---|
| **Cinsiyyət** | Qadın | 304 |
| | Kişi | 121 |
| **Yaş qrupları** | 17–20 | 295 |
| | 21–25 | 115 |
| | 26 və yuxarı | 15 |
| **Tədris ili** | I | 77 |
| | II | 229 |
| | III | 41 |
| | IV | 78 |

## 2.3. Data toplama aləti

Tədqiqatda məlumat toplama vasitəsi olaraq tədqiqatçı tərəfindən hazırlanmış sorğu anketindən istifadə olunmuşdur. Sorğunun hazırlanması zamanı sualların formalaşdırılmasında müəllim etikası ilə bağlı müxtəlif elmi ədəbiyyatlar, beynəlxalq etik prinsiplər, eyni zamanda Azərbaycan Respublikasında "Təhsilverənlərin Etik Davranış Qaydaları" sənədi əsas götürülmüşdür. Bu yanaşma sorğunun həm elmi əsaslara söykənməsini, həm də yerli kontekstdə aktual olmasını təmin etmişdir.

Anket-sorğu ümumilikdə 21 sualdan ibarətdir: ilk hissədə iştirakçıların demoqrafik məlumatlarını əldə etməyə yönəlmiş suallar, ikinci hissədə isə müəllimlərin etik davranışlarının tələbələr tərəfindən necə dəyərləndirildiyini ölçmək məqsədilə tərtib edilmiş 20 Likert tipli qapalı

sual və 1 açıq sual yer almışdır. Likert suallarında 5 ballıq şkaladan (1 – Tamamilə razı deyiləm ilə 5 – Tamamilə razıyam arasında dəyişən) istifadə edilmişdir. Anket Google Forms platforması üzərində hazırlanmış və iştirakçılara müxtəlif sosial platformaların vasitəsilə onlayn şəkildə təqdim edilmişdir. Məlumatların toplanması zamanı anonimlik və könüllülük prinsiplərinə ciddi şəkildə əməl olunmuşdur. Sorğuda müəllimlərin etik davranışlarını müxtəlif aspektlərdən qiymətləndirməyə imkan verən 20 qapalı sualda yer alan ifadələr aşağıdakılardır:

1. Müəllimlər ölkə qanunlarına əməl edirlər.
2. Müəllimlər təhsil müəssisəsinin qaydalarına riayət edirlər.
3. Müəllimlərin xarici görkəmi və geyimi peşəyə uyğundur.
4. Müəllimlər tələbələr arasında ayrı-seçkilik etmədən hər kəsə bərabər münasibət göstərirlər.
5. Müəllimlər tələbələrin şəxsiyyətinə hörmət edirlər.
6. Müəllimlər onların fəaliyyəti ilə bağlı iradlara və tənqidi fikirlərə hörmətlə yanaşırlar.
7. Müəllimlər tələbələrin suallarını nəzakətlə və təmkinlə cavablandırırlar.
8. Müəllimlər tələbələri ictimai şəkildə tənqid etmir və onları alçaltmırlar.
9. Müəllimlər tələbələrlə ünsiyyətdə ədəbi dilin normalarına riayət edirlər.
10. Müəllimlər dərsə gecikmir və vaxtdan səmərəli istifadə edirlər.
11. Müəllimlər tələbələrə nümunəvi davranış nümayiş etdirirlər.
12. Müəllimlər dərsdə şəxsi problemlərini tələbələrə əks etdirmirlər.
13. Müəllimlər dərs zamanı qeyri-etik zarafatlar və ya münasibətlərdən çəkinirlər.
14. Müəllimlər tələbələrdən hər hansısa bir mənfəət güdmürlər.
15. Müəllimlər tələbələrə fiziki zorakılıq göstərmirlər.
16. Müəllimlər tələbələrə psixoloji zorakılıq göstərmirlər.
17. Müəllimlər qiymətləndirmə zamanı obyektiv davranırlar.
18. Müəllimlər tələbələrə imtahan və qiymətləndirmə ilə bağlı rəy bildirmək imkanı yaradırlar.
19. Müəllimlər tələbələrin şəxsi məlumatlarını və akademik nəticələrini gizli saxlayırlar.
20. Təhsil müəssisəsində bir müəllimin qeyri-etik davranışı qeydə alındıqda tələbələrin hüququnu qoruyan və dəstək göstərən mexanizm mövcuddur.

Sonuncu açıq sual isə belədir:

21. Təhsil aldığınız müddətdə müəllimlərinizin etik davranışlarını necə qiymətləndirirsiniz? Hər hansısa bir qeyri-etik davranışla qarşılaşmısınızmı? Belə bir halla rastlaşmısınızsa, zəhmət olmasa, bunun nədən ibarət olduğunu qeyd edin.

### 2.4. Tədqiqat datalarının toplanılması, analizi və nəticələrin təhlili

Bu tədqiqatın məlumatları onlayn sorğu (Google Forms) linkinin müxtəlif sosial platformalarda tələbələr arasında paylaşılması vasitəsilə əldə olunmuşdur. Toplanmış məlumatların statistik təhlili zamanı IBM SPSS (Statistical Package for the Social Sciences) proqramından istifadə olunmuşdur.

SPSS proqramına daxil edilmiş məlumatların aşağıdakı statistik analizləri aparılmışdır:
- Cronbach’s Alpha ilə sorğunun etibarlılığı qiymətləndirilmişdir;
- T-test və ANOVA ilə cins və tədris ili faktorlarına görə fərqliliklər təhlil olunmuşdur;
- Pearson korrelyasiya və sadə regresiya analizi ilə dəyişənlər arasındakı əlaqə qiymətləndirilmişdir;
- T-test ilə sorğuda ən çox tələbəsi iştirak etmiş dövlət (BDU) və özəl (Xəzər universiteti) universitetlərin tələbələrinin cavabları əsasında müqayisəli təhlil aparılmışdır.

Əlavə olaraq, hər sual üzrə verilən cavabların say və faiz olaraq deskriptiv analiz nəticələri təqdim edilmişdir. Təhlillərin nəticələri vizual qrafik, şəkillər və cədvəllər vasitəsilə təqdim edilmişdir.

**Etibarlılıq testi:**

Rothman (2007) qeyd edir ki, etibarlılıq məlumatların eyni şəraitdə və eyni metodla təkrar toplandıqda oxşar nəticələr vermə qabiliyyətidir. Bu, məlumatların daxili sabitliyini və ölçmələrin ardıcıllığını təmin edən əsas göstəricilərdən biridir. Etibarlılıq sadəcə statistik bir ölçü deyil, eyni zamanda məlumatların elmi tədqiqat kontekstində nə dərəcədə istifadə oluna biləcəyini müəyyən edən keyfiyyət meyarıdır. Kodlaşdırma prosedurlarının sabitliyi və interpretasiya ardıcıllığı yüksək olduqda, etibarlılıq da artır və bu, tədqiqatın ümumi metodoloji keyfiyyətinə müsbət təsir göstərir.

Cronbach's Alpha ölçmə alətindəki maddələrin bir-biri ilə nə dərəcədə əlaqəli olduğunu və həmin alətin nə qədər sabit nəticələr verdiyini müəyyən edən statistik göstəricidir (Shodiya, O. A., & Adekunle, T. A., 2022). Bu əmsal 0 ilə 1 arasında dəyişir və dərəcəsinə görə aşağıdakı şəkildə şərh olunur (Cədvəl 2.4.4., https://www.statisticshowto.com/probability-and-statistics/statistics-definitions/cronbachs-alpha-spss/):

**Cədvəl 2.4.4. Cronbach's Alpha və etibarlılıq dərəcələri**

| Alpha dəyəri | Etibarlılıq səviyyəsi |
|---|---|
| $\alpha \geq 0.90$ | Mükəmməl (Excellent) |
| $0.80 \leq \alpha < 0.90$ | Çox yaxşı (Good) |
| $0.70 \leq \alpha < 0.80$ | Qənaətbəxş (Acceptable) |
| $0.60 \leq \alpha < 0.70$ | Şübhəli (Questionable) |
| $0.50 \leq \alpha < 0.60$ | Zəif (Poor) |
| $\alpha < 0.50$ | Qəbulolunmaz (Unacceptable) |

Bu tədqiqatda sorğunun etibarlılığını müəyyən etmək məqsədilə 20 qapalı sual üzrə Cronbach's Alpha əmsalı hesablanmış və nəticə $\alpha = 0.96$ olaraq müəyyən edilmişdir (Bax: Şəkil 2.4.1). Bu göstərici, tədqiqat alətinin yüksək daxili tutarlılığa malik olduğunu və sorğu maddələrinin eyni mövzunu ölçməkdə etibarlı nəticələr verdiyini göstərir.

**Scale: ALL VARIABLES**

**Case Processing Summary**

| | | N | % |
|---|---|---|---|
| Cases | Valid | 425 | 100.0 |
| | Excluded[a] | 0 | .0 |
| | Total | 425 | 100.0 |

a. Listwise deletion based on all variables in the procedure.

**Reliability Statistics**

| Cronbach's Alpha | N of Items |
|---|---|
| .960 | 20 |

**Şəkil 2.4.1. Tədqiqat üçün istifadə olunan anketin etibarlılıq analizi nəticələri**

**Deskriptiv analiz:**

Tədqiqat çərçivəsində toplanmış məlumatların ilkin emalı məqsədilə deskriptiv analiz aparılmış, respondentlərin cavabları faiz və say göstəriciləri əsasında ümumiləşdirilməsilə onların suallar üzrə müəllim davranışlarına dair baxışları təsvir edilmişdir. Analiz nəticələri cədvəl

şəklində təqdim olunmuş və hər bir suala iştirakçıların verdiyi cavablar beşbəndli Likert şkalası (1 - tamamilə razı deyiləm, 2 - razı deyiləm, 3 - nə razı, nə narazıyam, 4 - razıyam, 5 - tamamilə razıyam) üzrə say və faiz göstəriciləri ilə təqdim edilmişdir (Cədvəl 2.4.5).

**Cədvəl 2.4.5. Tələbələrin müəllim davranışları ilə bağlı fikirlərinin deskriptiv təhlili**

| № | Suallar | 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|---|---|
| 1 | Müəllimlər ölkə qanunlarına əməl edirlər. | 12 / 2.8% | 26 / 6.1% | 92 / 21.6% | 178 / 41.9% | 117 / 27.5% |
| 2 | Müəllimlər təhsil müəssisəsinin qaydalarına riayət edirlər. | 9 / 2.1% | 29 / 6.8% | 76 / 17.9% | 193 / 45.4% | 118 / 27.8% |
| 3 | Müəllimlərin xarici görkəmi və geyimi peşəyə uyğundur. | 9 / 2.1% | 15 / 3.5% | 54 / 12.7% | 182 / 42.8% | 165 / 38.8% |
| 4 | Müəllimlər tələbələr arasında ayrı-seçkilik etmədən hər kəsə bərabər münasibət göstərirlər. | 50 / 11.8% | 66 / 15.5% | 111 / 26.1% | 126 / 29.6% | 72 / 16.9% |
| 5 | Müəllimlər tələbələrin şəxsiyyətinə hörmət edirlər. | 20 / 4.7% | 34 / 8.0% | 98 / 23.1% | 168 / 39.5% | 105 / 24.7% |
| 6 | Müəllimlər onların fəaliyyəti ilə bağlı iradlara və tənqidi fikirlərə hörmətlə yanaşırlar. | 48 / 11.3% | 67 / 15.8% | 115 / 27.1% | 114 / 26.8% | 81 / 19.1% |
| 7 | Müəllimlər tələbələrin suallarını nəzakətlə və təmkinlə cavablandırırlar. | 13 / 3.1% | 12 / 2.8% | 98 / 23.1% | 191 / 44.9% | 111 / 26.1% |
| 8 | Müəllimlər tələbələri ictimai şəkildə tənqid etmir və onları alçaltmırlar. | 27 / 6.4% | 41 / 9.6% | 87 / 20.5% | 157 / 36.9% | 113 / 26.6% |
| 9 | Müəllimlər tələbələrlə ünsiyyətdə ədəbi dilin normalarına riayət edirlər. | 16 / 3.8% | 30 / 7.1% | 81 / 19.1% | 187 / 44.0% | 111 / 26.1% |
| 10 | Müəllimlər dərsə gecikmir və vaxtdan səmərəli istifadə edirlər. | 13 / 3.1% | 38 / 8.9% | 75 / 17.6% | 174 / 40.9% | 125 / 29.4% |
| 11 | Müəllimlər tələbələrə nümunəvi davranış nümayiş etdirirlər. | 14 / 3.3% | 31 / 7.3% | 100 / 23.5% | 169 / 39.8% | 111 / 26.1% |
| 12 | Müəllimlər dərsdə şəxsi problemlərini tələbələrə əks etdirmirlər. | 18 / 4.2% | 24 / 5.6% | 58 / 13.6% | 162 / 38.1% | 163 / 38.4% |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 13 | Müəllimlər dərs zamanı qeyri-etik zarafatlar və ya münasibətlərdən çəkinirlər. | 10 / 2.4% | 22 / 5.2% | 55 / 12.9% | 184 / 43.3% | 154 / 36.2% |
| 14 | Müəllimlər tələbələrdən hər hansısa bir mənfəət güdmürlər. | 21 / 4.9% | 16 / 3.8% | 67 / 15.8% | 146 / 34.4% | 175 / 41.2% |
| 15 | Müəllimlər tələbələrə fiziki zorakılıq göstərmirlər. | 7 / 1.6% | 8 / 1.9% | 19 / 4.5% | 132 / 31.1% | 259 / 60.9% |
| 16 | Müəllimlər tələbələrə psixoloji zorakılıq göstərmirlər. | 23 / 5.4% | 35 / 8.2% | 79 / 18.6% | 141 / 33.2% | 147 / 34.6% |
| 17 | Müəllimlər qiymətləndirmə zamanı obyektiv davranırlar. | 39 / 9.2% | 40 / 9.4% | 105 / 24.7% | 146 / 34.4% | 95 / 22.4% |
| 18 | Müəllimlər tələbələrə imtahan və qiymətləndirmə ilə bağlı rəy bildirmək imkanı yaradırlar. | 33 / 7.8% | 44 / 10.4% | 90 / 21.2% | 153 / 36.0% | 105 / 24.7% |
| 19 | Müəllimlər tələbələrin şəxsi məlumatlarını və akademik nəticələrini gizli saxlayırlar. | 17 / 4.0% | 27 / 6.4% | 75 / 17.6% | 171 / 40.2% | 135 / 31.8% |
| 20 | Təhsil müəssisəsində bir müəllimin qeyri-etik davranışı qeydə alındıqda tələbələrin hüququnu qoruyan və dəstək göstərən mexanizm mövcuddur. | 41 / 9.6% | 42 / 9.9% | 81 / 19.1% | 146 / 34.4% | 115 / 27.1% |

Göründüyü kimi tələbələrin əksəriyyətinin müəllimlərin etik davranışları ilə bağlı ümumən müsbət fikrə sahib olduqları müşahidə olunur. Tələbələrin çoxu müəllimlərin qanunlara riayət etdiyini, tələbələrlə münasibətdə nəzakətli və təmkinli olduqlarını, eləcə də psixoloji və fiziki zorakılıqdan uzaq olduqlarını bildirib. Bununla yanaşı, bəzi göstəricilərdə neytral və mənfi cavabların nisbətən yüksək olması müəyyən sahələrdə (məsələn, ayrı seçkilik, tənqidə münasibət və obyektiv qiymətləndirmə) inkişaf ehtiyacını ortaya qoyur. Bu nəticələr müəllim davranışlarının tələbə gözləntiləri fonunda qiymətləndirilməsi və təkmilləşdirilməsi baxımından əhəmiyyətlidir.

**One-way ANOVA testi:**

Birfaktorlu dispersiya analizi (One-Way ANOVA), üç və ya daha çox müstəqil qrupun ortalamalarını müqayisə etmək üçün istifadə olunan statistik üsuldur (Kim, T. K., 2017). ANOVA testi nəticələrinə əsasən tələbələrin cinsinə görə etik davranışlara verdikləri cavablar arasında

statistik əhəmiyyətli fərq müşahidə olunmamışdır (F(1) = 0.000, p = 0.997). Lakin tədris illəri arasında etik davranış ortalamalarında statistik əhəmiyyətli fərq müşahidə olunmuşdur (F(3) = 3.77, p = 0.011). Effekt ölçüsünü göstərən Eta-squared dəyəri 0.026 olmuşdur ki, bu da tədris ilinin etik ortalama üzərində zəif-orta təsirə malik olduğunu göstərir. Bu da onu göstərir ki, tələbələrin tədris ili səviyyəsi artdıqca müəllimlərin etik davranışlarına verdikləri qiymətləndirmələrdə dəyişiklik müşahidə oluna bilər (Bax Şəkil 2.4.2).

**Oneway**

[DataSet8]

**ANOVA**

Etik ortalama

| | Sum of Squares | df | Mean Square | F | Sig. |
|---|---|---|---|---|---|
| Between Groups | 7.264 | 3 | 2.421 | 3.769 | .011 |
| Within Groups | 270.485 | 421 | .642 | | |
| Total | 277.750 | 424 | | | |

**ANOVA Effect Sizes[a,b]**

| | | Point Estimate | 95% Confidence Interval | |
|---|---|---|---|---|
| | | | Lower | Upper |
| Etik ortalama | Eta-squared | .026 | .002 | .057 |
| | Epsilon-squared | .019 | -.006 | .051 |
| | Omega-squared Fixed-effect | .019 | -.006 | .051 |
| | Omega-squared Random-effect | .006 | -.002 | .017 |

a. Eta-squared and Epsilon-squared are estimated based on the fixed-effect model.

b. Negative but less biased estimates are retained, not rounded to zero.

**Şəkil 2.4.2. Etik ortalama üzrə ANOVA nəticələri (Tədris ili əsasında)**

**Pearson korrelyasiya testi**

Pearson analizi göstərmişdir ki, tələbələrin tədris ili ilə müəllimlərin etik davranışlarına verdikləri qiymətlər arasında zəif, lakin statistik əhəmiyyətli mənfi korrelyasiya mövcuddur (r = -0.135, p = 0.005). Bu nəticə göstərir ki, tədris ili artdıqca tələbələrin müəllim etik davranışlarını qiymətləndirmə səviyyəsi bir qədər azalır. Aşağıdakı qrafikdə (Qrafik 2.4.1) tədris ili ilə etik ortalama arasındakı əlaqə təsvir olunur.




**Qrafik 2.4.1. Tələbələrin tədris ili və etik ortalama arasındakı əlaqə**

Eyni zamanda, sadə lineer regresiya analizi aparılmış və nəticələrə əsasən tədris ili etik davranış ortalamasına statistik əhəmiyyətli təsir göstərmişdir (F(1, 423) = 7.85, p = 0.005). Tədris ili bir vahid artdıqda etik ortalama balın təxminən 0.113 vahid azaldığı müəyyən edilmişdir.

**T-test analizi:**

T-test, iki qrupun ortalamaları arasında statistik olaraq əhəmiyyətli fərq olub olmadığını müəyyən etmək üçün istifadə olunan parametrik test metodudur. İki növü var:

1) Müstəqil qruplar üçün t-testi (Independent t-test): İki müstəqil qrupun ortalamalarını müqayisə edir.

2) Cütləşdirilmiş t-testi (Paired t-test): Eyni subyektlərin iki fərqli vəziyyətdəki nəticələrini müqayisə edir (Kim, T. K., 2015).

Müstəqil nümunələr üzrə t-testi nəticələrinə əsasən cinsiyyətə görə etik ortalama balında statistik olaraq əhəmiyyətli fərq müşahidə olunmamışdır (t (423) = -0.004, p = .997). Ortalamalar

deməlk olar ki, eyni olmuşdur (Kişilər: M = 3.8054, SD = 0.79; Qadınlar: M = 3.8058, SD = 0.86). Effekt ölçüsü də çox kiçik olmuşdur (Cohen’s d = 0.000), bu da praktiki fərqin olmadığını göstərir.

**T-Test**

[DataSet11]

**Group Statistics**

| | uni_code | N | Mean | Std. Deviation | Std. Error Mean |
|---|---|---|---|---|---|
| Q1 | 1 | 161 | 3.85 | .995 | .078 |
| | 2 | 137 | 4.08 | .849 | .073 |
| Q2 | 1 | 161 | 3.86 | 1.040 | .082 |
| | 2 | 137 | 4.10 | .798 | .068 |
| Q3 | 1 | 161 | 4.19 | .787 | .062 |
| | 2 | 137 | 4.23 | .874 | .075 |
| Q4 | 1 | 161 | 3.25 | 1.226 | .097 |
| | 2 | 137 | 3.40 | 1.147 | .098 |
| Q5 | 1 | 161 | 3.60 | 1.108 | .087 |
| | 2 | 137 | 4.01 | .857 | .073 |
| Q6 | 1 | 161 | 3.24 | 1.279 | .101 |
| | 2 | 137 | 3.50 | 1.085 | .093 |
| Q7 | 1 | 161 | 3.89 | .972 | .077 |
| | 2 | 137 | 4.00 | .822 | .070 |
| Q8 | 1 | 161 | 3.58 | 1.170 | .092 |
| | 2 | 137 | 4.04 | .984 | .084 |
| Q9 | 1 | 161 | 3.82 | .961 | .076 |
| | 2 | 137 | 4.08 | .832 | .071 |
| Q10 | 1 | 161 | 4.01 | .929 | .073 |
| | 2 | 137 | 3.88 | 1.008 | .086 |
| Q11 | 1 | 161 | 3.80 | 1.048 | .083 |
| | 2 | 137 | 4.04 | .830 | .071 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Q12 | 1 | 161 | 4.07 | 1.001 | .079 |
| | 2 | 137 | 4.20 | .938 | .080 |
| Q13 | 1 | 161 | 3.94 | 1.014 | .080 |
| | 2 | 137 | 4.28 | .795 | .068 |
| Q14 | 1 | 161 | 3.91 | 1.120 | .088 |
| | 2 | 137 | 4.35 | .879 | .075 |
| Q15 | 1 | 161 | 4.43 | .789 | .062 |
| | 2 | 137 | 4.66 | .624 | .053 |
| Q16 | 1 | 161 | 3.82 | 1.161 | .092 |
| | 2 | 137 | 4.08 | 1.037 | .089 |
| Q17 | 1 | 161 | 3.44 | 1.182 | .093 |
| | 2 | 137 | 3.77 | 1.064 | .091 |
| Q18 | 1 | 161 | 3.60 | 1.242 | .098 |
| | 2 | 137 | 3.82 | .962 | .082 |
| Q19 | 1 | 161 | 4.03 | .876 | .069 |
| | 2 | 137 | 4.01 | 1.000 | .085 |
| Q20 | 1 | 161 | 3.58 | 1.273 | .100 |
| | 2 | 137 | 3.89 | 1.020 | .087 |

**Şəkil 2.4.3. Tələbələrin (BDU / Xəzər) cavabları əsasında Independent-Samples T-test analizi**

Sorğuda ən çox tələbəsi iştirak etmiş iki universitetə (BDU 161 nəfər, Xəzər universiteti 137 nəfər) əsasən qapalı suallara verilən cavabların müqayisəsi SPSS proqramında aparılan Independent-Samples T-Test vasitəsilə aparılmışdır (Bax: Şəkil 2.4.3). Nəticələrə görə bəzi suallarda BDU və Xəzər Universiteti tələbələrinin etik davranış meyarlarına yanaşmalarında statistik əhəmiyyətli fərqlər müşahidə olunmuşdur:

1. Müəllimlər ölkə qanunlarına əməl edirlər - T-test nəticəsinə əsasən bu meyar üzrə BDU (Mean = 3.85) və Xəzər Universiteti (Mean = 4.08) tələbələrinin qiymətləndirmələri arasında statistik əhəmiyyətli fərq mövcuddur (p = 0.017). Bu, Xəzər Universitetində tələbələrin müəllimlərin hüquqi çərçivəyə uyğun fəaliyyətinə daha yüksək etimad göstərdiyini göstərir.
2. Müəllimlər təhsil müəssisəsinin qaydalarına riayət edirlər - BDU və Xəzər Universiteti arasında bu meyar üzrə də əhəmiyyətli fərq müəyyən olunmuşdur (p = 0.014), burada da Xəzər tələbələri (Mean = 4.10) daha yüksək ortalama ilə cavab vermişlər.
3. Müəllimlərin xarici görkəmi və geyimi peşəyə uyğundur - Bu sualda statistik əhəmiyyətli fərq tapılmamışdır (p = 0.363). Hər iki universitetdə bu meyar yüksək

qiymətləndirilib (BDU: 4.19, Xəzər: 4.23), bu da müəllimlərin görkəmi ilə bağlı tələbələrin ümumilikdə razı olduğunu göstərir.

4. Müəllimlər tələbələr arasında ayrı-seçkilik etmədən hər kəsə bərabər münasibət göstərirlər - Bu meyar üzrə fərq statistik baxımdan əhəmiyyətli hesab olunmur ($p = 0.145$). Nəticə göstərir ki, tələbələr hər iki universitetdə bərabər münasibətin qorunduğunu düşünürlər.
5. Müəllimlər tələbələrin şəxsiyyətinə hörmət edirlər - Nəticələrə əsasən bu meyar üzrə əlamətdar statistik fərq mövcuddur ($p < 0.001$). Xəzər Universiteti tələbələri (Mean = 4.01) bu meyarı daha yüksək qiymətləndiriblər, bu da onların müəllimlərlə münasibətlərində daha müsbət təcrübəyə malik olduqlarını göstərə bilər.
6. Müəllimlər onların fəaliyyəti ilə bağlı iradlara və tənqidi fikirlərə hörmətlə yanaşırlar - Bu meyar üzrə statistik əhəmiyyətli fərq mövcud olsa da ($p = 0.030$), hər iki universitetdə ortalamaların (BDU: 3.24, Xəzər: 3.50) 3 civarında olması tələbələrin bu mövzuda ya tam əmin olmamalarını, ya da müəllimlərin tənqidə yanaşmasında qeyri-bərabərliklərin müşahidə edildiyini göstərir. Xəzər Universiteti tələbələrinin cavabları nisbi üstünlük təşkil etsə də, bu sahədə ümumi qeyri-müəyyənlik hiss olunur.
7. Müəllimlər tələbələrin suallarını nəzakətlə və təmkinlə cavablandırırlar - Bu suala görə statistik fərq müəyyən olunmayıb ($p = 0.159$). Bu isə tələbələrin hər iki universitetdə müəllimlərin ünsiyyət tərzindən əsasən razı olduqlarını göstərir.
8. Müəllimlər tələbələri ictimai şəkildə tənqid etmir və onları alçaltmırlar - Bu sual üzrə statistik cəhətdən əhəmiyyətli fərq müəyyən olunmuşdur ($p < 0.001$). Xəzər tələbələri bu davranışı daha nadir hal kimi qeyd etmiş və yüksək qiymətləndirmişlər.
9. Müəllimlər tələbələrlə ünsiyyətdə ədəbi dilin normalarına riayət edirlər - Əhəmiyyətli fərq müşahidə edilmişdir ($p = 0.007$), bu da Xəzər tələbələrinin müəllimlərin dil mədəniyyətinə daha müsbət yanaşdıqlarını göstərir.
10. Müəllimlər dərsə gecikmir və vaxtdan səmərəli istifadə edirlər - Bu sual üzrə statistik baxımdan əhəmiyyətli fərq qeydə alınmasa da ($p = 0.125$), ortalama dəyərlərə əsasən Bakı Dövlət Universitetində müəllimlərin dərsə vaxtında gəlməsi və dərs vaxtından səmərəli istifadə etməsi Xəzər Universiteti ilə müqayisədə daha yüksək qiymətləndirilmişdir (BDU: 4.01, Xəzər: 3.88). Bu BDU-da müəllimlərin vaxt nizam-intizamına daha çox əməl etdiyini göstərə bilər.

11. Müəllimlər tələbələrə nümunəvi davranış nümayiş etdirirlər - T-test nəticələrinə görə bu meyar üzrə statistik fərq mövcuddur ($p = 0.015$). Bu Xəzər Universitetində müəllimlərin tələbələrə davranış baxımından daha nümunəvi göründüyünü göstərir.
12. Müəllimlər dərsdə şəxsi problemlərini tələbələrə əks etdirmirlər - Bu suala görə statistik baxımdan əhəmiyyətli fərq tapılmamışdır ($p = 0.128$), həm BDU, həm də Xəzər tələbələrinin bu sahədə müsbət təcrübəyə malik olduqları görünür.
13. Müəllimlər dərs zamanı qeyri-etik zarafatlar və ya münasibətlərdən çəkinirlər - Burada fərq əhəmiyyətlidir ($p < 0.001$). Bu isə onu göstərir ki, Xəzər tələbələri dərs zamanı etik sərhədlərin daha yaxşı qorunduğunu düşünürlər.
14. Müəllimlər tələbələrdən hər hansısa bir mənfəət güdmürlər - Bu sual üzrə də statistik əhəmiyyətli fərq qeydə alınmışdır ($p < 0.001$). Xəzər Universitetində tələbələr bu davranışı daha az müşahidə etdiklərini qeyd ediblər.
15. Müəllimlər tələbələrə fiziki zorakılıq göstərmirlər - Müəllimlərin fiziki zorakılıq tətbiq etməməsi ilə bağlı tələbələrin fikirləri hər iki universitet üzrə yüksək ortalamalarla ifadə olunmuşdur (BDU: 4.43, Xəzər: 4.66). Bununla belə, Xəzər Universiteti tələbələrinin bu sahədə verdiyi qiymət statistik baxımdan daha yüksək olmuş və t-test nəticələrinə əsasən əhəmiyyətli fərq müəyyən olunmuşdur ($p = 0.004$). Bu isə göstərir ki, hər iki universitetdə fiziki zorakılıq halları demək olar ki, müşahidə edilmir və tələbələr özlərini bu baxımdan güvənli hiss edirlər.
16. Müəllimlər tələbələrə psixoloji zorakılıq göstərmirlər - Psixoloji zorakılıqla bağlı tələbə yanaşmaları hər iki universitetdə müsbət olsa da, Xəzər Universiteti tələbələrinin ortalama göstəricisi (Mean = 4.32) Bakı Dövlət Universitetinə (Mean = 4.06) nisbətən daha yüksək olmuşdur. Bu fərq statistik baxımdan əhəmiyyətlidir ($p = 0.022$). Nəticə göstərir ki, Xəzər Universitetində tələbələr müəllimlərin psixoloji cəhətdən daha həssas və etik davrandıqlarını düşünürlər.
17. Müəllimlər qiymətləndirmə zamanı obyektiv davranırlar - Bu meyar üzrə t-test nəticələrinə əsasən statistik əhəmiyyətli fərq mövcuddur ($p = 0.006$). Xəzər Universiteti tələbələrinin ortalama qiyməti (Mean = 4.32), Bakı Dövlət Universitetindən (Mean = 4.08) daha yüksək olmuşdur. Bu, tələbələrin obyektiv qiymətləndirmə ilə bağlı təcrübələrinin və gözləntilərinin universitetlər arasında fərqləndiyini göstərir.
18. Müəllimlər tələbələrə imtahan və qiymətləndirmə ilə bağlı rəy bildirmək imkanı yaradırlar - Nəticələrə əsasən, bu meyar üzrə də statistik baxımdan əhəmiyyətli fərq

müşahidə olunmuşdur (p = 0.040). Xəzər Universitetində tələbələr imtahan və qiymətləndirmə ilə bağlı rəy vermək imkanını daha əlçatan hesab etmişlər. Bu nəticə, müəllim-tələbə qarşılıqlı əlaqəsinin şəffaflığı baxımından Xəzər Universitetinin daha güclü praktikalara malik olduğunu göstərə bilər.

19. Müəllimlər tələbələrin şəxsi məlumatlarını və akademik nəticələrini gizli saxlayırlar - Bu meyar üzrə t-test nəticələrinə əsasən statistik baxımdan əhəmiyyətli fərq müəyyən edilməmişdir (p = 0.440), hər iki universitetdə ortalama dəyərlər yüksək olmuşdur (BDU: 4.12, Xəzər: 4.20). Bu nəticə göstərir ki, tələbələr müəllimlərin şəxsi və akademik məlumatların məxfiliyinə hörmət etdiklərini düşünürlər.
20. Təhsil müəssisəsində bir müəllimin qeyri-etik davranışı qeydə alındıqda, tələbələrin hüququnu qoruyan və dəstək göstərən mexanizm mövcuddur - Nəticələr göstərir ki, bu meyar üzrə statistik əhəmiyyətli fərq mövcuddur (p = 0.011). Xəzər Universitetində tələbələr qeyri-etik hallarla qarşılaşdıqda hüquqlarını qoruyan struktur və mexanizmlərin mövcudluğunu daha çox hiss etdiklərini ifadə etmişlər. Bu isə həmin ali təhsil müəssisəsində etik idarəetmə və şikayət mexanizmlərinin daha sistemli tətbiq olunduğuna işarə edə bilər.

### 2.5. Tədqiqat alətinin açıq sualına verilmiş cavabların tematik analizi və nəticələrin təhlili

Tədqiqat çərçivəsində toplanmış məlumatların bir hissəsi sonuncu yer alan açıq sual vasitəsilə əldə olunmuşdur: *Təhsil aldığınız müddətdə müəllimlərinizin etik davranışlarını necə qiymətləndirirsiniz? Hər hansısa bir qeyri-etik davranışla qarşılaşmısınızmı? Belə bir halla rastlaşmısınızsa, zəhmət olmasa, bunun nədən ibarət olduğunu qeyd edin.* Bu sual vasitəsilə tələbələrə müəllimlərin etik davranışları ilə bağlı şəxsi fikir və müşahidələrini sərbəst şəkildə ifadə etmək imkanı verilmişdir. Açıq sualda qeyri-etik davranışa məruz qaldığını və ya müşahidə etdiyini qeyd etmiş tələbələrin ifadələri bir yerə toplanmış və təhlil edilmişdir. Burada Xəzər, BDU, BMU, ADU, ADPU, ATU, ADA, GDU, LDU, Qarabağ Universiteti, ADNSU, AU, Azərbaycan Texnologiya Universiteti, UNEC və DİA tələbələri öz təcrübələrini bölüşmüşlər. 82 tələbənin verdiyi cavablar əsasında əldə edilmiş məlumatlar keyfiyyət metodologiyasına uyğun olaraq tematik analiz üsulu ilə işlənmişdir. Tematik analizin aparılması məqsədilə açıq suala verilən cavablar diqqətlə oxunulmuş, ilkin tanışlıqdan sonra yenidən oxunulması vasitəsilə iştirakçıların cavablarında təkrar olunan fikir və düşüncələr müəyyən edilmiş, bunlar ümumi mənaya malik temalar halında sistemləşdirilmişdir. Nəticələrin daha aydın və təsirli şəkildə təqdim edilməsi

məqsədilə bəzi iştirakçıların cavablarından sitatlar nümunə gətirilmişdir ki, bu yanaşma tələbə baxışlarını daha dərindən anlamağa kömək edir. Əsas məsələyə keçməzdən əvvəl qeyd etmək lazımdır ki, 82 tələbədən əlavə 8 nəfər qeyri-etik davranışla rastlaşdığını bildirsə də, bunun nədən ibarət olduğunu paylaşmayıb və ya cavab vermək istəmədiyini qeyd edib. Bəzi tələbələr məktəb illərində baş verən qeyri-etik rəftarlardan, digərləri isə (əsasən magistratura təhsili alanlar) əvvəl təhsil almış olduqları ali təhsil müəssisələrində qarşılaşdıqları etik olmayan müəllim davranışlarından da bəhs etmişlər. Bu isə onu deməyə əsas verir ki, təhsilin istənilən pilləsində müəllimlərin davranışları təhsilalanlarda ömürboyu iz qoya biləcək təsirə malikdir. 82 tələbədən 35 nəfər psixoloji təsirə məruz qaldığını qeyd etmiş, 26 nəfər qeyri-etik dildən istifadə olunması, 23 nəfər ayrı-seçkilik və alçaldılma barədə şikayətlərini dilə gətirmiş, 16 nəfər verdikləri cavablarda müəllimlərin qeyri-obyektiv qiymətləndirmə aparmaları barədə narazılıqlarını ifadə etmişlər. 13 nəfər müəllimlərin dərsə etinasızlıq nümayiş etdirdiyini, 6 nəfər düşüncə və dəyərlərə, 5 nəfər isə qeyri-etik fiziki təsir göstərdiyini qeyd etmişdir. Bu nəticələr tələbələrin ali təhsil mühitində müxtəlif növ mənfi hallarla qarşılaşdıqlarını və xüsusilə psixoloji təsir ilə qeyri-etik ünsiyyətin daha geniş yayıldığını göstərir. Açıq suala verilən cavablarda ən çox təkrarlanan qeyri-etik davranış kodları aşağıdakı temalar halında qruplaşdırılıb:

1. Psixoloji təsir - tələbəni ruhdan salmaq, tələbənin ağladılması, hədə-qorxu ilə danışılması, motivasiyanın azaldılması, tələbəyə gözünü zilləyib baxmaq, özünümüdafiəyə izn verilməməsi, tələbənin universitetdən soyumasına səbəb olan psixoloji şiddət, tələbənin rahat sual verə bilməməsi, geyimə görə narahatlıq, kişi müəllimin qadın tələbəni mesaj yazaraq narahat etməsi, anlayışsızlıq, müəllimin tənqidi və səhvini qəbul etməməsi.
2. Qeyri-etik dildən istifadə - a) qeyri-etik zarafat və ifadələr - etik olmayan zarafatlar, nalayiq ifadələrin işlənməsi, təhqir, kinayəli sözlər, kobud ifadələrdən istifadə, tələbənin hicabı ilə bağlı qeyri-etik danışılması; b) təhdid və qorxutma - hədə-qorxu ilə danışmaq, qiymətlə təhdid, işsizliklə təhdid, çətin tapşırıq ilə təhdid.
3. Ayrı-seçkilik - cinsi ayrı-seçkilik, hədiyyələrə görə ayrı-seçkilik, xarici görkəmə görə ayrı-seçkilik, irqi ayrı-seçkilik, maddi imkana görə ayrı-seçkilik, statusa görə ayrı-seçkilik, hicaba söz atılması .
4. Alçaldılma - tələbəni yığdığı bala görə alçaltmaq, tələbənin şəxsiyyətinə hörmət edilməməsi, təhqir, qeyri-etik cəzalandırma, xarici görünüşü ələ salmaq, tələbənin

hicabına söz atılması, fənni zəif bildiyi üçün alçaltmaq, tələbənin bildirdiyi fikrə görə alçaldılması.

5. Qeyri-obyektiv qiymətləndirmə - keçilməyən dərslərin imtahanda tələb olunması, təhsil müəssisəsinin qaydalarına yox, öz qaydalarına əsasən qiymətləndirmək, sosial aktiv olan tələbələrə daha artıq qiymətin yazılması, oxuyan ilə oxumayana eyni qiymətin yazılması, sinif nümayəndəsinə artıq qiymətin verilməsi, prinsip aparılması, konspektə nəzər yetirdikdə balın kəsilməsi, sağlamlıq problemi ilə bağlı arayış olmasına baxmayaraq qayıbların silinməməsinə görə tələbənin nəticələrinin aşağı düşməsi.
6. Dərsə etinasızlıq - dərsi tez-tez ləğv etmək, dərs vaxtı telefondan istifadə, dərsə gecikmək, müəllimin tələbəni dinləməməsi, şəxsi məsələlərin dərsdə müzakirəsi, müəllimin övladına partnyor axtarması, müəllimin maaş azlığından şikayətlənib dərs izah etməməsi, tədris dilinə riayət edilməməsi, müəllimin slaydı üzündən oxumaqla dərs keçməsi.
7. Düşüncə və dəyərlərə təsir - şəxsi ideologiyanın aşılanması, qadın təhsili ilə bağlı yanlış fikirlər, dini-mənəvi inancların tənqid edilməsi.
8. Fiziki təsir - siqaret çəkilməsi, dəhlizə tüpürülməsi, kişi müəllimlərin qadın tələbələrə qeyri-etik fiziki təması, tələbənin xarici görünüşünə müdaxilə, qeyri-etik cəzalandırma.

Bütün bunlardan başqa tələbələrin bir qismi yaşlı müəllimlər, bir qismi isə kişi müəllimlərin qadın tələbələrə qarşı qeyri-etik davranışları ilə bağlı şikayətlərini bildirsələr də, onları narahat edən davranışların psixoloji, yoxsa fiziki təsir xarakteri daşıdığı açıq şəkildə ifadə edilmədiyi üçün həmin məsələlərin tematik kodlaşdırılmasını həyata keçirmək mümkün olmamışdır.

Bəzi tələbələrin cavablarını (və ya seçilmiş hissələri) olduğu kimi təqdim etmək vəziyyəti təsvir etmək üçün əhəmiyyətli hesab olunur:

5-ci qadın iştirakçı ADU magistr - *"Mənim başıma gəlməyib, lakin psixologiya müəllimimiz bəzi tələbələri dəfələrlə ağladıb. Başqa bir müəllimimiz tələbənin xarici görünüşünü ələ salmışdı. Müəllimlərimizin bəziləri rus dilində ifadələr işlədir baxmayaraq ki, biz rus sektoru deyilik".* Göründüyü kimi bu hadisələrdən bəziləri birbaşa iştirakçı ilə bağlı olmasa da, bir neçə məsələni özündə birləşdirən zəngin müşahidənin nəticələridir. Müəllimin tələbəyə mənfi psixoloji təsiri nəticəsində tələbələrin ağlaması qeyd olunub və belə bir davranışın psixologiya fənnini tədris edən müəllim tərəfindən nümayiş etdirilməsi vəziyyətin ironik xarakter daşıdığını göstərir. Burada tələbənin xarici görünüşünü ələ salmaqla qeyri-etik dildən istifadə ilə yanaşı tələbənin alçaldılması

müşahidə olunur, bəzi müəllimlərin rus dilində ifadələr işlətməsi isə dərsə etinasız yanaşmalarının göstəricisi kimi qiymətləndirilə bilər.

11-ci qadın iştirakçı GDU bakalavr - *"Bəli, bir neçə müəllimimiz əlavə hədiyyələrə görə tələbələrə fərq qoyurdular..."*. Bu ifadə "hədiyyələrə görə ayrı-seçkilik" kodu altında təsnif edilmişdir və təhsil prosesində bərabərlik, habelə ədalət prinsiplərinin pozulduğunu göstərən bir halı təsvir edir.

19-cu qadın iştirakçı AU bakalavr - *"Maaşlarının az olmasını səbəb göstərərək dərsləri yola verirlər"*. Bu ifadədən aydındır ki, müəllim maaş azlığını bəhanə edərək dərsə etinasız yanaşır və bu hal təhsil keyfiyyətinə mənfi təsir edən amillərdən biri kimi qiymətləndirilə bilər. Qeyd etmək lazımdır ki, başqa bir iştirakçı da bu fikri dəstəkləyən cavab bildirmişdir:

*"Bəzən müəllim az maaş aldığından şikayətlənir. Və buna görə də heç vaxt özünü əziyyətə salıb dərs izah etmir"* (86-cı qadın iştirakçı Xəzər magistr). Bu paralel ifadələrə əsaslanaraq demək olar ki, müəllimlərin maaş barədə şikayətlənməsinin özü də qeyri-etik hal kimi dəyərləndirilə bilər.

35-ci qadın iştirakçı BDU bakalavr - *"Universitetin həyatində skamyada oturmuşdum digər skamyada başqa bir qız oturmuşdu yaşlı qoca bir kişi müəllim sanki başqa yer yox imiş kimi düz qızın dibində siqaret çəkdi, əlbəttə qız narahat oldu qalxıb mənim yanımda oturdu, bu heç etik davranış deyildi. Mən bunu müşahidə edəndə sadəcə diksindim"*. Tələbənin müşahidə etdiyi bu hadisəyə əsasən demək olar ki, müəllimin qeyri-etik hərəkətinə görə fiziki narahatlıq hiss edən başqa bir tələbənin vəziyyəti iştirakçıya psixoloji mənfi təsir göstərib. Göründüyü kimi müəllimlərin qeyri-etik davranması universitet mühitində tələbələrin özlərini rahat və təhlükəsiz hiss etməsinə də mane olur. Bu fikirləri dəstəkləyən digər iştirakçıların cavablarına diqqət yetirək:

*"Bəzi müəllimlər koridorda siqaret çəkir və tüpürür"* (300-cü kişi iştirakçı BDU bakalavr).

*"Tələbəyə təmas edən müəllimlər var hansı ki, tələbənin əlinə toxunur, bilərəkdən dərsdə gəlib yanında oturur, saçına toxunur, bu çox narahat edicidir"* (395-ci qadın iştirakçı BDU bakalavr).

Bəzi tələbələr isə fiziki olmasa da, mənfi psixoloji təsirə məruz qaldıqlarını, həmçinin onların düşüncə və dəyərlərinə hörmət edilməməsinə dair öz təcrübələrini paylaşmışlar:

*"Belə bir hal sadəcə 1-ci kursda yaşanıb tarix müəllimimiz fiziki olmasa da, psixoloji bir çox təsiri olub bizə, hansı ki, bizim dini, mənəvi və s inanclarımıza tənqidi yanaşıb, özümüzü müdafiəyə imkan vermirdi"* (96-cı qadın iştirakçı BDU bakalavr).

*"Qeyri-etik davranış dedikdə çox da ciddi bir şeylə qarşılaşmamışam. Amma ideologiya olaraq müəllim çox yanlış olan düşüncə tərzini dərsin prosesində uşaqlara danışıb bunu onlara aşılamaq istəyirsə, bu artıq qeyri-etik davranışdır mənə görə"* (38-ci qadın iştirakçı UNEC bakalavr).

*"Qarşılaşmışam bir nəfərin hicabıyla bağlı bir müəllim qeyri-etik danışmışdı, bir də mənim dindarlığım haqda bir müəllim qeyri-etik davranırdı, bilmədiyi şeylər haqda danışıb insanların başını qarışdırırdı din haqda"* (412-ci kişi iştirakçı BDU bakalavr). Bu iştirakçı ali təhsil mühitində dini inanclarla bağlı hörmətsizlik və diskriminasiyanın yaşandığını vurğulayır. Hicab taxan bir tələbəyə qarşı qeyri-etik münasibət və özünün dindarlığına qarşı təzyiq müəllimlərin bəzi hallarda tələbələrin şəxsi inanc sistemlərinə hörmətlə yanaşmadığını ortaya qoyur. İştirakçı, eyni zamanda müəllimin din haqqında yanlış məlumat verməsini və bunun tələbələr üzərində mənfi təsirinin olmasını iddia edir ki, bu da ali təhsil mühitində dini mövzuların necə təqdim olunduğuna dair ciddi suallar doğurur.

41-ci qadın iştirakçı UNEC bakalavr - *"Beynəlxalq ticarət hüququ fənnini tədris edən müəllim qızların uzun dırnaqlarına qarışıb, zarafat adı ilə alçaltmışdı. Dırnaqlarını kəsməsə, aşağı bal yazacağını demişdi. Nəzərinizə çatdırım ki, həmin bu müəllim hüquqçudur"*. İştirakçının təsvir etdiyi bu hadisə qeyri-etik dildən istifadə, qeyri-obyektiv qiymətləndirmə, psixoloji təsir, tələbənin alçaldılması kimi temaların hər birinə uyğun gəlir. Xüsusilə hüquq sahəsində işləyən bir müəllimin tələbələrin hüquqlarına hörmətsizlik nümayiş etdirməsi ciddi qeyri-etik və qeyri-qanuni hərəkət kimi qiymətləndirilə bilər.

43-cü kişi iştirakçı UNEC magistr - *"Hal-hazırki universitetlə bağlı qeyri-etik davranış görməmişəm. Təbii ki öz qrupum üçün deyirəm bu halı. Digər tərəfdən dərsə gecikmələr bəzi müəllimlərdə olub və hələ də mövcuddur. Bilik qiymətləndirmə çox zaman ikinci plana atılıb və sosial aktiv olan tələbələrə daha yaxşı qiymət yazılır, bilməsələr belə. Bitirdiyim ilk universitet isə daha bərbad vəziyyətdədir. Müəllimlər yaşları gərəyi tələbəni alçatmaq və kinayəli zarafatlar edib qrupca kimisə gülüş mənbəyi etməyi özlərinə haqq bilirlər... Edilən hər tənqiddə şantaja baş vurub "Səni bu fəndən kəsim sən də bax", ya da "gələn semester də dərsim var sizə, süründürəcəm" kimi ifadələr işlədilir. Bu bir kənara, magistr qəbulu zamanı bir çox tələbə universitet dəyişdiyindən*

*kafedranın rəhbər müəllimi tələbələri işsiz buraxmaqla təhdid edirdi... Qeyd: Son yazılanlar ADNSU üçündür".* İştirakçının ifadələri göstərir ki, əvvəlki universitet təcrübəsi ilə müqayisədə hal-hazırda təhsil aldığı universitetdə ciddi qeyri-etik hallarla qarşılaşmasa da, dərsə gecikmə (dərsə etinasızlıq), ayrı-seçkilik və qeyri-obyektiv qiymətləndirmə ilə bağlı narazılıqları mövcuddur. Tələbənin əvvəl təhsil aldığı müəssisədə qarşılaşdığı problemlər tələbənin alçaldılması, ədalətsiz qiymətləndirmə, qeyri-etik dildən istifadə, psixoloji təzyiq, tənqidi qəbul edə bilməmək kimi məsələləri əhatə edir. Müəllimlərin səhvini qəbul edə bilməməsi, tənqidə açıq olmaması və edilən iradlara qarşı qeyri-etik dildən istifadə etməsi ilə bağlı daha bir neçə iştirakçının cavablarına nəzər yetirək:

*"Bizim bir çox müəllimimiz bütün etik normalar daxilindədir, ancaq bəziləri öz qəribə davranışlarını büruzə verir. Nəyisə səhv bilirsə qəbul etmir, səhvini deyəndə həmin tələbəyə düşmən olurlar və.s."* (122-ci qadın iştirakçı ATU bakalavr).

*"Həddindən artıq aqressiv olan bir müəllimə var idi. Dərs zamanı fikrimizi bildirmək istədikdə bizə tərs cavab verirdi və bəzən alçaldırdı"* (152-ci qadın iştirakçı Xəzər bakalavr).

*"Bəzi müəllimlər dərs zamanı sanki tələbələrin sadəcə bir fənni varmış kimi davranması və hər hansı bir tənqidə, fikrə dözə bilməməsi tələbə ilə müəllim arasında bəzən problemlərə səbəb olur. Eyni zamanda bəzi müəllimlərin tələbələri qiymətləndirmə forması ədalətsizcə olur və ayrı seçkilik edilir"* (218-ci qadın iştirakçı Xəzər bakalavr).

*"Müəllimlərin bir çoxu etik davranırdı. Lakin bəziləri verdikləri tapşırıqlardan şikayət etdiyimiz zaman, bizi hədələyirdi və deyirdi ki, elə bir tapşırıq verərəm ki, heç vaxt onu edə bilməzsiniz. Bununla da bizi qorxutmaq istəyirdi. Bu isə tələbəyə qeyri-etik bir yanaşmadır"* (278-ci qadın iştirakçı Xəzər bakalavr).

*"Müəllimim mənim onun sinifdaxili tətbiq etdiyi qaydalara bildirdiyim irada görə mənə "sən onsuz da bizə lazım deyilsən, səni qulağından tutub pəncərədən bayıra atacağam, ya da dur çıx çölə" demişdi. Sonra mən qarşılıq vermədim və o da dərsinə davam etdi. Başqa bir hal isə bir müəllimin əfqan tələbəyə münasibəti idi. Bilərəkdən etmirdi, amma tələbəyə dərs müddətində "Afganistan, do you understand" və ya "our Afgan guest, do you understand what I said" kimi ayrı-seçilik* təşkil edən cümlələr işlədirdi" (425-ci kişi iştirakçı Xəzər bakalavr). İştirakçının yazdıqlarından bəlli olur ki, tələbənin müəllimə irad bildirdiyinə görə sərt və alçaldıcı ifadələrlə qarşılaşması, fiziki zorakılıqla hədələnməsi tədris mühitində təhlükəsizliyi pozan davranış

nümunəsidir. Bu cür davranışlar tələbələrə psixoloji təsir edərək onlarda qorxu, narahatlıq və öz fikirlərini ifadə etməkdən çəkinmə hissi yarada bilər. Digər müəllimin əfqan tələbəyə qarşı işlətdiyi ifadələr milli, etnik mənsubiyyətə görə diskriminasiya ehtiva edir və belə yanaşmalar müxtəlifliyə hörmətsizlik kimi qəbul edilərək əcnəbi tələbənin özünü yad hiss etməsinə səbəb ola bilər.

80-ci qadın iştirakçı ADPU bakalavr - *"...Biz bir az yaxşı danışmayan kimi başlayırdı: "Necə müəllim olacaqsınız? Gələcəyimizin gününə bax, mən nə sizin yanınıza uşaq qoyaram, nə də kiməsə qoyduraram. Elə bilirsiniz ki, buranı qurtaran kimi sizi işə alacaqlar? Gözləyin eee əlinizdə diplomla çöldə qalacaqsınız, çünki sizdə savad yoxdur"... Yəni demək istədiyim bir çox müəllimlər ancaq motivasiya salmaqla, psixoloji olaraq insanı düşürməklə məşğuldular. Eyni müəllim dərsində mən dərs danışanda gözünü məndən ayırmırdı, ona rəğmən ancaq çaşanda öz yazdığım konspektə baxırdım. Mənə 6 və ya 7 verirdi. Amma starosta tam şəkildə üzündən* oxuyurdu, *ona həmişə 10 verirdi. Bir də belə ədalətsizliklər var. Bir az çox oldu üzrlü sayın".* İştirakçılar arasında açıq suala həcmcə ən geniş (1 səhifə yarım) cavab yazan iştirakçının ifadələrindən aydın olur ki, tələbə müəllimin qeyri-etik dildən istifadə etməsilə psixoloji təsirə məruz qalmış, ayrı-seçkilik və qeyri-obyektiv qiymətləndirmə ilə üzləşmişdir. Tələbənin geniş və detallı cavabı göstərir ki, peşə gələcəyinə dair ümidsizlik aşılanması tələbələrin motivasiyasını zəiflədə, ümumilikdə təhsilə münasibətinə mənfi təsir göstərə bilər. Başqa iştirakçıların ifadələri də müəllimin ünsiyyət zamanı istifadə etdiyi dilin tələbənin gələcəyinə, habelə dərsə olan münasibətinə təsir edə biləcəyini bir daha təsdiqləyir:

*"Bəli, bəzən elə müəllimlər olur ki, qurduğu cümlələr vasitəsilə bir tələbənin gələcəyinə mənfi təsir göstərib onu ruhdan salmağı bacarır. Ən çox rast gəlinən situasiyalar isə qiymətləndirmə sistemində baş verən haqsızlıqlar və qeyri-ixtisas fənn müəllimlərinin tələbələrə sərt davranıb qiymətlərini kəsməsi olur"* (66-cı qadın iştirakçı LDU magistr).

*"Digər müəllimlərim tamamilə mükəmməldir. Ancaq ixtisas müəllimim istər danışıq, istər psixoloji cəhətdən çox üstümüzdə basqı qurur. Hətta onun dərsində ağladıqları uşaqlar içərisində mən də varam. Həm dərsə olan həvəsim və bütün motivasiyam ölüb onun sayəsində"* (282-ci qadın iştirakçı Qarabağ bakalavr).

67-ci qadın iştirakçı BDU bakalavr: *"... Qızlar arxada dərsdə gülmüşdülər deyə onları lövhəyə çağırıb danlamışdı (sadəcə gülməyə görə) və qız uşağı belə gülməz, qızın səsi çıxmaz və s. kimi ifadələr səsləndirirdi... Dərslərdə qadınların oxumağının sadəcə ailəsi üçün olduğunu, ən yaxşı qadın peşəsinin müəllim olub, qadınların uşaqları üçün oxumalı olduqlarından danışırdı. Və*

*qadın alim yoxdur deyirdi. Hətta bir dəfə demişdi indi oxuyun ki "ərə gedəndə" yoldaşınız yemək istəyəndə bişirə biləsiniz, daha pisləri var amma B. dərs keçdiyi bütün qruplardakı qızları nəvəm yaşındasınız deyib, saçından, alnından öpürdü, əllərini tutmağa çalışırdı. Bir çox qız narahat olduğunu lakin "nəvəm yaşımdasınız" dediyinə görə ... harasa bildirməkdə çəkinirdilər. Bir dəfə S. m , oğlanlar o, sinifə gələndə ayağa qalxmamışdı deyə hamımızı ayaqda saxlayıb monoloq danışmışdı... Həmin tələbələri danlamışdı bütün dərs. Bəzi müəllimlər var idi bizdə mühazirə pdf çap edilmiş olsa da, dərsdə "səs salmayaq" deyə pdfdən çap olunmuş vərəqdən, dəftərimizə köçürtdürürdü".* Daha çox yaşlı kişi müəllimlərdən dərs alan bu tələbə yazdığı ifadənin əvvəlində bir müəllimin dərsdə tez-tez qızlar və oğlanlar barədə qeyri-etik məsəldən istifadə etməsini qeyd edib. Bu ifadələrdən aydın şəkildə görünür ki, bəzi müəllimlərin cinsi ayrı-seçkilik etməsi, tələbələri haqsız şəkildə cəzalandırması, qadınlar haqqında yanlış stereotipləri, həmçinin qadın təhsili ilə bağlı çox yanlış düşüncələri aşılamağa çalışması, qadın tələbələrə qeyri-etik fiziki təmas nümayiş etdirməsi, tələbələrin alçaldılması və bütün bunların psixoloji rifaha mənfi təsir etməsi çox ciddi etik problemlərin mövcudluğunu göstərir. Ali təhsil mühitində qadın təhsili ilə bağlı yanlış fikirlərin təbliği qəbuledilməz haldır. Təəssüf ki, bu barədə ciddi problemlərin mövcud olmasını digər iştirakçıların cavablarında da görmək mümkündür:

*"Qızlara niyə magistr oxuyursunuz, oğlanlar əsgərliyə görə oxuyur bəs siz? Bizə yuxarıdan baxır IT sahəsində oxusaq da, bizə kompüter işlədə bilirsizmi deyib cahil müamelesi edirdi. Qadın müəllimlərdən biri dərs zamanı indiki qızlar adamın qarşısına çay belə qoymur deyirdi"* (76-cı qadın iştirakçı UNEC magistr).

*"... Qızlara demək olar ki, hər səfərində "tez evlənin, qalanı boş şeydir" kimi cümlələr qururlar"* (79-cu qadın iştirakçı UNEC bakalavr).

Baxmayaraq ki, tələbələrin əksəriyyəti müəllimlərin etik davranışlarından məmnundurlar, qeyri-etik halların mövcudluğu da müşahidə olunur ki, bütün bunlar ali təhsil müəssisələrində etik davranış kodeksinin gücləndirilməsinə və müəllimlərin bu sahədə mütəmadi təlimatlandırılmasına ehtiyac olduğunu ortaya qoyur. Eyni zamanda, tələbələrin hüquqlarını qorumaq məqsədilə daha təsirli nəzarət mexanizmlərinin yaradılması və bu kimi xoşagəlməz halların ciddi araşdırılaraq qarşısının alınması zəruridir.

Cədvəl 2.5.6-da göstərilən nəticələr iştirakçıların açıq suala verdikləri cavabların tematik kodlaşdırılması əsasında hazırlanmışdır. Bəzi iştirakçılar bir neçə tema ilə əlaqədar eyni anda narazılıqlıqlarını ifadə etmişlər. Təhlil nəticəsində ən çox iştirakçısı olan iki universitet - BDU və

Xəzər Universiteti arasında narazılıq temaları müqayisə edilmişdir. Aparılan tematik təhlil nəticələri göstərir ki, tələbələr bir sıra oxşar təcrübələrlə qarşılaşmışlar, hər iki universitetdə psixoloji təsir, qeyri-etik dil istifadəsi, ayrı-seçkilik, alçaltma, dərsə etinasızlıq və qeyri-obyektiv qiymətləndirmə halları müşahidə olunmuşdur. Akademik və psixoloji rifahı təhlükəyə atan ciddi problemlərin mövcudluğu təhsilin keyfiyyətinə birbaşa mənfi təsir göstərir. BDU tələbələrinin ifadələrində yaşlı müəllim davranışlarına qarşı narazılığın çox vurğulanması isə təhsil prosesində yenilənmə ehtiyacını göstərə bilər.

**Cədvəl 2.5.6. BDU və Xəzər Universiteti tələbələrinin ifadələri üzrə narazılıq temaları**

| Tema | BDU (n=27) | Xəzər (n=19) |
|---|---|---|
| Psixoloji təsir | 9 | 8 |
| Qeyri-etik dildən istifadə | 8 | 4 |
| Ayrı-seçkilik | 8 | 6 |
| Alçaldılma | 7 | 5 |
| Qeyri-obyektiv qiymətləndirmə | 6 | 3 |
| Dərsə etinasızlıq | 4 | 3 |
| Düşüncə və dəyərlərə təsir | 3 | 0 |
| Fiziki təsir | 4 | 0 |

# NƏTİCƏ

Təqdim edilən dissertasiya işində etik davranışların nəzəri əsasları, həmçinin müəllimlik peşə etikasının əhəmiyyəti və prinsipləri ətraflı şəkildə araşdırılmış, qeyri-etik davranışlar və onların mümkün səbəbləri müzakirə edilmiş, müəllim davranışlarının ölkəmizdə və dünya təcrübəsində hüquqi tənzimlənməsi tədqiq edilərək təhlil edilmişdir. Tədqiqatın məqsədi ali təhsil mühitində fəaliyyət göstərən müəllimlərin etik davranışlarını tələbələrin baxış bucağından dəyərləndirməkdir. Tədqiqat zamanı aparılan anket-sorğuda 26 müxtəlif universitetdə təhsil alan, könüllü şəkildə iştirak edən 425 tələbənin qiymətləndirmələri və ifadələri əsasında qarşıya qoyulmuş tədqiqat suallarına cavablar tapılmışdır. Əldə edilən nəticələr tədqiqatın məqsəd və vəzifələrinə nail olmasını təmin etmişdir. Tədqiqatın nəticələri aşağıdakılardan ibarətdir:

1. Aparılan tədqiqatın nəticələri göstərdi ki, ali təhsil müəssisələrində fəaliyyət göstərən müəllimlərin etik davranışları tələbələrin əsasən gözləntilərinə cavab versə də, onları narahat edən ciddi qeyri-etik hallar da mövcuddur.
2. One-way Anova və T-test analizlərinin nəticələrinə görə cins faktoru tələbələrin etik davranışlara verdikləri cavablarda statistik olaraq əhəmiyyətli fərq yaratmamışdır.
3. One-way Anova testin digər bir analiz nəticəsinə əsasən, tələbələrin tədris illərinə görə etik davranış ortalamalarında statistik olaraq əhəmiyyətli fərq müəyyən edilmişdir ($F(3) = 3.77$, $p = 0.011$). Effekt ölçüsünü göstərən Eta-squared dəyərinin 0.026 olması tədris ilinin etik davranış ortalamalarına zəif-orta təsir gücünə malik olduğunu göstərir. Pearson korrelyasiya analizi nəticəsində müəyyən edilmişdir ki, tələbələrin oxuduqları tədris ili ilə müəllimlərin etik davranışlarına verdikləri qiymətlər arasında zəif, amma statistik baxımdan əhəmiyyətli mənfi əlaqə vardır ($r = -0.135$, $p = 0.005$). Tədris ili artdıqca tələbələrin qiymətləndirmə səviyyəsində bir qədər azalma müşahidə olunur. Eyni zamanda, sadə lineer regresiya analizi də göstərmişdir ki, tədris ili etik davranış ortalamasına statistik əhəmiyyətə malik təsir göstərmişdir ($F(1, 423) = 7.85$, $p = 0.005$). Tədris ili bir vahid artdıqca etik ortalama balı təxminən 0.113 vahid azalmışdır. Beləliklə, tələbələrin təhsil müddəti artdıqca müəyyən tənqidi yanaşmanın formalaşdığını demək mümkündür.
4. Independent-Samples T-Test vasitəsilə aparılan analizin nəticələri sorğuda ən çox tələbəsi iştirak etmiş özəl (Xəzər universiteti) və dövlət (BDU) universitetlərində təhsilalanların hər bir suala görə verdikləri cavabları müqayisə etməyə imkan

vermişdir. Tələbələrin qapalı suallara verdikləri cavablara əsasən 20 sualdan 14-ü üzrə statistik əhəmiyyətli fərq aşkar edilmişdir. Qeyd edilən məsələlər üzrə ifadələrə verilən cavablarda Xəzər universitetinin tələbələrinin ortalama qiymətlərinin BDU tələbələrininkindən daha yüksək olması qeydə alınmış və statistik əhəmiyyətli fərq müəyyən olunmuşdur: müəllimlərin ölkə qanunlarına həmçinin təhsil müəssisələrinin qaydalarına əməl etməsi, tələbələrin şəxsiyyətinə hörmət etməsi, onları ictimai şəkildə tənqid etməyərək alçaltmaması, ədəbi dilin normalarına riayət edilməsi, müəllimin qeyri-etik zarafat və ya münasibətlərdən çəkinməsi, hər hansı bir mənfəət güdməməsi, müəllimlərin nümunəvi davranış nümayiş etdirməsi, fiziki və psixoloji zorakılıq göstərməməsi, obyektiv qiymətləndirmə həyata keçirməsi, imtahan və qiymətləndirmə ilə bağlı rəy bildirmək imkanının yaradılması, tələbələrin hüququnu qoruyan dəstək mexanizminin mövcudluğu. Ümumilikdə, sadəcə bir ifadədən başqa bütün ifadələrdə Xəzər universitetinin tələbələrinin verdiyi qiymət ortalamaları daha yüksək olmuşdur. BDU tələbələrinin müəllimlərin dərsə gecikməməsi və vaxtdan səmərəli istifadə etməsi ilə bağlı ifadəyə verilən qiymət ortalamaları (4.01) Xəzər universitetinin tələbələrininkindən (3.88) daha yüksək olmuşdur. Lakin bu fərq statistik əhəmiyyətli hesab olunmamışdır ($p=0.125$). Yenə də bu nəticə BDU-da müəllimlərin vaxtdan daha səmərəli istifadə etdiyini göstərə bilər. Müəllimin fəaliyyəti ilə bağlı iradlara və tənqidi fikirlərə hörmətlə yanaşması ilə bağlı ifadəyə verilən cavablarda statistik əhəmiyyətli fərq olmasa da, hər iki universitet tələbələrinin verdiyi qiymət ortalamalarının 3 civarında olması tələbələrin bu mövzuda tam əmin olmadığını göstərir. Statistik baxımdan əhəmiyyətli fərq qeydə alınmayan digər ifadələrə daxildir: müəllimlərin xarici görkəm və geyiminin peşəyə uyğun olması, tələbələr arasında ayrı-seçkiliyin edilməməsi, tələbələrin suallarının nəzakətlə və təmkinlə cavablandırılması, şəxsi məlumat və akademik nəticələrinin gizli saxlanılması, müəllimlərin şəxsi problemlərini tələbələrə əks etdirməməsi.

5. Sonuncu açıq sual vasitəsilə müəllimlərin qeyri-etik davranışlarına məruz qalmış və ya bu halları müşahidə etmiş tələbələrin təcrübələri haqda əldə olunmuş məlumatlar keyfiyyət yanaşması əsasında təhlil edilmişdir. Bu məlumatlar sistemli şəkildə bir yerə toplanmış və verilmiş cavablarla ilkin tanışlıqdan sonra bir neçə dəfə oxunulması ilə kodların müəyyənləşdirilməsi, ən sonda isə temalar altında

qruplaşdırılması həyata keçirilmişdir. Tematik analizin aparılması zamanı müəllimlərin qeyri-etik davranışları barədə narazılıqlarını qeyd etmiş 82 tələbənin ifadələrinə əsasən formalaşdırılan əsas temalara daxildir: psixoloji təsir, qeyri-etik dildən istifadə, ayrı-seçkilik, alçaldılma, qeyri-obyektiv qiymətləndirmə, dərsə etinasızlıq, düşüncə və dəyərlərə təsir, fiziki təsir. 82 tələbədən 35-i psixoloji təsir, 26-sı qeyri-etik dildən istifadə olunması, 23-ü ayrı-seçkilik və alçaldılma barədə şikayətlərini dilə gətirmiş, 16 tələbə qeyri-obyektiv qiymətləndirmə, 13 tələbə isə müəllimlərin dərsə etinasız yanaşmaları barədə narazılıqlarını ifadə etmişlər. Düşüncə və dəyərlərə təsir ilə bağlı 6 tələbə, fiziki təsirə dair isə 5 tələbə öz mənfi təcrübələrini və ya müşahidələrini qeyd etmişdir. Tədqiqat işində müxtəlif universitetlərdə təhsil alan tələbələrin qeyri-etik hallarla bağlı təcrübələrini daha yaxşı anlamağa imkan verən bəzi ifadələr olduğu kimi və ya seçilmiş hissələri sitat gətirilərək təqdim edilmişdir. Tələbələrin ifadələrindən məlum olmuşdur ki, müəllimlərin qeyri-etik davranışları onların psixoloji rifahına, motivasiyasına, təhsilə olan münasibətinə, akademik nailiyyət və gələcək gözləntilərinə ciddi təsirə malikdir. Bütün bunlar təsdiqləyir ki, qeyri-etik halların aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi ali təhsil mühitində təhsilin keyfiyyəti və tələbə məmnuniyyəti üçün olduqca vacibdir. Tədqiqatın bu hissəsində də, Xəzər universiteti və BDU tələbələrinin cavabları müqayisə edilmiş, bəzi oxşar və fərqli cəhətlər müəyyən edilmişdir. Hər iki universitetin tələbələrinin cavablarında psixoloji təsir və ayrı-seçkilik halları daha çox qeyd olunmuşdur. Fərqli cavablar kimi yaşlı müəllimlərdən şikayət, qeyri-etik fiziki təmas, düşüncə və dəyərlərə mənfi təsir BDU tələbələrinin ifadələrində öz əksini tapmışdır. Nəticədə, aparılan tematik analiz nəticəsində iştirakçıların 42.7%-i (n=35) müəllimlərin etik davranışlarının onların psixoloji vəziyyətinə təsir etdiyini ifadə etmişdir ki, bu, müəllimlərin etik münasibətlərinin tələbələrin psixoloji rifahı üzərində mühüm rol oynadığını göstərir və H1 hipotezini dəstəkləyir.

Qeyd etmək lazımdır ki, 82 tələbədən əlavə 8 nəfər qeyri-etik davranışla rastlaşdığını bildirsə də, suala ətraflı cavab verməyib və ya cavab vermək istəmədiyini vurğulayıb. Tələbələrdən bəzilərinin məktəb illərində şahid olduqları qeyri-etik hallardan, bir qisminin isə (magistratura təhsili alanlar) bakalavr təhsilini almış olduqları universitetlərdə qarşılaşdıqları qeyri-etik müəllim

davranışlarından da bəhs etmələri onu deməyə imkan verir ki, təhsilin hər bir pilləsində müəllim davranışları təhsilalanlarda daimi iz qoya bilir.

Etik dəyərlərin formalaşması adətən erkən yaş dövrlərinə təsadüf edir və bu dəyərlər ilk olaraq ailə mühitində aşılanmış olsa da, əsasən, daha da möhkəmləndirilməsi, davamlı öyrədilməsi prosesi uşaq bağçalarında və ibtidai məktəblərdə baş verir. Bu zaman uşaqlarda sağlam mənəvi təməlin qoyulması məqsədilə etik davranışlar, düzgün ünsiyyət və sosial məsuliyyət kimi anlayışların öyrədilməsi həyata keçirilir. Bu səbəbdən, bəzi insanlar zənn edirlər ki, ali təhsil etik davranışların inkişafında vacib rola sahib deyil. Lakin etik inkişafın ömür boyu davam etməsi bir həqiqətdir. Ali təhsil mühitində tələbələr müxtəlif situasiyalarda tez-tez etik qərarlar verməli olurlar, buna görə də ali təhsil müəssisələrinin vəzifələrindən biri də tələbələrin doğru qərarlar verə bilməsi üçün onları lazımi bacarıq və dəyərlərlə təmin etməkdir. Ali təhsil tələbələrdə etik düşüncə və dəyər sisteminin formalaşması baxımından əhəmiyyətli rola malikdir və xüsusilə müəllimlər tələbələrə rol model olmaqla böyük təsiretmə qabiliyyətinə sahibdirlər. Beləliklə, müəllimlərin etik davranışları təkcə onların peşəkar nüfuzuna deyil, eyni zamanda təhsilalanların inkişafına və bütövlükdə təhsil sisteminin keyfiyyətinə mühüm təsir göstərir (Hüseynli E., 2025, 105).

*Təkliflər*

Müəllimlərin etik davranışlarını tənzimləmək və təhsil sistemində ümumi keyfiyyət standartlarını yüksəltmək üçün aşağıdakı təkliflər irəli sürülür:

1) Müəllimlər üçün peşə etikası ilə bağlı məlumatlandırıcı tədbirlər təşkil oluna və etik davranışlara dair davamlı təlim, seminarların keçirilməsi təmin edilə bilər.
2) Müəllimlərin etik davranışlarına effektiv nəzarət mexanizmləri yaradıla bilər.
3) Müəllimlərin əsas tələblərinin qarşılanması onların peşə fəaliyyətinə daha yaxşı fokuslanmasına kömək edəcəkdir, buna görə də müəllimlərin iş şəraitinin yaxşılaşdırılmasına dair tədbirlər görülə bilər.
4) Mövcud etik kodekslər mütəmadi olaraq nəzərdən keçirilməklə müəllimlərin peşə fəaliyyətinə dair ən vacib məsələləri əhatə edəcək şəkildə yenilənə bilər. Kodeksin daha sadə və aydın dildə yazılması təmin edilə bilər ki, təkcə müəllimlər deyil, valideynlər və digər ictimaiyyət nümayəndələri də bu qaydalardan xəbərdar olsunlar.
5) Bir çox hallarda qeyri-etik davranışlarla bağlı tələbələr haraya müraciət edəcəklərini bilmirlər, buna görə də bu kimi hallar diqqətdən kənarda qalır. Etibarlı şikayət

mexanizmlərinin qurulması, bu mexanizmlərin tələbələr üçün şəffaf olması və anonim rəy bildirmə sistemlərinin mövcud olması xoşagəlməz halların qarşısını almağa kömək edə bilər.

6) Müəllim hazırlığı proqramında peşə etikasının öyrədilməsinə xüsusi diqqətin yetirilməsi tövsiyə olunur.
7) Hər bir təhsil müəssisəsində həm tələbələr, həm də müəllimlər üçün psixoloji dəstək xidmətlərinin mövcud olması təklif olunur.

*Məhdudiyyətlər və tövsiyələr*

Bu tədqiqat ali təhsil pilləsi ilə məhdudlaşmışdır, gələcək tədqiqatlarda təhsilin digər pillələrində və səviyyələrində də oxşar tədqiqatların aparılması zəruriyyəti mövcuddur. Tədqiqatda iştirak edən tələbələrin yalnız müəyyən ali təhsil müəssisələrini təmsil etməsi nəticələrin ümumiləşdirilərək ölkədəki bütün ali təhsil müəssisələrinə şamil edilməsinə mane olan məhdudiyyətdir. Bundan əlavə tədqiqatda əldə edilən məlumatlar yalnız tələbələrin subyektiv baxışlarını əks etdirdiyi üçün müəllimlərin öz perspektivləri nəzərə alınmamışdır. Gələcək tədqiqatlarda etik davranışların həm tələbələrin, həm də müəllimlərin baxışları nəzərə alınmaqla tədqiq edilməsi tövsiyə olunur. Müəllimlərin öz etik davranışları haqqında düşüncələrinin öyrənilməsi, habelə valideynlərin və rəhbərlərin fikirlərinin də nəzərə alınması və bu nəticələrin tələbələrin qavrayışları ilə müqayisə edilməsi etik davranışların daha obyektiv qiymətləndirilməsinə töhfə verə bilər. Müəllimlərin etik davranışlarına təsir edən amillər, müəllim davranışlarında cins və yaş göstəricilərinin, təhsil səviyyəsinin təsir gücü, həmçinin ali təhsildə etik liderlik, etik mühit anlayışları və etik qərarvermə prosesləri kimi məsələlərin tədqiqi də gələcək tədqiqatlar üçün mühüm istiqamət təşkil edə bilər.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

*Azərbaycan dilində*


1) Abbasov A.N., (2015), *Milli əxlaq və ailə etikası*. Bakı, Mütərcim, 324s.
2) Abbasova Q. Y., (2016), *Etika: tarix, nəzəriyyə və təcrübə*. Bakı, 347 s.
3) Ağayeva K., (2007), *Etika və gender: sosial-əxlaqi davranışın təhlili*. Bakı, "Sabah", 196 s.
4) Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli *"Təhsil haqqında Qanunu"*, 32 və 33-cü maddələri
5) Azərbaycan Respublikasının 1 fevral 1999-cu il tarixli *"Azərbaycan Respublikasının Əmək Məcəlləsi" Qanunu*, maddə 186
6) Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Kollegiyasının 15 may 2024-cü il tarixli *"Təhsilverənlərin etik davranış Qaydaları"*
7) *Azərbaycan Respublikasının Konstitusiyası*, 12 noyabr 1995-ci il (son dəyişikliklərlə)
8) *"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"*. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı.
9) Cəfərova Ə. Ş., (2020), *Pedaqoji prosesin təşkilində müəllimin rolu,* ELMİ İŞ (impakt faktorlu beynəlxalq elmi jurnal), 12 (61), 109-111.
10) Çobanzadə F.T., (2025), *Sosial pedaqoqun pedaqoji mədəniyyətinin əsas strukturu,* MAGİSTRANT, №2 (22), 260-265
11) Əliyeva S., (2024), *Ali məktəb pedaqogikası*. Bakı, "Füyuzat" MMC, 251 səh
12) Hacı, M. (2025). *Davamlı İnkişaf Üçün Təhsilin (ESD) Ali Təhsildə Rolu*. Akademik Tarih ve Düşünce Dergisi, 12 (1), 893-903.
13) Hacıyeva N., (2012), *Estetika, Peşə etikası və Psixologiya*, Bakı, Şərq-Qərb nəşriyyat Evi, 128 səh
14) Huseynova, K. (2024). "*Müəllimin Pedaqoji Fəaliyyətinin Etik və Spesifik Xüsusiyyətləri"*. Anadolu Türk Eğitim Dergisi 6 (1):166-171. https://doi.org/10.29329/ated.2024.665.19
15) Hüseynli, E. (2025). *Ali təhsil mühitində etik davranışların təhlili: müəllimlərin rolu və təsirləri.* Elmi Tədqiqat Beynəlxalq Elmi Jurnal, 5(4), 99–106. https://doi.org/10.36719/2789-6919/44/99-106
16) Hüseynzadə, R. L., Əzizova, Z. M., Əliyev, S. H., & Verdiyeva, Ü. M. (2021), *Pedaqogika.* Bakı: Mütərcim. 488 səh.

17) Məmmədov. A., Quliyev. O., və b., (2023)., *Tədqiqat Metodları.*, Ali təhsilin magistratura pilləsində "İqtisadiyyat", "Maliyyə" və "Dünya iqtisadiyyatı" ixtisaslarında təhsil alan tələbələr üçün Dərslik., Bakı

18) Məmmədzadə R.H., (1992), *Müəllimin peşə etikası,* Bakı.

19) Nəzərov M. H., (2018), *Professional-pedaqoji mədəniyyətin mahiyyəti və əsas komponentləri,* Bakı Dövlət Universiteti, İlahiyyat fakültəsinin elmi məcmuəsi, № 29, 207-215.

20) Quliyeva K. R., (2024), *Müəllimin pedaqoji mədəniyyəti*, Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 91, №6, 128-131.

21) Qüdrətli K. F., (2020), *Müəllimin pedaqoji mədəniyyəti və onun peşə keyfiyyətlərinin mühüm şərti kimi*, Bakı Qızlar Universiteti, Elmi əsərlər Cild 11, № 4, (44), 101-104.

22) Sultanov R., (2024), *Müəllimin xüsusi pedaqoji etik tərbiyə və mədəniyyətə malik olması*, 173-176, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Dendrologiya İnstitutu, Qlobal İqlim Dəyişikliklərinin Ekoloji mühitə təsiri, beynəlxalq konfrans, Bakı.

23) Şahhüseynova S. A., (2009), *Etika: İncəsənət təmayüllü ali məktəb tələbələri üçün dərslik*, Bakı, 160 s.

24) Xəlilov V., (2018), *Peşə etikası, Peşə təhsili və insan kapitalı*. Cild 1, №4, s.17-20

25) İlyasov M. İ., (2018), *Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri*. Monoqrafiya. Bakı: "Elm və təhsil", 208 s

*Türk dilində*

26) Akkaya, M. A., & Yıldırım, Z. (2017). *Akademik bilgi üretimi ve etik*. Çankırı Karatekin Üniversitesi Karatekin Edebiyat Fakültesi Dergisi, 5(2), 78-93.

27) Akhan, N. E., & Öztürk, A. (2022). *Sosyal bilgiler öğretmen adaylarının mesleki gelişimine bir katkı: Öğretmenlik meslek etiği.* Turkish Journal of Educational Studies, 9(1), 47-68. https://doi.org/10.33907/turkjes.773606

28) Arslan, H. (2024). *Öğretmenlerin öğrenciler ile ilişkilerde etik ilkelere uygun davranma durumlarının incelenmesi* (Yüksek lisans tezi). Muğla Sıtkı Koçman Üniversitesi, Eğitim Bilimleri Enstitüsü, Eğitim Bilimleri Anabilim Dalı, Eğitim Programları ve Öğretimi Bilim Dalı, Muğla.

29) Atak, S., & Gül, S. K. (2014). *Meslek etiği kavramları*. Ankara: Adalet Yayınevi.

30) Ay, F. (2017). *Öğretim üyesinin etik sorumluluğu*. Sağlık Bilimleri ve Meslekleri Dergisi, 4(3), 267-271. https://doi.org/10.17681/hsp.281915

31) Aybek, B., & Karataş, T. (2016). *Öğretmen adaylarının etik ve mesleki etik hakkındaki görüşlerinin incelenmesi.* Eğitim ve Öğretim Araştırmaları Dergisi (Journal of Research in Education and Teaching), 5(12,) 96-108.

32) Başar, H. (1999). *Sınıf yönetimi*. İstanbul: M.E.B. Yayınları.

33) Boydak Özan, M., Polat, H., Gündüzalp, S., & Yaraş, Z. (2017). *School administrators' opinions and suggestions on codes of ethics.* Firat University Journal of Social Sciences, 27(1), 43-52. https://doi.org/10.18069/firatsbed.346429

34) Ceylan T., (2024), *Türkçe öğretmeni adaylarının görüşlerine göre akademisyenlerin mesleki etik davranışları üzerine bir araştırma* (Yüksek lisans tezi). Van Yüzüncü Yıl Üniversitesi.

35) Cizreli, S., Kirtay, R., Boynukara, Z., Çelik, S., Yılmaz, N., Tiryaki, E., Günay, E., & Durum, M. O. (2023). *Öğretmenlerin etkili öğretmen davranışlarına ne ölçüde sahip olduklarına ilişkin algıları*. International Journal of Social and Humanities Sciences Research (JSHSR), 10(93), 694-708. https://doi.org/10.2645

36) Coşkun, B., & Çelikten, M. (2020). *Öğretmenlik meslek etiği üzerine bir inceleme.* OPUS International Journal of Society Researches, 15(21), 686-710. https://doi.org/10.26466/opus.666967

37) Coşkun, N. (2016). *Eğitim fakültesi öğrencilerinin ve öğretim elemanlarının öğretmenlik meslek etiği değerlerine ilişkin görüşleri: Mesleki etik değerlerin kazanımı sürecinde örtük program* (Doktora tezi). Adnan Menderes Üniversitesi.

38) Çabuk, A., & İşgüden, B. (2006). *Meslek etiği ve meslek etiğinin meslek yaşamı üzerindeki etkileri.* Balıkesir Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 9(16), 59-86.

39) Çelikten, M. (2005). *Öğretmenlik mesleği ve özellikleri.* Erciyes Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 1(19), 207-237.

40) Demir, G. (2021). *Etik kodların örgütsel açıdan değerlendirilmesi*. Manas Sosyal Araştırmalar Dergisi, 10(4), 2314-2332.

41) Demir, G. (2023). *Yükseköğretimde etik ilkelerin gelişimi ve önemi*. RumeliDE Dil ve Edebiyat Araştırmaları Dergisi, (34), 403-420. https://doi.org/10.29000/rumelide.1316156

42) Erdem, H. (2014). *Kitle iletişimi, etik ve eğitim.* Gazi Üniversitesi Gazi Eğitim Fakültesi Dergisi, 34(1), 63–77. https://doi.org/10.17152/gefd.10834

43) Erdirençelebi, M., & Filizöz, B. (2019). *Meslek etiği ve akademisyenlerin etik değerleri üzerine nicel bir araştırma.* OPUS Uluslararası Toplum Araştırmaları Dergisi, 14(20), 1228-1258. https://doi.org/10.26466/opus.5999

44) Gedikli, S. (2023). *Özel eğitim öğretmenlerinin etik davranış, etik iklim ve tükenmişlik algılarını etkileyen bazı faktörlerin incelenmesi* (Yüksek lisans tezi). Marmara Üniversitesi, Eğitim Bilimleri Enstitüsü, Özel Eğitim Anabilim Dalı, İstanbul.

45) Gurbetoğlu, A., & Tomakin, E. (2011). *Sevilen ve sevilmeyen öğretmen davranışlarına ilişkin öğrenci görüşlerinin incelenmesi.* Ahi Evran Üniversitesi Kırşehir Eğitim Fakültesi Dergisi, 12(1), 261–276.

46) Güven, B., & Saydam, S. (2024). *Öğretmenlerin meslek etik algılarının incelenmesi.* Çağdaş Uygulamalı Bilimler Dergisi, 2(1), 16–25.

47) İlter, İ., & Izgar, G. (2022). *Öğretmen adaylarının iyi öğretmen özellikleri hakkındaki farkındalıkları.* Milli Eğitim Dergisi, 51(236), 3537-3562. https://doi.org/10.37669/milliegitim.1039501

48) İnayet Aydın (Yazar). Adnan Boyacı (Genel Müdür). (2021). *Öğretmenlik meslek etiği*. Milli Eğitim Bakanlığı.

49) Karataş, K. (2020). *Öğretmenlik mesleğine kuramsal bir bakış.* Elektronik Eğitim Bilimleri Dergisi, 9(17), 39-56.

50) Kayıkçı, K., & Uygur, Ö. (2012). *İlköğretim okullarının denetiminde mesleki etik (Bir durum çalışması). Kuram ve Uygulamada Eğitim Yönetimi* [Educational Administration: Theory and Practice], 18(1), 65-94.

51) Keskin, N., & Keskin, İ. (2023). *Öğretmen adaylarının eğitimde etik dışı davranışlara ilişkin görüşleri.* European Journal of Educational & Social Sciences, 8(1), 18-31.

52) Kırıcı, M. (2014). *Öğrenci algılarına göre öğretmenlerin mesleki etik kurallara uyma düzeyleri* (Şanlıurfa ili Haliliye ilçesi örneği) [Yüksek lisans tezi, Zirve Üniversitesi ve Kahramanmaraş Sütçü İmam Üniversitesi]. YÖK Tez Merkezi. https://tez.yok.gov.tr/

53) Kocabıyık, A. (2019). *Öğretmenlerin mesleki etik ilkeleri ile eğitim inançları ilişkisinin incelenmesi* (Yüksek lisans tezi). Kafkas Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Kars.

54) Koç, E. S. (2014). *Sınıf öğretmeni adaylarının öğretmen ve öğretmenlik mesleği kavramlarına ilişkin metaforik algıları.* İnönü Üniversitesi Eğitim Fakültesi Dergisi, 15(1), 47-72.

55) Kurt, H. (2022). *Türkiye'de öğretmenlik meslek etik ilkelerinin uygulanmasına ilişkin okul müdürlerinin görüşleri* (Yüksek lisans tezi). Düzce Üniversitesi, Eğitim Bilimleri Anabilim Dalı, Düzce.
56) Küçükoğlu, M. T. (2012). *Etik değerler ve etiğin kurumsallaşması.* Hukuk ve İktisat Araştırmaları Dergisi, 4(1), 177-185.
57) Ordu, A. (2019). *Öğretmenlik mesleği için etik ilkeler ve etik ilkelere ilişkin öğretmen görüşleri* (Yüksek lisans tezi). İstanbul Üniversitesi.
58) Özbek, O. (2003). *Beden eğitimi öğretmenlerinin mesleki etik ilkeleri ve bu ilkelere uyum düzeyleri* (Doktora tezi). Ankara Üniversitesi, Eğitim Bilimleri Ana Bilim Dalı.
59) Pelit, E., & Güçer, E. (2006). *Öğretmen adaylarının öğretmenlik mesleğiyle ilgili etik olmayan davranışlara ve öğretmenleri etik dışı davranışa yönelten faktörlere ilişkin algılamaları.* Gazi Üniversitesi Ticaret ve Turizm Eğitim Fakültesi Dergisi, (2), 95–119.
60) Saban, M., & Atalay, B. (2005). *Yönetim muhasebecileri açısından etik ve etik davranışın önemi.* Muhasebe ve Denetime Bakış, (16), 49-60.
61) Sayan, H. (2015). *Eğitim ve öğretmen*. Çankırı Karatekin Üniversitesi SBE Dergisi, 6(2), 585-596.
62) Sevgi İyi & Harun Tepe. (2019). *Etik.* T.C. Anadolu Üniversitesi, Eskişehir.
63) Sürmelioğlu, M., & Üstün, A. (2023). *Öğretmenlerin sınıf içi tutumlarının öğrencilerin ders başarısına etkisine yönelik öğretmen görüşleri*. Journal of Social, Humanities and Administrative Sciences, 9(70), 3843–3850. http://dx.doi.org/10.29228/JOSHAS.72970
64) Şengül, B. (2013). *Öğretmenlerin etik davranışlarının incelenmesi: Türkiye - Kosova karşılaştırması* (Yüksek lisans tezi). Marmara Üniversitesi, Eğitim Bilimleri Enstitüsü.
65) Tosunoğlu, Y. (2017). *Türkçe öğretmenlerinin mesleki etik davranışlarına ilişkin ortaokul öğrencilerinin görüşleri* (Yüksek lisans tezi). Bartın Üniversitesi.
66) Uzun, F. (2022). *Eğitimde etik ve ahlaki değerlerin artan önemi.* 21. Yüzyılda Eğitim ve Toplum, 11(31), 91-105.
67) Ünsaldı, M. (2012). *Savunma sanayii projelerinde etik* [Sivil öğrenci raporu]. T.C. Genelkurmay Başkanlığı Harp Akademileri Komutanlığı, Stratejik Araştırmalar Enstitüsü. https://www.academia.edu/9251410/Savunma_Sanayii_Projelerinde_Etik
68) Yaylalı, E. (2023). *Öğretmenlerin öğrencilerle ilişkilerinde etik dışı davranışlarına ilişkin öğretmen görüşleri* (Yüksek lisans tezi). Düzce Üniversitesi.

69) Yeşilyurt, E., & Kılıç, M. E. (2014). *Ortaokul öğrencilerinin algılarına göre öğretmenlerin etik değerlere uyma düzeylerinin değerlendirilmesi*. EKEV Akademi Dergisi, (60), 471-486.

70) Yıldız, N. (2012). *Etik ile ahlak ayrımı*. Felsefe Arşivi, (35), 23–36.

71) Yılmaz, S. (2017). *Din sosyolojisi çalışmalarında alan araştırması yapmanın zorlukları.* Journal of History Culture and Art Research, 6(3), 1-31. http://dx.doi.org/10.7596/taksad.v6i3.950

*İngilis dilində*

72) ACT Teacher Quality Institute. (2006). Code of professional practice and conduct for ACT teachers. https://www.tqi.act.edu.au/__data/assets/pdf_file/0019/2180071/06.TQI-Code-of-Professional-Practice-and-Conduct_POSTER.pdf

73) American Association of Educators. (2022). Code of Ethics for Educators. https://www.aaeteachers.org/index.php/about-us/aae-code-of-ethics

74) Barrett, D. E., Casey, J. E., Visser, R. D., & Headley, K. N. (2012). *How do teachers make judgments about ethical and unethical behaviors? Toward the development of a code of conduct for teachers.* Teaching and Teacher Education: An International Journal of Research and Studies, 28(6), 890–898. https://www.learntechlib.org/p/202384/

75) Boon, H. J. (2011). *Raising the Bar: Ethics Education for Quality Teachers*. Australian Journal of Teacher Education, 36(7), 104–121. https://doi.org/10.14221/ajte.2011v36n7.2

76) Braun, V., & Clarke, V. (2012). *Thematic analysis.* In H. Cooper, P. M. Camic, D. L. Long, A. T. Panter, D. Rindskopf, & K. J. Sher (Eds.), *APA handbook of research methods in psychology*, Vol. 2: Research designs: Quantitative, qualitative, neuropsychological, and biological (pp. 57–71).

77) Demirbilek, M. (2023). *Unethical behaviours of teachers in the opinions of school administrators and colleagues.* İş Ahlakı Dergisi, 16(1), 76–101.

78) Department for Education. (2021). Teachers' standards: Guidance for school leaders, school staff and governing bodies. https://assets.publishing.service.gov.uk/media/61b73d6c8fa8f50384489c9a/Teachers__Standards_Dec_2021.pdf

79) Ehrich, L. C., Kimber, M., Millwater, J., & Cranston, N. (2011). *Ethical dilemmas: a model to understand teacher practice.* Teachers and Teaching, 17(2), 173–185. https://doi.org/10.1080/13540602.2011.539794

80) Furman, G. C. (2003). *Moral leadership and the ethic of community.* Values and Ethics in Educational Administration, 2(1), 1–8.

81) Icka, E., & Kochoska, J. (2024). *The influence of teachers as an ethical model on the students' development.* International Journal of Education Teacher, 27, 99–107. https://doi.org/10.20544/teacher.27.12

82) Jumoke Akinrotimi. (2021). *Critical Professional Misconducts of Teachers in the Educational System and Way Out.* International Journal of Research Publications (IJRP), 76(1), 134–141. https://doi.org/10.47119/IJRP100761520211907

83) Kean University. (2021). National Education Association Code of Ethics for Educators. https://digitalcommons.kean.edu/evidence_inventory/408

84) Kim, T. K. (2015). *T test as a parametric statistic.* Korean Journal of Anesthesiology, 68(6), 540–546. https://doi.org/10.4097/kjae.2015.68.6.540

85) Kim, T. K. (2017). *Understanding one-way ANOVA using conceptual figures.* Korean Journal of Anesthesiology, 70(1), 22–26. https://doi.org/10.4097/kjae.2017.70.1.22

86) Mabagala, S. (2016). *Prevalence of professional misconduct in Nzega District, Tanzania public secondary schools.* African Journal of Teacher Education, 5(1).

87) Manjunatha, N. (2019). *Descriptive Research.* International Journal of Emerging Technologies and Innovative Research, 6(6), 863–867. https://www.jetir.org/papers/JETIR1908597.pdf

88) Mauti, J. M., Pacho, T. O., & Nyatuka, B. O. (2022). *Ethical factors affecting learners' transition.* International Journal of Research in Education and Psychology (IJREP), 8(3), 14–34. https://doi.org/10.54513/IJREP.2022.8302

89) McCreary, B. (2019). *Professional ethics, decision-making, and interdisciplinary collaboration: An exploration of teacher preparation programs and practice* (Doctoral dissertation). Electronic Theses and Dissertations, Paper 254.

90) Mfaume, H., & Bilinga, M. (2017). *Prevalence of teachers' professional malpractices in Tanzanian public secondary schools: What ought to be done?* Journal of Education and Training Studies, 5(2), 43–52.

91) NASDTEC. (2021). Model Code of Ethics for Educators (2nd ed.). https://cdn.ymaws.com/www.nasdtec.net/resource/resmgr/mcee/mcee_2nd_edition_print_versi.pdf

92) National Education Union. (2018). Code of professional conduct. https://neu.org.uk/about/about-us/rules-and-procedures/national-education-union-rule-book

93) Page, D. (2016). *The multiple impacts of teacher misbehaviour*. Journal of Educational Administration, 54(1), 2–18. https://doi.org/10.1108/JEA-09-2014-0106

94) Paschal, M. J. (2023). *Ethics in the teaching profession: A practical approach to teachers' professionalism.* International Journal of Social Sciences and Educational Studies, 10(3), 82–94.

95) Pater, A., & Gils, A. V. (2003). *Stimulating ethical decision-making in a business context: Effects of ethical and professional codes.* European Management Journal, 21(6), 762–772.

96) Rothman, P. (2017). *Ethics in higher education: A study of the perceived ethical climate of administrators and faculty at a higher education institution* (Doctoral dissertation). Education Doctoral Papers, Paper 287.

97) Rothman, S. B. (2007). *Understanding data quality through reliability: A conversation.* International Social Science Review, 82(3/4), 139–156. https://www.iea.ulaval.ca/sites/iea.ulaval.ca/files/RothmanArticle_ISR2007.pdf

98) Safarpour, B. (2024). T*eacher training and professional ethics.* Iranian Journal of Educational Sociology, 7(3), 80–87. https://doi.org/10.61838/kman.ijes.7.3.10

99) Shodiya, O. A., & Adekunle, T. A. (2022). *Reliability of research instruments in management sciences research: An explanatory perspective.* Scientific Papers of Silesian University of Technology. Organization and Management Series, (166), 712–722. https://managementpapers.polsl.pl/wp-content/uploads/2023/01/166-Shodiya-Adekunle.pdf

100) Signh, C., & Parasad, M. (2017). *Code of ethics in an organisation*. International Journal of Application or Innovation in Engineering & Management, 6(5), 138–142.

101) Tirri, K., & Kuusisto, E. (2023). Ethical code of Finnish teachers. University of Helsinki. https://www.researchgate.net/publication/367447522_Ethical_Code_of_Finnish_Teachers

*Rus dilində*

102) Далимаева, Е. О., 2022, *Этика для специальности* 1-02 01 01 История и обществоведческие дисциплины: учебно-методический комплекс по учебной дисциплине, 96 с.

103) Ковалев, А. Н., Кулик, Н. В., 2013, *Профессиональная этика: учебное пособие для бакалавриата.* — Санкт-Петербург, Санкт-Петербургский юридический институт (филиал) Академии Генеральной прокуратуры Российской Федерации, 96 с.

104) Синицына, Т. И., 2022, *Профессиональная этика и служебный этикет: учебное пособие,* Северо-Западный институт (филиал) Университета имени О. Е. Кутафина (МГЮА), Фонд развития филиала МГЮА имени О.Е. Кутафина в г. Вологде. – Вологда, 2022. – 162 с. – (Высшее образование).

105) Ситяева, Л. П., Остапенко, Н. Н., & Коржевская, Н. М., 2009, *Профессиональная этика: учебное пособие*. Екатеринбург: Изд-во ГОУ ВПО «Рос. гос. проф.-пед. ун-т», 106 с.

106) Яровова, Т. В., & Сергеева, Е. И. (2019). *Роль этики в профессиональной деятельности педагога.* В Е. И. Артамонова (Ред.), Профессионализм педагога: сущность, содержание, перспективы развития: Материалы Международной научно-практической конференции, посвященной 130-летию со дня рождения А. С. Макаренко (14–15 марта 2019 г.) (сс. 193–197). МГОУ, МАНПО; Ремдер.

*İnternet resurslar:*

107) https://www.statisticshowto.com/probability-and-statistics/statistics-definitions/cronbachs-alpha-spss/